*“Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz”.*

***Ümummilli lider Heydər Əliyev***

**Nizami Sadıqov**

# Ağdam gündəliyi

## (Beş ilin hesabatı)

## *Elim talan, qəlbim viran...*

Möhtərəm oxucu!

İndi oxuyacağınız bu xatirə-kitabı yazmağa məni kölgəmi qılınclayan bir vəzifəli ağzıgöyçəyin qarama dediyi sözlər vadar elədi. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən təzəcə getmişdim, onun dalımca təxminən belə bir fikir işlətdiyini eşitdim: “Nizami Sadıqov Ağdam üçün nə iş görüb, axı?..”

Bu üzdən həm Ağdamda çalışdığım təxminən beş il müddətində, həm də ondan əvvəlki dövrdə çətinliklərlə üzləşdiklərinə görə mənə müraciət edib yardım istəyən həmyerlilərimin mənafeyi naminə görməyi vacib saydığım və gördüyüm, indiyə qədər heç yerdə dilimə gətirmədiyim işlərin yaddaşımda qalan məqamlarını qələmə almaq fikrinə düşdüm. Beləcə, hesabat məzmunlu bu kitab ərsəyə gəldi.

Bəri başdan ağdamlıları və dəyərli oxucuları əmin etmək istəyirəm ki, uzun tərəddüdlərdən sonra yazmaq qərarına gəldiyim bu kitabda diqqətinizə çatdırdığım fakt və hadisələr hər kəlməsinə qədər həqiqətdir, zərrə qədər də olsun, hansısa şişirtməyə, tərifə və təhrifə yol verilməyib.

Vaxt ayırıb mənim üçün böyük əhəmiyyət daşıyan, həyatımın və fəaliyyətimin önəmli bir mərhələsini əhatə edən dövrlə bağlı

düşüncələrimin yer aldığı bu xarirə-kitabı oxuduğunuza, necə deyərlər, bir kitab boyu mənimlə yol yoldaşı olduğunuza görə bəri başdan hər birinizə "çox sağ olun" deyir, obyektiv, müdrik, dürüst nəticələrə gələcəyinizdən əminliyimi və sizlərə sonacan güvəndiyimi bildirirəm.

***

Mən özüm Ağdamda doğulub boya-başa çatmışam. 1950-ci ilin 12 aprel günündə Sarıhacılı kəndində, zəhmətkeş bir ailədə dünyaya göz açmışam. Ailəmiz böyük olub, orta məktəbi internat məktəbində oxumuşam. 1957-ci ildə Ağdam şəhərindəki internat məktəbinə daxil olub 1967-ci ildə həmin məktəbi bitirmişəm. 1967-1969-cu illərdə Ağdam Rayon Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumunun əmtəəşünaslıq fakültəsində oxumuşam, hələ Böyük Vətən müharibəsi illərindən səsi-sorağı dünyaya yayılmış məşhur Kantemirov Tank Diviziyasında 1969-1971-ci illərdə hərbi xidmət keçmişəm. Tank qoşunlarında tağım komandiri vəzifəsini daşıdığıma görə leytenant hərbi rütbəsi almışam. Xidmətimi başa vurandan sonra bir neçə il doğma Ağdamda Kənd Təsərrüfatı Texnikumunda müəllimlik etmişəm, Azərbaycan Pedaqoji İnstitutunun (indi Pedaqoji Universitet) tarix fakültəsində təhsil almışam. Sonra ömrümün böyük bir hissəsi ədliyyə və daxili işlər orqanlarında xidmətdə keçib - 15 il cəzaçəkmə müəssisəsində, 22 il polis orqanlarında işləmişəm – həbsxana rəisi olmuşam, Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarış İdarəsinin Ölüm şöbəsində xüsusilə ağır cinayətlər üzrə baş əməliyyat müvəkkili kimi fəaliyyət göstərmişəm, İmişli, Ağdaş, Masallı, Quba, Şabran rayonlarında polis şöbələrinə rəhbərlik etmişəm. Ehtiyatda olan polis polkovnikiyəm. İşlədiyim müddət ərzində bir dəfə də olsun töhmət almamışam. Fəaliyyətim dövründə hörmət və ehtiram bəslədiyim, idarəçilik metodunu bəyəndiyim vəzifəli şəxslərdən həmişə nəsə öyrənməyə, əxz eləməyə çalışmışam.

Vəzifə, mənsəb sahiblərindən söz düşəndə, adətən, tez-tez belə bir fikir işlədilir: "Ədalətli rəhbər olmur". Amma, əslində, bu fikri ucdantutma

hər kəsə şamil etmək doğru deyil. Söz var, deyir, beş barmağın beşi də bir ola bilməz. Eynən insanlar da belədir. Vəzifə daşıyan hər kəs ilk növbədə insandır və nəzərə alsaq ki, yer üzündəki insanlar xarakter, dünyagörüşü, düşüncə tərzi baxımından bir-birindən yerlə-göy qədər fərqlənir, onda vəzifəli şəxslərə də fərdi yanaşmaq, əməllərinə ayrı-ayrılıqda qiymət vermək zərurəti ortaya çıxır. Kənardan, görməzə-bilməzə hansısa vəzifə sahibinin işinə obyektiv qiymət vermək çətindir. Vəzifə tutan adamın əməldə ədalətli olub-olmadığını heç onun özü də bilə bilməz. Onun əməlinə ən dürüst qiyməti rəhbərlik etdiyi kollektiv və ünsiyyətdə olduğu insanlar verə bilərlər.

Uca Yaradan Qurani-Kərimin Nisa surəsində buyurur ki: “Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla bizlərə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah hər şeyi eşidəndir, görəndir!” Mən hansı vəzifə daşımağımdan asılı olmayaraq, idarəçilikdə həmişə ədalət prinsipinə xüsusi önəm vermişəm. Heç kimə sirr deyil ki, polis rəisinin başlıca vəzifələrindən biri də vətəndaşlar arasında yaranan ciddi münaqişələri araşdırıb düzgün, qanunauyğun qərar qəbul etməkdir. Polis rəisinin qəbul etdiyi hansısa qərar əsassız, qanunazidd olanda, məhkəmə, prokurorluq orqanı həmin işə ya xitam verir, ya da onu rədd edir. Polis rəisi kimi fəaliyyət göstərdiyim 22 ildə mənim çıxardığım hər hansı qərar heç zaman hansısa orqan və ya vəzifəli şəxs tərəfindən ləğv edilməyib. Ədalətsizliyə, haqsızlığa qarşı hər zaman dözümsüz olmuşam. İnsanın ədalətsizliyə məruz qalmasının nə qədər üzücü, ağır olduğunu hələ kiçik yaşlarımdan dərk etmişəm. Ona görə də rəhbər vəzifələrdə işləyərkən daima hər kəsə münasibətdə ədalətli olmağa çalışmışam...

1957-ci ilin sentyabrı idi, internat məktəbinin 1-ci sinfinə gedirdim. Tərbiyəçi müəllimənin haqqımda çıxardığı ədalətsiz bir qərar bu günəcən hafizəmdən silinmir. Nahar vaxtı idi, iki oğlan və iki qız bir masa arxasında oturmuşduq. Mənimlə üzbəüz oturan qız qəfildən ağlamağa başladı. Müəllimə yaxınlaşıb ağlamağının səbəbini soruşanda qız dedi ki, guya mən

ona gözümü ağartmışam. Müəllimə məni dinləmədən dərhal qulağımı çəkdi və yerimi başqa masaya dəyişdirdi. Əslində, internata təzə gələn uşaqlar evləri yadına düşən kimi kövrəlib ağlayardılar - həmin qız da bu səbəbdən ağlamışdı. Amma müəllimə qızın bir kəlmə sözü ilə məni günahlandırmış, mənə qarşı ədalətsiz davranmışdı. İndi düşünürəm, bəlkə də, o hadisə mənim üçün həyatımı yönəldən, yol göstərən, ədalətli, dürüst olmağı təlqin edən ilahi bir dərs olub. Ömrü boyu ədalətsizliyə nifrət etmişəm, çalışmışam ki, nə olur-olsun, kiməsə qarşı ədalətsizliyə yol verməyim. Həmişə hesab etmişəm ki, öz elini-obasını, anadan olduğu torpağı sevən kəs ədalətsizliyə yol verməməlidir.

Özümdən misal gətirəcəyəm. Mən başqa rayonlarda polis rəisi vəzifəsində işləyəndə həmişə fikirləşirdim ki, əgər nəyisə düz eləməsəm, haqsız iş görsəm, indi də olmasa, mən gedəndən sonra qarama danışacaqlar, deyəcəklər ki, əvvəllər burada Ağdamdan bir polis rəisi vardı, çox pis adam idi, filan vaxt filankəsin çörəyinə bais oldu. O adam, çox güman ki, adımı da unudacaqdı, amma Ağdamdan olmağımı heç vaxt yadından çıxarmayacaqdı və beləcə, mənim hansısa səhvim el-obamın adına yazılacaqdı. Bu məsələdən mən daima ehtiyatlanmışam və həmişə çalışmışam ki, öz işimlə, əməlimlə haqqın, ədalətin yanında olum.

Bu mənim qəti və birmənalı qənaətimdir: rəhbər şəxs öz davranışı, əxlaqı, yüksək mədəniyyəti ilə nümunə olmağı bacarmalı, ən xırda detala belə diqqət yetirməli, yerişində-duruşunda, danışığında, hətta gülüşündə də nöqsana yol verməməlidir. Rəhbər şəxs nalayiq söz işlətməməli, ağzını təmiz saxlamalı, nə qədər əsəbi olsa da, insanların şəxsiyyətinə, heysiyyətinə toxunmamalı, vəzifəcə özündən aşağıdakılara güc nümayiş etdirməməli, sayından asılı olmayaraq, tabeliyində işləyən insanların hər birinin qayğısına qalmalı, onların xeyir-şərində yaxından iştirak etməlidir. Tabeliyindəki işçiləri qorxu ilə deyil, xoş rəftarla idarə etməyi bacarmalıdır – işçi səndən qorxarsa, sənə hər cür yalan danışar, yox əgər hörmət, diqqət görərsə, həmişə sənə həqiqəti söyləyər. Kollektivdə mehribanlıq yarada bilməyən rəhbər yaxşı rəhbər ola bilməz. Rəhbər tabeliyində olanları

cəzalandırmağı da, mükafatlandırmağı da bacarmalıdır. O, tabeliyində olanları özü cəzalandıra bilər, lakin onları başqalarının ayağına versə, nüfuzdan düşər.

Tabeliyində çalışan insanlar rəhbərin işgüzarlığının şahidi olmalıdır. O, iş yerinə hamıdan əvvəl gəlib, işdən hamıdan sonra getməlidir. Qətiyyəti, yüksək mübarizlik keyfiyyətləri, analitik təfəkkürü, modern iqtisadi düşüncəsi olmalı, idarəçilikdə hüquq-mühafizə orqanlarının gücünə yox, özünə güvənməlidir. Rəhbər işində tələbkar olmağa, ciddiyyətini qorumağa borcludur. Zəif, iradəsiz insandan rəhbər ola bilməz. Amma bununla belə, o həm də ambisiyadan uzaq, təkəbbürsüz, alicənab, xoşrəftar, ünsiyyətə açıq olmalı, insanlarla səmimi davranmalı, vətəndaşları axıra qədər dinləməyi bacarmalı, yaşlı, ağsaqqal adamlara xüsusi hörmət göstərməli, qohumbazlıq etməməli, yaltaq adamları çevrəsinə yaxın buraxmamalıdır.

Rəhbər şəxs səliqəli geyinməli, amma özünə bəzək-düzək verməkdən uzaq durmalı, üzərində qızıl-zinət əşyaları, bahalı aksessuarlar daşımaqdan qaçmalıdır. Rəhbər tamahına, nəfsinə qalib gəlməlidir. Müqəddəs Qurani-Kərimin Səd surəsində Davud peyğəmbərə xitabən buyurulur ki: “Biz səni yer üzündə xəlifə, əvvəlki peyğəmbərlərə xələf etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et, nəfsdən gələn istəklərə uyma, yoxsa onlar səni Allah yolundan sapdırar”.

Ən nəhayət, mənim fikrimcə, rəhbər şəxs keçirdiyi iclas və müşavirələrdə tapşırıq və göstərişlərini mümkün qədər qısa, konkret, lakonik ifadə etməli, işin mahiyyətindən danışmalı, uzun-uzadı nitqi ilə insanları bezdirməməli, mərkəzi icra hakimiyyətinin rəhbərlərilə ünsiyyət qurmağı bacarmalıdır.

Möhtərəm oxucu!

Rəhbər şəxslərin hansı keyfiyyətlərə malik olması ilə bağlı bu fikirləri qətiyyən gəlişigözəl sözlər kimi qəbul etməyin. Mən ömrümün ən enerjili, ən işgüzar illərini sərf edərək, uzun illər çalışaraq bu qənaətə gəlmişəm və dediyim fikirlərin arxasında kifayət qədər böyük təcrübə

dayanır. Rəhbər vəzifələrdə işlədiyim illər ərzində - nə həbsxanada, nə polis orqanlarında, nə də Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışdığım müddətdə, bir dəfə də olsun, kimsə mənim nə cavabımı qaytarıb, nə də mənimlə kobud danışıb.

Demək istəyirəm ki, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyinat alanda mən artıq bu sınaqlardan çıxmış, uzun həyat yolu keçmiş, idarəçilik təcrübəsinə malik bir insan idim. Və ən başlıcası da, doğulub boya-başa çatdığım rayonun, onun adamlarının rifahı üçün qəlbimdə reallaşdırmaq istədiyim bir çox arzularım var idi. Bu arzuları həyata keçirə biləcəyimə böyük inam hissi ilə Ağdama gəldim.

***

2009-cu il avqust ayının 31-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olundum. Elə həmin gün cənab Prezident mənimlə 20 dəqiqəyə yaxın söhbət etdi, tövsiyə və tapşırıqlarını verdi. Heç yadımdan çıxmaz, cənab Prezident təxminən belə bir cümlə işlətdi: “Ağdam əhalisi uzun illərdir, çox əziyyətlər çəkib. Onların yaxşı yaşamağa haqları var. Rayon üçün nə lazımdırsa, mənə müraciət edərsən, lazım olan köməyi göstərəcəyəm”. Sonra əlavə elədi ki: “Mən Ağdama qaz çəkdirmişəm və qazın Ağdama verilməsi münasibətilə 2008-ci ildə açılışda iştirak etmişəm. Artıq bir il vaxt keçib. Baxın, görün neçə evə qaz çəkilib?”

Səhərisi – sentyabrın 1-də Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri cənab Zeynal Nağdəliyev məni Ağdam rayon ictimaiyyətinə təqdim etdi.

Elə ilk gündən rayonun mövcud problemlərini bir neçə istiqamətdə öyrənməyə çalışdım.

Birincisi və ən əsası, rayon icra hakimiyyətinin binasında müddətsiz qəbullar keçirib əhali ilə görüşməyə başladım.

İkincisi, kəndlərə, köçkün qəsəbələrinə gedərək, yaşayış yerlərində əhalinin qəbulunu təşkil etdim.

Daha sonra dost-tanışla, qohum-əqrəba ilə, keçmiş iş yoldaşlarımla görüşlər zamanı rayon əhalisinin problemlərini araşdırıb öyrəndim.

Ən nəhayət, rayon icra hakimiyyətinin əməkdaşlarından və idarə-müəssisə rəhbərlərindən bir-bir rayonun problemləri barəsində müfəssəl məlumatlar vermələrini tələb etdim.

Çox qısa zamanda Ağdam rayonunun və əhalinin əsas problemləri mənə tam aydın oldu.

Sentyabrın 15-də rayonda geniş tərkibdə müşavirə keçirdim. Bu görüşə təxminən 10 gün hazırlaşmışdım. Müşavirədə Ağdam rayonunun bütün kənd və qəsəbələrindən ağsaqqallar, idarə-müəssisə rəhbərləri iştirak edirdilər.

Əvvəlcə cənab Prezident İlham Əliyevin salamını Ağdam əhalisinə çatdırdım, onların uzun illərdən bəri çətin vəziyyətdə yaşadıqlarından dövlət başçısının məlumatlı olduğunu bildirdim. Daha sonra dedim ki, cənab Prezident mövcud çətinliklərin qısa müddət ərzində aradan qaldırılması istiqamətində bütün zəruri tədbirlərin görüləcəyini nəzərinizə çatdırmağımla bağlı mənə xüsusi göstəriş verib.

Təvazökarlıqdan uzaq çıxmasın, mən güclü müşahidə qabiliyyəti olan adamam. Danışa-danışa zaldakı insanlara diqqət yetirir, az qala, bir-bir onları gözdən keçirirdim. Əksəriyyətinin əyin-başı nimdaş, üzü tüklü olan tədbir iştirakçılarının çöhrəsində bir sevinc, rahatlıq var idi. Amma anlayırdım ki, bu sevinc və rahatlıq mənim gəlişimə yox, əvvəlki icra başçısının gedişinə görədir. Bu da təbii idi: onlar mənim gəlişimə yalnız bir ildən sonra sevinə bilərdilər, o da əgər ümidlərini doğrultsam...

Müşavirə iştirakçılarına görüləsi işlər barədə hərtərəfli məlumat verdim və bildirdim ki, bizə heç kim mane ola bilməz, əgər kimsə buna

cəhd göstərmək istəsə, onu zibil kimi yolumuzdan süpürüb atacağıq. Vəziyyətin həddindən artıq mürəkkəb olduğunu bildiyimdən müşavirə iştirakçılarını əmin etdim ki, rayonda ədalətli idarəçilik üsul-idarəsi bərpa olunacaq, heç kimin haqqının tapdanmasına yol verməyəcəyəm. Hər kəsin haqqını öz haqqım biləcəyəm, məcburi köçkünlərə, kasıb və işsiz adamlara dayaq duracağam, kabinetimin qapısı hər kəsin üzünə daima açıq olacaq.

Çıxışımda insanların əhval-ruhiyyəsinin yüksəldilməsi naminə davamlı tədbirlər planının hazırlanıb həyata keçiriləcəyinə söz verdim. Bu, Ağdam camaatı üçün olduqca vacib idi. Elə ailələr vardı, son on beş il ərzində bir dəfə də olsun hansısa mədəni tədbirə, kinoya, teatra, konsertə getməmişdi, əhali ruh düşkünlüyü içərisində yaşayırdı. Bu sükunəti aradan qaldırmaq üçün ciddi dəyişikliyə, qaynar bir mühitin yaradılmasına ehtiyac var idi. Ona görə də çıxışımda xüsusi olaraq bildirdim ki, qısa vaxtda rayonda böyük quruculuq işlərinə start veriləcək, yeni iş yerlərinin açılması təmin ediləcək, əhali ilə idarə-müəssisə rəhbərləri arasında mehriban və səmimi münasibət formalaşdırılacaq, təhsil, səhiyyə və mədəniyyət sistemində əsaslı dönüş yaradılacaq. Nəhayət, çıxışımın sonunda, "sizlərin sevinci - sevincim, kədəri - kədərim olacaq" deyib müşavirəni yekunlaşdırdım.

Görülməsi vacib olan işlərlə bağlı tədbirlər planı hazırlayıb oktyabr ayında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə müraciət etdim.

Müraciətdən təxminən bir ay sonra Quzanlı qəsəbəsində Doğum evinin və Uşaq xəstəxanasının tikintisi üçün Ağdam Rayon İcra Hakimiyyətinə lazımi vəsait ayrıldı. 2010-cu ildən hər iki xəstəxananın tikintisinə başlanıldı...

Kim olur-olsun, hansı zamanda və məkanda yaşayır-yaşasın, hər insanın qəlbində onun həyatını istiqamətləndirən, yaşam tərzini müəyyənləşdirən bir istinad nöqtəsi, ömrü boyunca əməl etməyə çalışdığı ümdə bir prinsip, amal var. Mənim yaşadığım bu illər ərzində sadiq

qalmağa çalışdığım, tapındığım bu ümdə prinsip imkanım və səlahiyyətlərim daxilində, daima insanlara təmənnasız yaxşılıq etmək və bu yaxşılıqların yaratdığı rahatlıq duyğusundan zövq almaq olub.

Ağdam rayonuna təyin olunanda dost-tanışın, qohum-əqrəbanın, məni təbrik edənlərin, bir sözlə, bütün simsar adamların məndən bir gözləntisi var idi: yaxşı işləyim, əhalinin etimadını qazanım.

Hər kəsi əmin etməyə çalışırdım, narahat olmasınlar, daxili işlər orqanları sistemində qazandığım 37 illik təcrübəni (bunun 22 ilini ayrı-ayrı rayonlarda polis rəisi vəzifəsində işləmişəm) və bütün gücümü sərf edəcəyəm ki, heç kəsin qarşısında üzüqara olmayım, mənə güvənən insanların ümidlərini puça çıxarmayım. Öz-özümə götür-qoy edirdim, düşünürdüm ki, mənə göstərilən bu etimadı doğrulda bilməsəm, uzun illərdən bəri qazandığım xətir-hörməti itirmiş olaram və ona görə də elə işləməliyəm ki, həyat yoldaşım, övladlarım, dost-tanışlarım mənimlə bir daha fəxr etsinlər.

Möhtərəm oxucu!

İndi sizinlə bölüşəcəyim bu xatirənin mənim üçün ayrıca önəmi var. Hələ Sovet İttifaqı dönəmində Ağdam Rayon Partiya Komitəsinin birinci katibi kimi 10 ilə yaxın rayona rəhbərlik etmiş, bu müddətdə rayon əhalisinin böyük hörmət və ehtiramını qazanmış Sadıq Murtuzayev rayon icra hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmağım münasibəti ilə mənə təbrik məktubu göndərmişdi.

Sadıq müəllim məktubunda istək və tövsiyələrini bildirir, sonra yazırdı ki, Ağdamın fədakar insanlarına arxalanıb çox iş görmək olar. Məktubdakı bir cümlə diqqətimi xüsusi çəkdi: "Xalqın nüfuzunu qazansan yaxşı olar". Bu fikirdə gizli bir nigarançılıq hiss elədim. Amma bu nigarançılığın kökünü, səbəbini anlayırdım. Axı, Sadıq müəllim məni elə də yaxından tanımırdı, indiyə qədər heç vaxt bir yerdə işləməmişdik deyə, iş təcrübəmə bələdliyi yox idi.

Məktuba cavab yazmaq qərarına gəldim.

Əvvəl icra hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmağım münasibəti ilə məni təbrik etdiyinə görə Sadıq müəllimə təşəkkürümü bildirdim, sonra onun Ağdam rayonu üçün böyük işlər gördüyünü, tələbkar, namuslu, qətiyyətli bir rəhbər kimi ağdamlıların yaddaşında əbədi iz qoyduğunu xatırlatdım. Məktubda daha sonra qeyd etdim ki, dünyaya gəldiyi, böyüyüb boya-başa çatdığı torpaqda qurub-yaratmaq xoşbəxtliyi hər kəsə nəsib olmur. Bu xoşbəxtliyi mənə nəsib etdiyinə görə, Ulu Tanrıya və möhtərəm prezidentimiz İlham Əliyevə borcluyam.

Sadıq müəllimin nigaranlıq duyulan yuxarıda qeyd etdiyim fikrinə görə məktubu belə tamamladım: "Ağdam üçün əlimdən gələni yox, lazım olan hər işi görməyə qadirəm və bunu bacaracağam. İnsanlara etdiyim yaxşılıqlardan aldığım zövq mənim üçün həyatın gözəl duyğusudur".

Sadıq müəllimə yazdığım məktubda "qadirəm", "bacaracağam" kəlmələrini işlətdiyimə görə həm ondan, həm də oxuculardan üzr istəyirəm. Mənim bu sözlərimi heç kim müştəbehlik, özündənrazılıq kimi qiymətləndirməsin. Məni bu sözləri işlətməyə ürəkləndirən, sadəcə, Vətənimə və xalqıma sonsuz, səmimi məhəbbətim, torpağıma böyük sevgim və bir də öz gücümə inamım idi. Həm də bu sözləri yazmaqla Sadıq müəllimin nigaranlığına son qoymaq, onu arxayın etmək istəmişdim. Mən Sadıq Murtuzayevə həmişə böyük şəxsiyyət kimi baxmışam. Hətta rayonda keçirdiyim müşavirələrin birində demişdim ki, Sadıq Murtuzayevdən sonra mən bu kresloda əyləşməyə utanıram...

Ulu Tanrı xasiyyətinə və əməlinə görə hər insanı fərqli yaradıb. Heç insanların başqalarına elədikləri yaxşılıqlar, pisliklər də bir-birinə bənzəmir. Bu mənada, düşünürəm ki, hər bir insanın əməllərinə fərdi yanaşmaq, fərdi qiymət vermək daha doğru olardı.

Rayon icra hakimiyyətinin kollektivi ilə ilk görüşdə iş prinsiplərimizi aydınlaşdırmaq üçün onlara bir hadisə danışmışdım.

1992-ci ildən 2008-ci ilə kimi Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmış rəhmətlik Nizami Bəhmənov mənim ən yaxın dostlarımdan idi. Şuşadan olan məcburi köçkünlərin respublikanın müxtəlif bölgələrində polis orqanları ilə bağlı problemləri yarananda Bəhmənov həmişə mənə müraciət edərdi. Təbii ki, mən də var gücümlə çalışıb problemin həlli üçün əlimdən gələn köməyi əsirgəməzdim.

Bir gün N.Bəhmənov yenə zəng elədi, dedi ki, Ağsu rayonu ərazisində şuşalı məcburi köçkünlərə məxsus mal-qara şəhər təsərrüfatına ziyan vurduğuna görə, icra başçısının göstərişi ilə, polis rəisi tərəfindən pəyələnib. Sonra mənim polis rəisi ilə telefonla danışıb mal-qaranın sahiblərinə qaytarılmasını xahiş etməyimi istədi. Polis rəisinin telefonu cavab vermədiyindən N.Bəhmənovla telefon söhbətimiz bir qədər uzandı. Ondan soruşdum: “Bəhmənov, nə yaxşı belə xırda işlə özün məşğul olursan?”

Cavabında N.Bəhmənovun dediyi bu ibrətamiz sözlər heç vaxt yadımdan çıxmaz: “Qardaşım, mən Şuşa Şəhər İcra Hakimiyyətinin başçısıyam. Mənə müraciət edən hər bir şuşalı məcburi köçkünün problemini özüm həll etməliyəm. Qoy məcburi köçkün həmişə görsün ki, icra başçısı onun problemini həll etməyə çalışır, o problemlə özü məşğul olur”. Dalınca da əlavə elədi: “Lap problem həll olunmasa da, məcburi köçkün görür ki, onun problemi hakimiyyət orqanlarının diqqətindədir. Elə olmasa, vətəndaş hakimiyyətdən də, icra başçısından da razı qalmaz”.

Elə həmin gün polis rəisini tapdım və problem həll edildi.

İcra hakimiyyətində keçirilən ilk görüşdə bu hadisəni danışmaqla, əslində, vermək istədiyim ismarıc ondan ibarət idi ki, məcburi köçkünlərin problemlərinin həlli bizim üçün başlıca məsələ olacaq.

***

Ağdam Rayon İcra Hakimiyyətinin inzibati binası Quzanlı qəsəbəsində yerləşir. Vaxtilə bu yaşayış məntəqəsi rayonun ən ucqar kəndi sayılırdı.  Çünki buranı Ağdam şəhərindən 35 kilometrlik məsafə ayırır. Camaatı çox dinc camaatdır, insanları olduqca mədəni və alicənabdır. İqliminə görə Quzanlı çox isti olan ərazidir. Təsəvvür edin, keçmişdə - hələ sovet dövründə rayon partiya komitəsinin birinci katibləri rayon rəhbərliyində kimdən xoşları gəlmirdisə, onu Quzanlı kəndinə pambıq yığımına təhkim edərdilər ki, əziyyət çəksin. Amma işğaldan sonra tale elə gətirdi ki, yeganə sığınacaq ərazi kimi Quzanlı kəndi qaldı.

Əslən Ağdamdan olan imkanlı və ziyalı adamlar işğaldan sonra əsasən Bakıda və başqa iri şəhərlərdə məskunlaşdılar. Əhalinin aztəminatlı hissəsi isə Quzanlıya və ətraf kəndlərə sığındı. Bakıda yaşayan həmyerlilərimiz, demək olar, Quzanlıya gəlmirdilər. Hətta Seyid Lazım ağanın ocağını ziyarətə gələnlər də gizli şəkildə gəlib-gedirdilər. Çox çəkmədi, bunun səbəblərini öyrəndim.

Ağdamın o vaxtki rəhbərliyi Quzanlıya gələn ağdamlılara, illah da bir az diribaş, zirək olanlara, vəzifəli adamlara qısqanclıqla yanaşırmış. Hətta onlarla bağlı paytaxta - yuxarı təşkilatlara yüzlərlə şikayət məktubları göndərilir, bu adamlar dərhal ya “müsavatçı”, ya da “cəbhəçi” kimi qələmə verilirmişlər.

Əslən Ağdam rayonundan olan vəzifəli şəxsləri ləkələmək üçün rəhbərliyin dəfələrlə insana yaraşmayan addımlar atdığının şahidi olmuş, o dövrdə rayon icra hakimiyyətində işləmiş bir nəfər bununla bağlı mənə bir hadisə danışmışdı. Həmin şəxsin dediyinə görə, rayona gələn bir nəfər Xalq Cəbhəsinin Qiyaslı kəndindəki rəhbəri kimi qələmə verilməli imiş. Ancaq məlum olur ki, artıq başqa bir şəxsi məhz bu adla damğalayıblar. Bu zaman rəhbərlik halını pozmadan, soyuqqanlılıqla deyir ki: “Burda nə var ki? Onda yazın ki, bu şəxs Xalq Cəbhəsinin Söyüdlüqol dayaq dəstəsinə rəhbərlik edir”.

Hələ Ağdama təyinatımdan əvvəl ayrı-ayrı şəxslər barəsində yazılmış şər-şəbədə məktubların bir qismi ilə tanış olmuşdum. İnsanları ləkələmək üçün yerli hakimiyyət orqanlarının hər cür siyasi əxlaqsızlığa, nanəcibliyə əl atmağa qadir olduqlarından az-çox xəbərdar idim. Amma bu hadisəni eşidəndə əlim-ayağım yerdən üzüldü, matım-qutum qurudu. Axı, bütün bunlar Ağdamda nə üçün, nəyə görə, necə baş verirdi?

Sən demə, icra başçısı çalışırmış ki, Ağdamı ipə-sapa yatmayan, hakimiyyət əleyhdarlarının, müxalif qüvvələrin çox olduğu yer kimi qələmə versin, göstərsin ki, rayona rəhbərlik etmək çox çətindir, onların öhdəsindən gəlsə-gəlsə, ancaq o özü gələ bilər, yoxsa rayonda hər şey nəzarətdən çıxar. Guya ki, əvəzedilməzdir, guya ki, əlahiddə gücə malikdir.

Əslində, onun bu cəhdləri hədər getməmişdi, öz istəyinə nail ola bilmişdi: yuxarıların gözündə Ağdamdan, ağdamlılardan "üsyankar" obrazı yaratmağı bacarmışdı. Halbuki uzun illər Azərbaycanın bir sıra rayonlarında müxtəlif məsul vəzifələrdə çalışmış, bu müddət ərzində respublikanın, demək olar, hər bölgəsinin spesifik xarakter və xüsusiyyətlərinə bələd bir adam kimi əminliklə deyə bilərəm ki, ərazisinin 70 faizi işğala məruz qalsa da, əhalisinin böyük bir qismi ölkənin ayrı-ayrı regionlarında sığınacaq tapmaq çətinliyi ilə üzləşsə də, Ağdam əhalisi Azərbaycan dövlətinə, dövlətçilik prinsiplərinə, ölkə rəhbərliyinə həmişə sadiqlik nümayiş etdirib.

İndi o hadisələri məcburən bir də xatırlayıram və yenə də mat qalıram. Təsəvvür edin, icra başçısının 30 nəfərə qədər "yazanlar" dəstəsi var imiş. Bu dəstənin üzvləri Ağdamda əcaib işlərlə məşğul olurmuşlar. İcra başçısı bu adamların əli ilə rayonun idarə və müəssisə rəhbərlərinə müxtəlif yollarla təzyiq göstərərək onları itaətdə saxlayırmış. Kim icra başçısının bir sözünü iki edirmişsə, qara günləri başlayırmış: dərhal həmin şəxslə bağlı onun Bakıdakı rəhbərinin adına hər gün azı 100-200 şikayət məktubu təşkil olunurmuş.

Vətəndaş öz dərd-sərini deməyə rayonda bir nəfər vəzifə sahibi tapa bilmirmiş. Elə kəndlər varmış, aylarla işığa, suya həsrət qalırmış və bu, heç bir aidiyyatı qurumu, dövlət idarəsini narahat etmirmiş. Xəstəxanalarda saat 12-dən sonra həkim, tibb bacısı tapmaq müşkül imiş.

Rayona gəlib vəziyyətlə tanış olanda gözlərimə inanmadım: idarə-müəssisə rəhbərləri bir-birinə düşmən kəsilmişdi, rayonda nizam-intizam, idarəçilik bərbad halda idi.

Əhali psixoloji gərginlik içərisində yaşayırdı. Qarşılıqlı münasibətlərdə, ünsiyyətdə açıq aqressiya müşahidə olunurdu. Özü də bu vəziyyət sanki qəsdən, bilərəkdən, məqsədli şəkildə yaradılmışdı.

O dövrdə Ağdamda hökm sürən mənzərədən təsəvvürünüz olsun deyə bir hadisəni danışmaq istəyirəm (mən özüm bu hadisədən müfəssəl şəkildə Ağdama təyinat alandan təxminən iki il sonra xəbər tutdum). Bəri başdan deyim ki, ixtisasca tarixçi olan bir adam kimi şəxsən mən heç Stalin rejimi dövründə də belə bir hadisənin yaşandığına inanmıram.

Danışacağım bu tükürpədici hadisə 2006-2007-ci illərdə Ağdam rayon Mərkəzi Xəstəxanasının baş həkim vəzifəsində işləmiş Tariyel Eyvazovun başına gəlib. Əvvəla, bu hadisəni açıq-saçıqlığı ilə qələmə aldığıma görə Tariyel həkimdən qabaqcadan üzr istəyirəm. Tariyel Eyvazov Ağdamın savadlı, intellektual səviyyəyə malik, dəyərli ziyalılarındandır. Belə bir insana qarşı bu cür çirkin oyunun qurulması doğrudan da utancverici idi.

Deməli, belə: 2006-cı ildə Ağdam Rayon İrca Hakimiyyəti rəhbərliyinin təklifi ilə Mərkəzi Xəstəxananın baş həkimi Tariyel Eyvazovu tutduğu vəzifədən azad edirlər. Lakin məhkəmənin çıxardığı qətnamə ilə işə bərpa olunan Tariyel həkim vəzifəsinin icrasını davam etdirir. Bu hadisədən qeyzlənən rayon rəhbərliyi T.Eyvazovu rayondan bezikdirmək niyyəti ilə müxtəlif tədbirlər görməyə başlayır və onu gözdən salmaq, pərt eləmək üçün belə bir vasitəyə əl atırlar: rayonun idarə-

müəssisə rəhbərlərinin iştirakı ilə yığıncaq və müşavirələrin keçirildiyi klubda həmişə baş həkimin oturduğu kreslonu mişarla kəsdirir ki, oturmağa yer tapmasın.

Tariyel həkim, əslən rayonun Seyidli kəndindəndir, ziyalı ailəsində dünyaya göz açıb, Ağdam şəhərində böyüyüb boya-başa çatıb. Ağdamın coğrafiyasına, inzibati bölgüsünə bələd olanlar bilir, Ağdam şəhərinin tən yarısı Seyidli-Sarıhacılı kəndlərinin ərazisində yerləşirdi. Yəni Ağdam şəhərində hamı onun nəsil-nəcabətini yaxşı tanıyırdı. Atası mərhum Əli Eyvazov həmişə rəhbər vəzifələrdə işləmişdi, hörmət və nüfuz sahibi olmuşdu. Eyvazovlar mübarizədən qaçmayan, daima öz haqlarını müdafiə etməyə qadir nəsil kimi ad çıxarmışdılar.

Ağdamla bağlı informasiyası az olan oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, rayon ərazisinin böyük bir hissəsinin işğalından sonra əhalinin təxminən 50 min nəfəri Bakı şəhərində məskunlaşıb ki, onların da əksəriyyəti ziyalı təbəqənin nümayəndələridir. Rayonun Quzanlı qəsəbəsində fəaliyyət göstərən idarə və müəssisələrin rəhbərləri idarəçilikdə peşəkar meyarlarla yanaşı, Ağdam üçün spesifik olan bir çox amilləri, mental dəyərləri də nəzərə almağa üstünlük verirlər. O zaman rayonun rəhbəri olan şəxs isə Ağdamın ucqar kəndlərindən birində doğulduğu üçün baş həkimin barəsində çox az məlumatlı idi. Ola bilsin, Ağdam şəhərini və onun əhalisini tanımadığından T.Eyvazova qarşı belə metodlardan istifadə etməyin əslində əhalidə narazılıq, qıcıq yaradacağını düşünməmişdi...

2011-ci ilin oktyabr ayı idi. Köməkçim bir nəfər qadının qəbula gəldiyini və mənimlə təklikdə görüşmək istədiyini bildirdi. Razılaşdım, özü istədiyi kimi onu təklikdə qədul elədim (müəyyən səbəblərdən qadının kimliyini açıqlamıram). Qadın dedi ki, onun qızını Tariyel Eyvazovun təkidi ilə ali məktəbdən qovurlar. Qadın istəyirdi ki, mən Tariyel həkimdən xahiş edim, bu fikrindən əl çəksin. Ağlayıb-sızlayan qadın qızını ali məktəbdən qovsalar, intihar edəcəyini deyirdi. Mən işin kökünü soruşanda hiss elədim ki, qadın səmimi deyil, məsələnin əsil səbəbini məndən

gizlədir. Amma bununla belə öz prinsiplərimə sadiq qalıb məsələni araşdıracağıma, ona kömək etməyə çalışacağıma söz verdim. Köməkçiyə tapşırdım ki, Tariyel həkimlə telefon əlaqəsi saxlayıb onu icra hakimiyyətinə dəvət eləsin.

Ertəsi gün mənim iş otağımda Tariyel Eyvazovla üzbəüz əyləşmişdik. Tariyel həkimlə münasibətimiz əvvəllərdən yaxşı idi, dost olmasaq da, aramızda neçə illərin haqq-salamı vardı. Söhbəti açdım, həkimdən bu məsələ barədə mənə məlumat verməsini xahiş etdim.

Tariyel həkim qəbulumda olan o qadının bir vaxtlar Ağdam rayon Mərkəzi Xəstəxanasında, onunla birlikdə işlədiyini bildirdi. Bir gün baş həkimi rayon prokurorluğuna dəvət edib ona deyirlər ki, tabeliyində işləyən bir nəfər qadın onunla bağlı ərizə ilə prokurorluğa müraciət edib. Şikayət məktubunda göstərilir ki, qadının azyaşlı qızı Tariyel Eyvazovun təcavüzünə məruz qalıb.

Həkim danışırdı ki, əvvəlcə deyilənə inanmadım, dedim, yəqin kimsə onun adından anonim məktub yazıb. Amma prokuror deyir, nə danışırsan, qadının ərizəsindən əlavə, qız özü də izahat verib.

Tariyel həkim deyirdi ki, mat qaldım, elə bil, məni ilan vurmuşdu. Nə isə, beləcə baş həkim bir neçə ay prokurorluğa gedib-gəlir, nəhayət, respublika prokurorluğunda azyaşlı qızın məhkəmə-tibbi ekspertizadan keçirilməsinə nail ola bilir.

Məsələnin mahiyyətini açıb danışandan sonra T.Eyvazov dedi ki, bütün bunlar ona qarşı məqsədli şəkildə planlaşdırılmış mənəvi-psixoloji təzyiq idi, bu qurama iş rayon rəhbərliyinin sifarişi ilə təşkil edilmişdi, məqsəd nəyin bahasına olur-olsun onu rayondan uzaqlaşdırmaq idi. Əsaslı sübut olmadığından cinayət işi rədd edilir. Sonra rayon rəhbərliyinin təkidi ilə prokurorluq materialı yenidən qaldırır və proses bir ildən çox uzanır.

Söhbətimizin sonunda Tariyel həkim qadını bir şərtlə bağışlaya biləcəyini dedi. Şərti belə idi: qadın ona böhtan atdığını səmimi şəkildə

etiraf etməli, etirafı notarius vasitəsilə təsdiq olunmalıdır. Həkim bu halda qadının qızının ali məktəbdən xaric olunması ilə bağlı iddiasından əl çəkəcəyini vəd etdi.

Qadını yenidən qəbula çağırdım, həkimlə söhbətimi ona danışdım. O, bir qədər fikirləşəndən sonra məndən məsləhət istədi. Mənim fikrim belə oldu: qadına dedim ki, əgər Tariyel Eyvazova böhtan atıbsa, bunu etiraf etsin.

Həmin gün axşam saat 5-6 radələrində sabiq baş həkim həmin qadının Bərdə Rayonu Notariat Kontoru tərəfindən 9 oktyabr 2011-ci il tarixdə təsdiqlənmiş etiraf sənədinin surətini mənə təqdim etdi. Sənədin mətni belə idi:

"Azərbaycan Respublikasının Səhiyyə naziri cənab Oqtay Şirəliyevə

ETİRAF

Mən R.R. (Ad şərtidir) etiraf edirəm ki, son illərə qədər rayonda hökm sürən qeyri-sağlam şəraitdə mənim ailə vəziyyətimin çətin durumundan sui-istifadə edən Ağdam Rayon İcra Hakimiyyətinin sabiq rəhbərliyi öz çirkin əməllərini yerinə yetirmək məqsədilə rayonun qabaqcıl ziyalılarına, o cümlədən rayonumuzun hörmətli ziyalısı, həkim Tariyel Eyvazova qarşı çirkin niyyətlərini həyata keçirmək üçün məndən istifadə etmişdir. Hazırda rayonumuzda yaranmış sağlam mühiti nəzərə alaraq, mən etiraf edirəm ki, çox peşmanam və üzr istəyirəm".

***

İşə başladığım təxminən 10 gün olardı. "Dördyol" deyilən ərazidə ağdamlı məcburi köçkünləri qəbul edirdim. Qəbul zamanı bir kişi mənə dedi: "Bu yaxınlarda qardaşım rəhmətə getdi, imkansızlıqdan ehsan verə bilmədim, heç çadır da tapmadım". Kişi sözünü bitirib ağladı.

Çox pis olmuşdum. Xidməti maşınla "Dördyol"dan Quzanlı qəsəbəsinə qayıdırdım. Şahvəllər kəndindən keçəndə acı qəhər məni

boğdu, özümü saxlaya bilmədim, qəfildən hönkürməyə başladım. Mat qalan sürücü təəccüblə soruşdu ki, Nizami müəllim, sizə nə oldu, niyə ağlayırsız? Göz yaşları içərisində gücüm bu sözləri deməyə çatdi: "Ona ağlayıram ki, neçə illərdir, Ağdamda əhaliyə gün ağlayan olmayıb".

Quzanlıya qayıdan kimi elə həmin gün 12 ədəd 14 metrlik mərasim çadırı sifariş verdim, bir ay müddətdə mağar dəstlərini köçkün qəsəbələrinə payladım. Ağdamda icra hakimiyyətinin başçısı olduğum dövr ərzində dünyasını dəyişən rayon sakinlərinin hüzr məclislərinə yardım məqsədi ilə daxili imkanlar hesabına 1 kisə un, 1 kisə düyü, hərəsi 5 kiloqram olmaqla yağ, qənd, şəkər və başqa zəruri ərzaq məhsullarının verilməsi təmin edilirdi.

Mən vəzifədən gedəndən sonra kimlərinsə müdaxiləsi ilə bu ənənəyə də biryolluq son qoyuldu.

***

2009-cu ildə - Ağdamda işə başladığım dövrdə rayonun elektrik enerjisi ilə təminatı bərbad vəziyyətdə idi. Gün ərzində uzaqbaşı 7-8 saat elektrik enerjisi verilirdi. Elə kəndlər vardı, transformatorların təmir-bərpa işləri bir ay uzanırdı. Transformatorlar gərginliyə dözmədiyindən tez-tez sıradan çıxırdı. Əhalidən işıq pulunun yığılması işi də yarıtmaz halda idi. Təsəvvür edin, bizim kəndlər işıq üzünə həsrət qalmışdı, amma ermənilərin işğalı altında olan ərazilərdə hər yer işıq saçırdı. Başı insanlar arasında intriqa və təfriqə yaratmağa qarışan rayon rəhbərliyi isə bu vəziyyətə laqeyd yanaşmışdı.

Qısa müddətdə mütəxəssisləri toplayıb məsləhətləşmələr apardım. Öyrəndim ki, Çəmənli kəndinin yaxınlığındakı yarımstansiya nasaz vəziyyətdə olduğundan, hətta təzə qoyulmuş transformatorlar da gərginliyə dözməyib sıradan çıxır. Məsələni tez bir zamanda respublika rəhbərliyi qarşısında qaldırdım və artıq 2010-cu ildə respublikaya gətirilən iki ədəd böyük yarımstansiyanın biri Ağdam rayonuna göndərildi. Əlavə olaraq qısa

müddətdə rayona təxminən 20-yə yaxın transformator gətirtməyə də nail olduq. Əhaliyə söz verdim, əgər elektrik enerjisinin haqqı vaxtlı-vaxtında ödənilsə, heç kimin işığı sönməyəcək. Dediyim kimi də oldu: Ağdam Rayon İcra Hakimiyyətinə rəhbərlik etdiyim beş ildə rayonda işıqlar heç vaxt sönmədi.

Yadımdadır, 2012-ci ilin qış aylarında Bakı şəhərində çovğunlar baş verəndə Mingəçevir Regional Elektrik Şəbəkəsinin rəisi mənimlə telefon əlaqəsi saxlayıb paytaxtın enerji təminatını düzənləmək məqsədi ilə Ağdam rayonunun bir neçə kəndinin işığını müvəqqəti söndürməyə razılıq verməyimi xahiş etdi, dedi ki, qənaət olunan enerji Bakı şəhərinə yönəldiləcək. Mən, əlbəttə, dərhal razılaşdım.

Kritik vəziyyətlərdə ehtiyat transformatorlar çox köməyimizə çatırdı. Hər hansı kənddə, qəsəbədə transformator yanan kimi 2 saatın içində onu dəyişdirir, yanan transformatoru isə təmir üçün Mingəçevir şəhərinə göndərirdik. Təmir müddəti 20 gün çəkirdi.

Ümumiyyətlə, əhaliyə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması, qaz, işıq və su ilə bağlı yaranan problemlərinin qısa müddətdə həll edilməsi, eləcə də rayonda aparılan abadlıq-quruculuq işlərinin daima nəzarətdə saxlanılması məqsədilə işlədiyim 5 il müddətində bazar günündən başqa hər gün idarə-müəssisə rəhbərləri axşam saat 19:00-da rayon icra hakimiyyətində mənim qəbulumda olurdular. Gün ərzində baş verən qəzaların səbəbləri araşdırılır, onların həlli üçün tədbirlər görülürdü. Belə iş rejimi respublikanın heç bir rayonunda yox idi. Amma bu müddətdə heç bir idarə-müəssisə rəhbəri qoyulan qaydadan narazılıq etmədi, əksinə, cani-dildən çalışaraq böyük fədakarlıq göstərdi. Buna görə rayonda rəhbər vəzifələrdə çalışan bütün insanlara, xüsusilə də Ağdam Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Zülfü Qasımova minnətdaram.

... Sovetlər dövründə məşhur bir deyim vardı: hər şeyi kadrlar həll edir. Mənim qənaətimcə, rəhbər şəxsin başlıca keyfiyyətlərindən biri də

kadrların düzgün seçilib yerləşdirilməsi və o kadrlarla dəqiq idarəçilik sisteminin formalaşdırılması bacarığının olmasıdır. Heç kimə sirr deyil, Azərbaycanda rəhbər vəzifələrdə çalışan şəxslərin əksəriyyəti istəyir ki, tabeliyindəki işçilər yaltaq, ikiüzlü, üzə gülən, ləbbeyk deyən, itaətkar, rəhbərin ağzından çıxan hər kəlməni - doğru, ya səhv, fərq eləməz - təsdiqləyən insanlar olsunlar. Amma, əksinə, zəngin mənəviyyatlı, savadlı, özünə güvənən, güclü rəhbərlər heç nədən və heç kəsdən çəkinmədən fikrini-zikrini yalnız ona həvalə olunan sahəyə yönəldir, öz prinsiplərindən dönmür və ətrafında ləyaqətli, işgüzar kadrlardan formalaşmış komanda yaratmağa çalışırlar. Atalar yaxşı deyib, keçmə namərd körpüsündən, qoy aparsın sel səni. Vəzifə sahibinə, rəhbər şəxsə dar gündə məhz belə ləyaqətli, işgüzar insanlar arxa dura bilərlər.

Şəxsən öz təcrübəmdən deyə bilərəm, müxtəlif rəhbər vəzifələrdə işlədiyim təxminən 30 illik dövr ərzində daima çalışmışam ki, ətrafımda işgüzar, zəhmətdən çəkinməyən, ləyaqətli və namuslu insanlar olsunlar. Tanıyanlar bilir, mən xaraktercə yaltaq, ikiüzlü insan olmamışam. Ola bilsin, işimin, ailəmin, uşaqlarımın xatirinə nə vaxtsa kiminləsə xoş münasibət saxlamışam, ancaq nə vaxtsa kiməsə yarınmağı ağlıma belə gətirməmişəm. Bu məsələdə mənim mövqeyim birmənalı olub: yaltaqlıq iyrənc vərdişdir, ehtiyac olmadan kiməsə yaltaqlanmaq isə daha da iyrəncdir. Ən böyük faciə də odur ki, ehtiyac olmadan yaltaqlanmaq şakəri bizdə çox güclüdür...

Nə isə, mətləbdən uzaqlaşmayaq...

Bəşər tarixində bir nəfərin, bir liderin öz xalqının və millətinin mənafeyi naminə misilsiz xidmətlər göstərdiyini çox eşitmişik, bu barədə çox oxumuşuq. Bir nəfərin – bir şəxsiyyətin öz ölkəsinin xilaskarı olduğunu isə öz gözlərimizlə görmüşük.

Hər xalqın, hər millətin taleyində ağır, kəşməkəşli dövrlər olur. Belə məqamda o xalqın, o millətin xilaskarı meydana çıxıb düzgün, müdrik qərar verməklə fəlakətlərin, faciələrin qarşısını alır, böyük bir toplumu

məhv olmaqdan xilas edir, onu uçurumdan qoruyur. Uzağa niyə gedirik, 1993-cü ili yada salaq. Azərbaycan belə bir imtahanla üz-üzə qalmışdı. Hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı, ordudakı özbaşınalıq, dərəbəylik torpaqlarımızın işğalını daha da intensivləşdirmişdi, ali dövlət orqanlarında idarəçilik sistemi iflic vəziyyətinə düşmüşdü, əhali arasında pessimist əhval-ruhiyyə hökm sürürdü. Belə acınacaqlı vəziyyətdə nicat yolunu böyük ictimai-siyasi xadim Heydər Əliyevin hakimiyyətə gəlməsində görən xalq bu tələblə ayağa qalxdı və o yenidən hakimiyyətə qayıtdı. İndi həmin məşəqqətli illəri xatırlayanda fikirləşirəm, o böyük şəxsiyyətdən - Ümummilli liderimiz Heydər Əliyevdən savayı Azərbaycanı o fəlakətdən, uçurumdan kim xilas edə bilərdi? Yenə də başqa cavab tapa bilmirəm, yenə də O Böyük Adın üzərində dayanıram – Ulu öndər Heydər Əliyevdən başqa heç kim!

Aydın məsələdir ki, bir-iki aya xalqın mentalitetini dəyişmək mümkün olan iş deyildi. Bəs, 1993-cü ildə dəyişən nə oldu, nə dəyişdi ki, Azərbaycan o xaosdan xilas ola bildi? Dəyişən tək bir şey vardı - Azərbaycanda siyasi hakimiyyətə xalqın sonsuz inam bəslədiyi Lider gəlmişdi. Məhz o liderin sarsılmaz iradəsi və müdrik siyasəti nəticəsində Azərbaycan fəlakətdən qurtuldu.

Yaxın tarixə belə bir ekskurs etməkdə məqsədim onu vurğulamaq idi ki, yalnız böyük tarixi şəxsiyyətlər təkbaşına misilsiz işlər görməyə qadir olurlar və təbii ki, Uca Yaradan belə istedadı hər adama yox, özünün sevib-seçdiyi az-az bəndələrinə nəsib edir. Belədə isə, hər bir rəhbər şəxs, əgər gerçəkdən də öz sahəsində nəsə ciddi bir iş görmək istəyirsə, müştəbehlik və riyakarlıq etməməli, mütləq işgüzar və ləyaqətli kadrların cəmləşdiyi komanda formalaşdırmalıdır. Bu, mənim uzun illərin təcrübəsinə əsasən gəldiyim dəyişməz qənaətdir. Ona görə də Ağdam rayonunda fəaliyyətə başlayan gündən kadrların seçilib yerləşdirilməsinə xüsusi diqqət göstərirdim.

İlk növbədə rayon icra hakimiyyətinə 15 nəfər yeni əməkdaş işə götürdüm, müavinləri dəyişdim, boş olan vəzifələrə əhali arasında hörməti və nüfuzu olan insanları qəbul elədim. Çalışırdım ki, işə qəbul etdiyim əməkdaşlar həm təhsilinə və bacarığına, həm də əhali arasındakı mövqeyinə görə fərqlənsinlər.

Dərindən tanımırdım deyə, gənc əməkdaşları işə götürəndə onlara xüsusi test üsulu tətbiq edirdim. Rayon icra hakimiyyəti aparatında işləmək istəyən gəncləri icra hakimiyyətinin binasına dəvət edib testdən keçirirdim. Bu zaman onlar müxtəlif mövzularda sualları cavablandırmalı, öz fikirlərini yazmalı idilər. Hər testi cavablandırmaq üçün 40 dəqiqə vaxt verilirdi. Vaxt bitəndən sonra cavabları yığıb bir-bir diqqətlə oxuyurdum, bu yolla işləmək istəyənlərin dünyagörüşünün, savadının hansı səviyyədə olduğunu müəyyənləşdirməyə çalışırdım.

Belə test-yoxlamaların birində maraqlı hadisə baş verdi. Testə gələnlər bu dəfə “Nar ağacı, nar çiçəyi” mövzusunda fikirlərini yazmalı idilər.

Bir nəfər təxminən bunları yazmışdı: nar ağacı sentyabr ayında meyvə gətirir, onun meyvəsi adamın qarın ağrısını kəsir və s. Bundan başqa da elə sözlər yazmışdı ki, indi mən onları təkrar dilə gətirməyə, sizlərlə bölüşməyə utanıram. Ona iradımı bildirib dedim ki, get özünə başqa iş tap, səni icra hakimiyyətində işə götürsək, rayonu da, bizi də biabır edərsən...

Mənə qayıtdı ki:

- Bəs, siz özünüz nar haqqında nə yazardınız?

Mən:

- Qorxuram deyəm, bəyənməyəsən. – dedim.

O:

- Yox, siz deyin, əgər bəyənməsəm, kişi kimi deyəcəyəm ki, bəyənmirəm.

Baxıb gördüm, əl çəkənə oxşamır, dedim:

- Məsələn, mən yazardım ki, o biri meyvələri yeyəndə onlar ürəyə salam verib keçir, amma narı yeyəndə ürək özü onun pişvazına çıxır.

Gördüm, oğlan mənə tərs-tərs baxır. Sözümə davam elədim:

- Ya da yazardım ki, 1957-ci ildə internat məktəbinin birinci sinfinə gedəndə sinif rəhbərimizin əlində nar çubuğu gördüm. O zamana qədər mənə elə gəlirdi ki, nar çubuğu ilə ancaq yun çırpmaq olar. Amma məktəbə gedəndən sonra gördüm ki, bu çubuqla dərsini oxumayan, şuluqluq edən uşaqları da yun kimi çırpırlar...

Doğrudan da, internatda Əntiqə müəllimə adlı dərs hissə müdirimiz var idi. Orada təhsil aldığım 10 il ərzində bir dəfə də olsun, Əntiqə müəlliməni əli çubuqsuz görməmişdim. Əntiqə müəllimənin əlindəki o nar çubuğu sanki böyük bir orkestri idarə edən dirijor çubuğu idi, bütün məktəb o çubuqla idarə olunurdu. Onu da deyim ki, Əntiqə müəllimə çox namuslu, ciddi, həm də olduqca mülayim insan idi. Mən 10 ildə onu bir dəfə də gülümsəyən görmədim. Həyat yoldaşı İkinci Dünya müharibəsində həlak olduğuna görə həmişə qara paltar, qara ayaqqabı geyinər, qara kəlağayı örtərdi. Əntiqə müəllimə bir də heç vaxt ərə getmədi və həlak olmuş həyat yoldaşına ömrünün sonunacan yas saxladı.

...Amma testə gələn oğlan, deyəsən, bir şey başa düşmədi, otağı tərk edəndə elə hey acı-acı gülümsəyirdi.

***

Elektrik enerjisi təchizatında olduğu kimi rayonun su təminatı sahəsində də ciddi problemlər vardı. Kəndlərdə vəziyyət lap dözülməz həddə çatmışdı. İçməli su, demək olar, yox dərəcəsində idi.

Ağdamın su təchizatı probleminin həlli üçün, nə az-nə çox, düz bir il əziyyət çəkdim. "Azərsu" ASC,  Ağdam rayonuna köməklik göstərmək bir yana, heç rəsmi müraciətlərimizə cavab verməyi belə özünə rəva bilmirdi.

Quzanlı qəsəbəsinin su təchizatının bərbad vəziyyəti ilə bağlı respublikanın daxili işlər naziri, general-polkovnik cənab Ramil Usubova məlumat verib, ondan kömək istədim. Nazirin məsələyə müdaxiləsindən sonra qısa müddətdə rayona mütəxəssislər göndərildi, Quzanlı qəsəbəsinin ən hündür yerində 500 tonluq su anbarı tikilib istifadəyə verildi. Anbardan böyük bir əraziyə içməli su çəkildi. Qəsəbənin su problemi, demək olar, həllini tapdı.

Qeyd edim ki, ta əvvəllərdən Ağdam rayonunun suvarma su tələbatı artezian quyuları vasitəsilə ödənilir. Rayonda 900-ə yaxın artezian quyusu var. Mən Ağdamda işlədiyim dövrdə 200-ə yaxın artezian quyusu qazıldı, çoxlu sayda su quyusu təmir olunaraq yenidən istifadəyə verildi.

Bu yerdə bir məsələni də nəzərinizə çatdırım ki, Ağdam rayonunda qazılan artezianların suyu yerin 70-80 metr dərinliyindən çıxdığına görə onların suyu texniki su hesab olunurdu. İçməli su isə adətən yerin 200-250 metr dərinliyindən çıxır. Amma çətinliklərə baxmayaraq, biz çox qısa vaxt ərzində Əfətli, Qaradağlı, Çəmənli və digər kəndlərdə içməli su artezianlarının qazılmasına nail ola bildik. Yadımdadır, hətta Qaradağlı kəndində quyu qazmağa boş yer tapmadığımızı görən bir nəfər kənd sakini demişdi ki, quyunu elə mənim həyətimdə qazın.

"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadə Ağdam rayonunun problemlərinə həmişə böyük həssaslıqla yanaşır, xüsusi diqqət və qayğı göstərir,köməyini əsirgəmirdi. Ağdam rayonunda

çalışdığım müddətdə mən Ə.Əhmədzadədən, bir dəfə də olsun, "yox" kəlməsini eşitmədim.

Ümumiyyətlə, mən xeyirxah və alicənab insanların dəstəyini hər zaman hiss etmişəm və buna görə onlara minnətdaram.

Ağdamda icra hakimiyyətinin başçısı vəzifəsində işlədiyim dövr ərzində rayonun problemləri ilə əlaqədar daxili işlər naziri Ramil Usubova bir neçə dəfə müraciət etdim və hər dəfə də lazımi dəstəyi gördüm.

Ağdam rayon Mərkəzi Xəstəxanası istifadəyə verilmək ərəfəsində idi. Ciddi bir problemlə üzləşmişdik. Layihədə xəstəxananın lazımi avadanlıqlarla təmin edilməsi məsələsi nəzərdə tutulmurdu. Hesablamalara görə, bunun üçün təxminən 500 min manat vəsait tələb olunurdu. Bu məqsədlə səhiyyə naziri Oqtay Şirəliyevin qəbulunda oldum, problemlər barədə geniş məlumat verdim. Nazir məni çox həvəssiz halda dinləyib dedi: "Sizə bir dənə stol da verən deyiləm. Bunu binanı tikəndə fikirləşmək lazım idi. Keçmiş icra başçısına bu barədə dəfələrlə demişəm. Ona görə də mən sizə kömək edə bilməyəcəm".

Məsələni nə qədər yumşaltmağa çalışdımsa da, heç nəyə nail ola bilmədim. Kor-peşman nazirin otağından çıxdım. Hiss elədim ki, bizim bir-birimizdən xoşumuz gəlmədi.

Səhiyyə Nazirliyindən birbaşa Daxili İşlər Nazirliyinə getdim. Olanları təfsilatı ilə daxili işlər naziri Ramil Usubova danışıb kömək istədim. O, maliyyə naziri Samir Şərifovla telefonla danışıb məsələnin həll olunmasını xahiş etdi. Çox qısa müddətdə yeni xəstəxana üçün tibbi ləvazimatların və avadanlıqların alınması məqsədi ilə Ağdam Rayon İcra Hakimiyyətinə vəsait ayrıldı.

2010-cu ildə cənab Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağdam Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etdilər. Onların tədbirdən çox razı qaldıqları hiss olunurdu.

***

2009-cu il sentyabr ayının son günləri idi. Payız gəlmişdi, havalar soyumağa başlayırdı. Rayonun qazlaşdırılması məsələsi yarımçıq qalmışdı. Sobada yandırmaq üçün istifadə edilən odunun bir maşını  təxminən 200 manata başa gəlirdi. Məcburi köçkün həyatı yaşayan əhalinin isə bu məbləğə odun almaq imkanı yox idi.

Bakıya gəlib Dövlət Neft Şirkətinin prezidenti cənab Rövnəq Abdullayevin qəbuluna düşdüm. Rövnəq müəllim məni böyük hörmətlə qəbul edib gəlişimin məqsədini soruşdu. Hələ avqust ayında Ağdam Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyinat zamanı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qəbulunda olduğumu, dövlət başçısının Ağdama gedən kimi rayonun qazlaşdırılması məsələsi ilə hərtərəfli maraqlanmağım və çətinlik yaranarsa, ona müraciət etməyim barədə mənə tapşırıq verdiyini Rövnəq müəllimin diqqətinə çatdırdım və onun yanına məsləhətə gəldiyimi bildirdim.

Rövnəq müəllim bir qədər düşündükdən sonra elə mənim yanımdaca Dövlət Neft Şirkətinin tabeliyində olan Baş Qaz İstehsalat İdarəsinin rəisi cənab Əkbər Hacıyevə zəng edib, “Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Nizami müəllim mənim yanımdadır, Ağdam rayonuna kömək etməyiniz üçün onu sizin yanınıza göndərirəm” - dedi.

Rövnəq müəllimin yanından çıxıb birbaşa Baş Qaz İstehsalat İdarəsinə, Əkbər müəllimin yanına getdim.

Əkbər müəllimlə vəziyyəti hərtərəfli müzakirə etdik. 2008-ci ildə Prezident cənab İlham Əliyevin Ağdam rayonunda qaz çəkilişinin açılış mərasimində iştirak etməsindən təxminən 18 ay vaxt keçsə də, bu müddətdə cəmi 250 ailəyə qaz xətti çəkildiyini onun diqqətinə çatdırdım.

Əkbər Hacıyevin cavabı konkret oldu:

- Əgər bu məsələ ilə Prezident cənab İlham Əliyev maraqlanırsa, onda mütləq Ağdam rayonuna getməliyəm.

Qərara aldıq ki, iki gündən sonra Əkbər müəllimlə Ağdamda görüşək.

Özü etiraz eləsə də, iki gündən sonra Əkbər müəllimi Yevlaxda, Kür çayının körpüsündə qarşıladım. Yevlaxdan Ağdama qədər yolboyu ona mövcud çətinliklərdən, Ağdamın keçmişindən, Qarabağ döyüşlərində iştirakımdan danışdım.

Əkbər müəllimin Ağdam səfəri 4-5 saat çəkdi. Bu müddət ərzində ərazi ilə yaxından tanış oldu. Söhbət zamanı ona rayon qaz idarəsinin inzibati binasının olmadığını, bu səbəbdən idarənin bina kirayələdiyini bildirdim. "Nağıl dili yüyrək olar" məsəli, deyim ki, Əkbər müəllimə verdiyim bu informasiyanın böyük əhəmiyyəti oldu. Ağdamda qazlaşdırma ilə bağlı işlər başlayanda paralel olaraq Quzanlıda Ağdam rayon Qaz İstismar İdarəsi ilə Rayonlararası Qaz Tikinti İdarəsi üçün iki müasir tipli inzibatı binanın tikintisinə başlandı və beş ay müddətində hər ikisi tikilib istifadəyə verildi.

Sözün düzü, rayona qaz çəkilişi prosesinin belə operativ şəklidə tezləşdiriləcəyini düşünmürdüm. Amma görüləcək işlər layihələşdirildikdən təxminən 10 gün sonra Ağdam rayonuna böyük bir inşaat briqadası gəldi. İşlərin bu sürətlə həll olunmasına özüm də mat qalmışdım.

İnşaat işlərinə rəhbərlik əslən Bərdə rayonundan olan Məhəmmədəli adlı bir nəfər mühəndisə həvalə edilmişdi. O, işinə can yandıran, canidildən çalışan bir mütəxəssis idi. Sonralar onunla münasibətlərimiz dostluğa çevrildi.

Oktyabr ayında Ağdamda qazlaşdırma işlərinə başlanıldı. Briqadada işləyən mütəxəssislərin çoxu Naxçıvandan idi. Briqada Naxçıvan Muxtar Respublikasındakı işlərini yekunlaşdırıb yeni layihənin icrası üçün Ağdama gəlmişdi.

Qaz çəkilişi işini sürətləndirmək məqsədilə aidiyyəti idarə-müəssisə rəhbərləri, bələdiyyə sədrləri, icra nümayəndələri ilə geniş tərkibdə müşavirə keçirdim. Ciddi şəkildə xəbərdarlıq etdim ki, bu işdə kiçik bir səhlənkarlıq böyük fəsadlara yol aça bilər, ona görə də hər kəs işinə son dərəcə böyük məsuliyyətlə yanaşmalıdır. Müşavirədə İcra Hakimiyyəti başçısının birinci müavini Zülfü Qasımovu bu işə bilavasitə rəhbər təyin etdim.

Həmin günlər iş görməyə, çalışmağa təşnə insanları müşahidə edəndə Ağdam camaatının nə qədər fədakar olduğunu bir daha gördüm.

Hər axşam saat 19:00-da yığışıb görülmüş işlərlə bağlı müzakirələr aparırdıq. Hansı ərazidə iş gedirdisə, bələdiyyə sədrləri və icra nümayəndələri mütləq qaz çəkənlərin yanında olurdu. Sakinlər məhəllələrində işləyən fəhlə və mütəxəssislərə, lazım olanda, çay, su verirdilər. Hətta imkanlı ailələrdən onları nahara dəvət edənlər də olurdu.

İlin sonuna qədər Quzanlı kəndi, demək olar, tamamilə qazlaşdırılıb qurtarmışdı. Naxçıvandan gələn briqada üzvləri onlara göstərilən xidmət və hörmətdən ağızdolusu danışırdılar.

Briqadanın apardığı işlərə rəhbərlik edən Məhəmmədəli müəllim Quzanlı kəndindən sonra qazlaşdırma işlərinin hansı kənddə davam etdirilməsini soruşanda Əfətli kəndini dedim. Fikrimi belə əsaslandırdım: qoy insanların ölkə rəhbərinə inamı artsın, görsünlər ki, düşmənlə təmas xəttində yaşayan əhali yaddan çıxmayıb.

Nəhayət, 2011-ci ilin dekabrında Ağdamda qazlaşdırma işləri tamamilə yekunlaşdı. Təxminən 16 min ailə qazla təmin edildi. Müqayisə üçün deyim ki, hazırda mərkəzi rayonlarının bəziləri heç 60-70 faiz qazlaşdırılmayıb.

Qaz çəkilişinin başa çatması ilə əlaqədar Dövlət Neft Şirkətinin prezidenti cənab Rövnəq Abdullayev Ağdam rayonuna gəldi. Əfətli kəndində böyük tədbir keçirildi.

Əhali Rövnəq müəllimi hərarətlə qarşıladı, onun çıxışını ayaq üstə alqışladı.

Mən də çıxış etdim və Ağdam rayonunun qazlaşdırılmasında Rövnəq müəllimin böyük xidməti olduğunu bildirdim. Bu mənim səmimi ürək sözlərim idi. Həqiqətən də Rövnəq müəllim Ağdam rayonu və onun əhalisi üçün heç vaxt unudulmayacaq, həmişə böyük minnətdarlıq hissi ilə xatırlanacaq bir iş görmüşdü.

Əfətli camaatı Rövnəq müəllimi çay süfrəsinə dəvət etdi. Rövnəq müəllim ətrafa göz gəzdirəndə gördü ki, çay içdikləri qonaq otağında televizor yoxdur. Ev yiyəsinə üz tutub: "İstəyirəm, sizə bir televizor bağışlayım" - dedi. Evin sahibəsi, təxminən 45-50 yaşlarında olan qadın bir qədər sıxılaraq dedi ki: "Biz qaçqın deyilik, o biri otaqda televizorumuz var".

Hiss elədim ki, qadının gözütoxluğu Rövnəq müəllimə çox xoş təsir bağışladı.

Elə həmin gün Rövnəq müəllim bu ailəyə genişekranlı bir televizor göndərdi...

***

Bilənlər bilir, 1988-ci ildən üzü bəri Ağdam rayonunun əhalisi daima gərginlik, səksəkə içərisində yaşayıb, müharibənin ağrı-acısı, məşəqqəti bütün ağırlığı ilə bu insanların həyatında dərin izlər buraxıb. Bir faktı deyim, Ağdam Qarabağ savaşında respublikanın ən çox şəhid verən rayonudur. 153 min nəfərdən çox əhalisi olan rayon 6 min nəfərə qədər şəhid verib, bu savaşda iştirak edən 16 nəfər ağdamlı Azərbaycanın Milli Qəhrəmanıdır, nə qədər ata-ana övlad dağı görüb, nə qədər uşaq atasız, nə qədər ailə başsız qalıb, mal-mülk, ev-eşik itkisi bir yana, doğmalarını,

əzizlərini şəhid verən nə qədər insanın ürəyinə dağlar çəkilib, müsibətlər yaşamaq nəsiblərinə düşüb. Ağdamda elə ailə tapa bilməzsiniz ki, ən azı bir nəfər əzizi, yaxın adamı, qohumu, qonşusu şəhid olmasın. Müharibə başlayan ilk illər Ağdamın küçələrində, elə olurdu, bir gündə beş-altı, bəzən hətta doqquz-on yas çadırı ilə qarşılaşırdın.

Həmişə firavan, təminatlı həyat yaşamış əhali çox kasıb vəziyyətə düşmüşdü. İş yerlərinin olmaması və ehtiyac ucbatından ələbaxımlılığın vərdiş halını alması istər-istəməz insanların psixologiyasına mənfi təsir göstərirdi.

Hələ sovet dövründən Ağdam həmişə respublikanın sayılıb-seçilən regionlarından olmuş, ən zəngin, ən firavan rayonlarından biri kimi ad çıxarmışdı. İstər bu torpağın yetirməsi olan elm, söz və sənət adamları, istərsə də başqa sahələrdə fəaliyyət göstərən bir çox insanlar təkcə Ağdamın yox, bütün respublikanın adına başucalığı gətirirdilər. Təsəvvür edin, hər şey bir anın içərisində alt-üst oldu, işğal edilmiş torpaqlarımız kimi mənəviyyatımız da ayaqlar altında qaldı, insanlığın faciəsi başladı. Ağdamın firavan vaxtları adama elə gəlirdi, sanki bu torpağın insanları qocalmırlar. Amma indi müşahidə edəndə görürsən ki, insanların ruhu da qocalıb. Sanki Böyük Ağdamla birgə hörmət-izzət də, ağayanalıq da əsir düşüb.

Mən bir adamın dilindən başqa birisinin ünvanına “Sizə insan üçün ən böyük nemət olan cansağlığı arzulayıram” sözlərini eşidəndə həmişə diksinmişəm, bu deyimi köhnəlmiş, insan ömrü üçün heç bir əhəmiyyət kəsb etməyən mənasız söz yığını hesab eləmişəm. Mənim fikrimcə, insan üçün cansağlığından da çox vacib nemət onun şərəfli ömür yaşamasıdır. Ona görə də insana şərəfli ömür arzulamağı daha məqbul saymışam.

İllər uzunu alın təri ilə qazandığın varidatın, dişinlə-dırnağınla yaratdığın güzəranın, sahib olduğun mal-mülkün bir anın içində əlindən çıxması heç kimə asan gəlməsin və heç vaxt heç kim bu insanları qınamasın. Ağdam əhalisinin 80 faizinin ata-babalarının qəbirləri,

əzizlərinin məzarları, nişangahı işğal olunmuş ərazilərdə qalıb. Bu insanlar ürəkləri istəyəndə ata-anasının, bacı-qardaşının, övladının məzarlarını ziyarət edə bilmirlər və böyük sarsıntı keçirirlər.

Bu torpağın imkanlı şəxslərinin çoxu əlavə gəlirlərini tərəddüd etmədən, cani-dildən silah-sursata xərcləyirdilər. Bu o zamanlar idi ki, respublika rəhbərliyi Qarabağ məsələsi ilə məşğul olmurdu, yuxarıda oturanların başı çeşidli qalstuk seçiminə qarışmışdı. Əbdürrəhman Vəzirovun yersiz hərəkətləri, əndazəyə sığmayan sözləri insanlarda ikrah doğururdu. Həm Ağdamda formalaşdırılmış özünümüdafiə dəstələrinin, həm də ayrı-ayrı vəzifəli şəxslərin arasındakı nifaq və çəkişmələr bir yandan əhalinin döyüş ruhunu sarsıdır, bir yandan da mənəvi-psixoloji problemlər yaradırdı.

Xalqımızın, hətta ən çətin məqamlarda belə, həmişə qoruyub saxladığı, toxunulmaz sayılan bir çox mənəvi dəyərləri var və bu dəyərlər hər birimizin həyatında mühüm əhəmiyyət, dərin məna kəsb edir. Bizdə qohumluq, qonşuluq, el-oba təəssübkeşliyi kimi dəyərlərə daima xüsusi önəm verilib. Atalar sözüdür, yaxşı qonşu uzaq qohumdan irəlidir. İşğaldan sonra Ağdamda, demək olar, hər kəs öz qonşusundan uzaq düşdü, insanlar öz qonşularının timsalında qayğıdan, ünsiyyətdən, sirr verib, sirr saxladığı doğmalarından məhrum oldular. Ata-baba yurdundan didərgin düşən əhali uzun illər çadır şəhərciklərində, heç bir şəraiti olmayan çadırlarda, tanımadıqları, xasiyyətinə bələd olmadıqları insanlarla bir yerdə yaşamaq məcburiyyətində qaldı. Təsəvvür edin, bir məclisdəsiniz və xoşunuz gəlməyən adamla yanaşı oturmusunuz. Canınız sıxılır və özünüzdən asılı olmayaraq məclisi tərk edirsiniz. Ancaq çadır şəhərciyində bu, mümkün deyildi. Bu insanların seçim imkanı - getməyə yerləri yox idi.

Çadır şəhərciklərində bütün çadırlar, az qala, bir-birinə bitişik tikilirdi. Kim nə danışırdısa, qonşuda eşidilirdi.

Azərbaycan xalqının bir parçası olan Ağdam camaatı, istər kişi olsun, istər qadın, abır-həyasını, ismətini həmişə uca tutub. Hansısa bir hərəkət

edəndə, bir addım atanda həmişə ölçüb-biçib, ilk növbədə, qohum-qonşusunu düşünüb. Bizim yaşlı analarımız indinin özündə də naməhrəm adam görəndə yaşmanırlar.

İndi sizə danışacağım, çadır şəhərçiklərindən birində baş vermış bu hadisəni mən də bir nəfərdən eşitmişəm. Deyir, çadır şəhərciyində yaşayan bir nəfər ağdamlı qadın düz beş il, ifadəmə görə üzr istəyirəm, su başına gecə saat 12-dən sonra - əl-ayaq çəkiləndə  gedərmiş ki, yad kişilər onu görməsinlər. Qadındakı abır-ismətə, ləyaqətə, özünəhörmətə baxın...

Bu hadisəni eşidəndə qəhər məni boğmuşdu.

***

Möhtərəm oxucu!

1988-ci ildən üzü bəri, ələlxüsus 2009-cu ilə qədər, Ağdamda qeyri-normal mühit hökm sürürdü. Buna görə də, yazının əvvəlindən məqamı gəldikcə bəzi müşahidələrimi bölüşməkdə niyyətim rayon əhalisinin 1988-2009-cu illər ərzində keçirdiyi həyat tərzi, üzləşdikləri əzab-əziyyətlər və bu müsibətlərin insanlara yaşatdığı mənəvi-psixoloji sarsıntılarla bağlı sizdə, az da olsa, təsəvvür yaratmaq idi. Belə şəraitdə çalışmaq, insanlarla ünsiyyət qurmaq, rayonu idarə etmək, təbii ki, böyük çətinliklər yaradırdı. Həmin dövrdə rayona rəhbərlik etmiş şəxslərin təcrübəsizliyini də nəzərə alsaq, bu, Ağdam rayonu üçün ikiqat faciə idi.

Səhv eləmirəmsə, Eynşteynin fikridir, deyir, qaranlıq o yerdə olur ki, orada işıq olmasın, soyuq o yerdə olur ki, orada isti olmasın, şər o yerdə olur ki, orada xeyirxahlıq olmasın. Ağdam rayonuna rəhbərlik edənlərin yarıtmaz fəaliyyətinin nəticəsində insanların çöhrəsindəki işıq qeyb olmuşdu, baxışlar, sifətlər bumbuz idi və ən dəhşətlisi, xeyirxahlıq ərşə çəkilmişdi, şər at belinə qalxmışdı.

Mənim qismətimə belə bir çətin dövrdə Ağdam rayonuna rəhbərlik etmək yazılmışdı.

Vəziyyəti yerli-yataqlı araşdırandan sonra, 2010-cu il üçün büdcənin dürüstləşdirilməsi zamanı, Maliyyə Nazirliyinə məktub yazaraq bütün kəndlərin icra nümayəndəliklərinə psixoloq ştatının verilməsini xahiş etdim. Məktubun surətini Prezident Administrasiyasına və bir neçə nazirliyə göndərdim. Fikrimi onunla əsaslandırmışdım ki, təyyarə səmada ən xırda nasazlıqla üzləşəndə belə, yerə məcburi eniş edərkən sərnişinlərə yardım göstərmək üçün aeroporta, az qala, 100 nəfər psixoloq gətirirlər. Ağdam rayonunun əhalisi isə son illər bundan yüz qat artıq faciələr yaşayıb, ağır mənəvi-psixoloji sarsıntılar keçirib. Ona görə də bu insanlarla iş aparmaq, onları normal həyata qaytarmaq üçün psixoloq ştatının yaradılmasının böyük əhəmiyyəti ola bilər.

Məni bu məktubu yazmağa vadar edən bir məqam var idi. 2009-cu ildə Maliyyə Nazirliyi rayonun büdcə təşkilatlarında məndən əvvəlki dövr üzrə yoxlama aparmışdı. Təxminən 300 nəfər əməkdaşın əməkhaqqı dayandırılmışdı. Əslində, qanun baxımından bu, haqlı qərar idi. Məsələn, uşaq bağçalarında məcburi köçkünlər yaşayırdı. Amma vətəndaşın burda heç bir günahı yox idi, o, iş yerini özündən asılı olmayan səbəblərdən itirmişdi.

Məktubu götürüb Bakıya, maliyyə naziri cənab Samir Şərifovun qəbuluna getdim. Nazir məni çox yüksək səviyyədə qarşılayıb bu məsələdə bizə köməklik göstərdi.

Yeri düşmüşkən, burda kiçik haşiyəyə çıxıb yüksək çinli məmurlarla bağlı bir məsələyə toxunmaq istəyirəm.

Daşürəkli məmurları yumşaltmaq, onlarla dil tapmaq müşkül işdir. Neçə illik təcrübəmdən bu gerçəyin dəfələrlə şahidi olmuşdum deyə, bürokratik əngəlləri, qismən də olsa, aşacağına, “Burda mənəm, Bağdadda kor xəlifə” prinsipi ilə işləyən bir çox yüksək vəzifəli məmurların qəlbinə

müəyyən qədər insaf salacağına ümid etdiyimdən rayon icra hakimiyyətinin yazışma blankının yuxarı hissəsində - nəzərə çarpan yerdə Ulu öndər Heydər Əliyevin Ağdam haqqında dediyi bu fikri yazdırmışdım: “Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz”.

Bizim insanlarda belə bir fikir formalaşıb ki, rayon icra hakimiyyətinin başçısı guya nə zaman istəsə, nazirlərlə görüşər, telefonla danışar və anındaca istədiyi problemi yoluna qoya bilər. Əslində isə qətiyyən belə deyil. Nazirlər var, düz bir ay əlləşib-vuruşursan, nəinki qəbuluna düşmək olmur, heç telefonla da danışa bilmirsən.

Rayonun məndən əvvəlki rəhbərliyi bu əngəlləri aşmağın qəribə bir yolunu tapıbmış. Demək, Ağdam Rayon İcra Hakimiyyəti Bakıda hansısa dövlət orqanında hər hansı bir məsələni həll etmək istəyəndə, öz aləmlərində bürokratik maneələri dəf etmək üçün, göstəriş verirmişlər ki, məcburi köçkünlər Ağdam-Bərdə magistral yolunu bağlasınlar. Yol bağlanandan dərhal sonra aidiyyətli nazirliklər və “Dövlətqaçqınkom” təlaşa düşürmüş və beləcə, məsələ öz həllini tapırmış.

Neçə illik iş təcrübəmdə həmişə qoruduğum dəyərlərə, əməl elədiyim prinsiplərə, əxlaqıma, ən ümdəsi də, Vətənə, Ağdama, ağdamlılara olan sonsuz sevgimə zidd olduğundan, mən belə çirkin idarəçilik üsulu ilə, təbii ki, qətiyyən barışa bilməzdim. Təsəvvür edin, əhalinin, ev-eşiyini, yurd-yuvasını itirib min bir əzab-əziyyət içərisində yaşayan insanların dərd-səri ilə maraqlanmaq, onların qayğısına qalmaq üçün rayona rəhbər təyin olunmuş şəxslər vicdanla işləmək, dövlət başçısının göstərdiyi məsul və şərəfli etimadı doğrultmaq üçün var gücü ilə çalışmaq əvəzinə, bu insanlardan alət kimi istifadə edərək öz məkrli niyyətlərinə çatmaq üçün sabotaja əl atır, məcburi köçkünlər arasında dövlətə, hakimiyyətə qarşı narazı təbəqə formalaşdırırmış. Nəticədə rayon sakinlərinin həllini tapmayan problemləri qalaq-qalaq yığılıb qalmışdı. Bu problemlərin köklü həlli mərkəzi icra hakimiyyəti orqanlarının, ayrı-ayrı nazirliklərin, dövlət idarələrinin köməyi və iştirakı olmadan mümkün deyildi. Ona görə də

rayona rəhbərlik etdiyim müddət ərzində - 2009-2014-cü illərdə bir çox nazirlər, komitə sədrləri, respublika səviyyəli müxtəlif idarə və təşkilat rəhbərləri ilə tez-tez ünsiyyətdə olmaq məcburiyyətində idim.

İnsan ünsiyyətdə tanınar. Hansı vəzifəni tutmasından, ictimai-siyasi mövqeyindən, sosial statusundan asılı olmayaqaq, hər kəs ilk növbədə insandır. Kağız üzərindəki qanunları da insanlar yazır və bu quru kəlmələrə can verən də, onu öz əməli, davranışı, əxlaqı ilə göylərə qaldıran da, öz naqisliyi, harınlığı, mənfəətpərəstliyi ilə yerlə bir edən də elə insan özüdür. Çox şahidi olmuşuq, adam var, öz nüfuzu, cəmiyyətdə qazandığı mövqeyi ilə tutduğu vəzifəyə hörmət gətirir, adam da var, ona yalnız tutduğu vəzifəyə görə - həm də müvəqqəti – vəzifədən gedənəcən hörmət edirlər. Birincilər vəzifənin verdiyi imkan və səlahiyyətlər daxilində hər zaman ədalət prinsipini qorumağa, xeyirxahlıq etməyə, ona üz tutanlarla alicənab, həssas davranmağa yönəldirlərsə, ikincilər, əksinə, oturduqları kreslonun, daşıdıqları vəzifənin sanki onlara ata-babalarından miras qaldığını düşünür, insanlara yuxarıdan-aşağı, qeyzlə baxır, öz mənfəətlərini bütün insani dəyərlərdən üstün tuturlar. Mən icra hakimiyyətinin başçısı işlədiyim müddətdə bir çox vəzifə sahibi ilə ünsiyyətdə oldum və xaraktercə qeyd elədiyim hər iki tipə aid insanlarla qarşılaşdım.

İlk növbədə Ağdama, Ağdam camaatına cani-dildən, ürəkdən köməklik göstərən, əlindən gələni əsirgəməyən bir neçə nəfər yüksək vəzifəli şəxs haqqında danışmağı özümə mənəvi borc sayıram. İstəyirəm ki, ağdamlılara hörmətlə yanaşan, qayğı göstərən bu insanları hər kəs həmişə hörmətlə xatırlasın:

- Azərbaycan Respublikasının Baş naziri cənab Artur Rasizadə;
- Azərbaycan Respublikası Baş nazirinin müavini cənab Abid Şərifov;
- Azərbaycan Respublikasının Daxili İşlər naziri, general polkovnik cənab Ramil Usubov;
- Azərbaycan Respublikasının Maliyyə naziri cənab Samir Şərifov;

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri cənab Səlim Müslümov;

- Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri cənab Zeynal Nağdəliyev;

- "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri cənab Əhməd Əhmədzadə;

- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti cənab Rövnəq Abdullayev;

- "Azərqaz" Baş İstehsalat İdarəsinin rəisi cənab Əkbər Hacıyev.

***

2009-cu ilin büdcəsində Ağdam rayon səhiyyəsinə dərman preparatları və sarğı materiallarının alınmasına vur-tut 153 min manat vəsait nəzərdə tutulmuşdu. Halbuki təkcə diabet xəstələrinin sayı 3 min nəfərdən çox idi və onları ilboyu dərmanla təmin etmək üçün təxminən 500 min manat vəsait tələb olunurdu.

Bu məsələ ilə bağlı o instansiya qalmadı müraciət etməyim, ancaq köməklik göstərən kimsə tapılmadı. Hamı, demək olar, eyni sözü təkrarlayırdı: 2011-ci ilin büdcəsinə baxılanda nəzərə alarıq. Əlbəttə, ilyarım gözləmək olmazdı. Məcbur olub Azərbaycan Respublikasının Baş naziri cənab Artur Rasizadənin qəbuluna getdim. Məsələ barədə geniş məlumat verdim, diabet xəstələrini dərmanla təchiz etmək mümkün olmadığını bildirdim. Həm də, lap diabet xəstələrini nəzərə almasaq belə, 153 min manat vəsait Ağdam rayon Mərkəzi Xəstəxanası üçün çox az idi.

Cənab Baş nazir elə mənim yanımdaca səhiyyə və saliyyə nazirliklərinə zəng elədi, problemi operativ qaydada öyrəndi və mənə məsələnin yaxın günlərdə həllini tapacağını, bu biabırçılığa son qoyulacağını bildirdi. Baş nazir telefonda səhiyyə naziri Oqtay Şirəliyevdən Ağdam səhiyyəsinə dərman və sarğı materialları üçün nə qədər vəsait ayrıldığını soruşdu, amma nazirdən dəqiq cavab ala

bilməyəndə bərk əsəbiləşdi: “Sən necə nazirsən ki, hansı rayona nə qədər dərman və sarğı materialı ayrılmasından xəbərin yoxdur?”

Sözün düzü, çox pis oldum.  Fikirləşdim ki, qaş düzəltdiyim yerdə vurub göz çıxartdım.

Minnətdarlığımı bildirib otağı tərk etmək istəyəndə cənab Baş nazir təmas xəttindəki vəziyyətlə maraqlandı. Ona əməliyyat şəraiti barədə geniş məlumat verdim. Sonra o, işğal altında olan torpaqlarımızın düşməndən azad olunması ilə bağlı fikirlərimi soruşdu. Dedim ki, mənim fikrimcə, torpaqlarımız döyüş yolu ilə alınsa, daha yaxşı olar, gələcək nəsillərin qarşısında üzüqara olmarıq.

Cənab Baş nazir masanın arxasından qalxıb əllərimi bərk-bərk sıxdı. Hiss elədim ki, sözüm cənab Baş nazirin ürəyincə oldu.

Baş nazirlə görüşdən heç 10 gün keçmədi, Maliyyə Nazirliyi dərman preparatları üçün vəsaiti 3 dəfə artırdı.

Rayona qayıdan kimi xəbər tutdum ki, rayon Mərkəzi Xəstəxanasının baş həkimini Səhiyyə Nazirliyinə çağırıblar, niyə Baş nazirə şikayət etdiyini soruşublar. Gərginlik elə həddə çatıb ki, az qalıb, baş həkimi işdən çıxarsınlar. Baş həkim haqlı olaraq bildirib ki, onun heç nədən xəbəri yoxdur. Həqiqətən də mənim Nazirlər Kabinetinə getməyimlə bağlı baş həkimin məlumatı yox idi.

Bu hadisədən bir müddət sonra Prezident Administrasiyasının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri cənab Zeynal Nağdəliyev mənimlə telefon əlaqəsi saxladı:

- İşlədiyin cəmi bir neçə aydır, - dedi, - Bakıda aptek açmaq istəyirsən. Rayonun işlərini qaydasına sal, apteki sonra açarsan.

Bu sözü eşidəndə mat qaldım:

- Zeynal müəllim, - dedim, - and içirəm, heç vaxt belə fikrim olmayıb. Mənim hec bu sahədə səriştəm də yoxdur.

Zeynal müəllim qayıtdı ki:

- And-aman eləmə, səhiyyə nazirinə məktub yazıb aptek açmaq üçün icazə istəmisən.

Elə bil başıma bir qazan qaynar su tökdülər. Düzünü deyim ki, çox pərt oldum.

Müəyyən izahat verdimsə də, hiss elədim ki, Zeynal müəllim mənə inanmadı. Mən də bu məsələni bir daha açıb-ağartmadım....

Əslində, aptek söhbəti belə olmuşdu. Ağdam rayonunda "Aptek Hacı" kimi tanınan bir nəfər var idi. Hamının hörmətini qazanmışdı, ləyaqətli insan idi, onu mən də tanıyırdım və hörmətlə yanaşırdım. Bir gün yanıma gəldi, söhbət əsnasında bildirdi ki, Bakı şəhərində yaşayır, aptek üçün münasib, hazır obyekti var və orada aptek açmaq istəyir. Rayon icra hakimiyyətinin başçısı kimi mənim müraciət edəcəyim təqdirdə məsələnin bir az rahat həll oluna biləcəyini deyib bununla bağlı səhiyyə nazirinə məktub göndərməyimi istədi.

Sözün düzü, bir yandan "Aptek Hacı"nın rayon camaatı arasındakı hörməti, bu işdə peşəkarlığı gəlib dayandı gözlərim önündə, bir yandan da həm insanlara etdiyim yaxşılığın, xeyirxahlığın məndə necə müsbət emosiya yaratdığını, həm də mərhum dostum Nizami Bəhmənovun yuxarıda diqqətinizə çatdırdığım tövsiyəsini xatırladım və dərhal səhiyyə nazirinə xahiş məktubu ilə müraciət etdim ki, Bakı şəhərində aptek açması üçün "Aptek Hacı"ya köməklik göstərsin.

Nə biləydim, hardan biləydim səhiyyə naziri Oqtay Şirəliyevin qoltuğuna daş yığıb mənə pislik etmək üçün neçə vaxtdan bəri məqam axtardığını?..

İndi özünüz düşünün, möhtərəm oxucu, içindən kin-küdurət püskürən bir kəsin - on minlərlə insanı yurd-yuvasından didərgin düşmüş bir rayonun Mərkəzi Xəstəxanasının açılışına bir ədəd stolu qıymayan vəzifə sahibinin, hətta nazir olsa belə, əməlinə necə haqq qazandırmaq olar? Məcburi köçkünlər, diabet xəstələri üçün Nazirlər Kabinetinə gedən, əlavə vəsaitin ayrılmasına nail olan, birbaşa səhiyyə nazirinin görməyə borclu olduğu işi görən icra hakimiyyəti başçısına öz ambisiyası naminə şər atan birisinə haqq qazandırmaq, ümumiyyətlə, mümkündürmü? Əlbəttə, yox. Əlbəttə, mümkün deyil. Mən də haqq qazandıra bilmirəm, üstündən neçə il keçsə də, nə olur-olsun, həmişə xoşniyyətli düşünməyə çalışsam da, belə əməlləri unutmağı bacarmıram. İnsanların yaxşı əməllərini unutmadığım kimi...

Axı, mən bu yaxşılığı, bu diqqəti necə unuda bilərəm ki? 2012-ci ildə Ağdam rayonunun Baharlı və Əfətli kəndlərindəki orta məktəb binaları qəfildən uçmuşdu. Yenə Baş nazir cənab Artur Rasizadəyə müraciət etdim. Məsələ ilə əlaqədar məni Baş nazirin müavini cənab Abid Şərifov qəbul etdi. Bərbad vəziyyətdə olan məktəb binalarının şəkillərini də özümlə götürmüşdüm. Abid müəllim məni yüksək səviyyədə qəbul etdi, məsələni öyrənəndən sonra söz verdi ki, nə lazımdırsa, köməklik göstərəcək. Həqiqətən də köməklik göstərildi. Həmin məktəblərdə təhsil alan şagirdlərin dərsə davamiyyətini təmin etmək məqsədilə onları müvəqqəti olaraq Fövqəladə Hallar Nazirliyinin çadırlarına köçürdük. Yeni məktəb binalarını isə 6 ay müddətinə tikib istifadəyə verdik.

***

Tikinti-quruculuq işlərinə Ağdam rayonunun giriş qapısından başladıq. Tikinti Soltanbud təpəsinin ətəyində, daxili imkanlar hesabına aparıldı.

1993-1994-cü illərdə həmin ərazidə “Ağdama xoş gəlmisiniz” sözü yazılan bir dəmir lövhə basdırılmışdı. O dəmir lövhəni görəndə adam xəcalət çəkirdi.

2010-cu ilin oktyabr ayında yeni giriş qapısı tam hazır oldu. Gözəl bir memarlıq kompleksi alınmışdı.

Ağdam Qarabağ müharibəsində 6 min nəfərə yaxın şəhid verməsinə baxmayaraq, rayonda Şəhidlər xiyabanı yox idi. Şəhidlərimizin əksəriyyəti işğal altındakı ərazilərdə dəfn olunduğundan rayon əhalisinin, şəhidlərin qohum-əqrabasının, yaxınlarının öz əzizlərini yad etmək, onların xatirəsini anmaq, bir dəstə gül qoymaq üçün üz tutası yerləri yox idi. Bunları nəzərə alaraq, Soltanbud təpəsinin girişində Ağdam şəhidlərinin adlarına layiq abidənin ucaldılması qərarına gəldik. Tikinti işləri yenə də daxili imkanlar hesabına aparıldı. Abidənin inşası 2010-cu ildə başa çatdı. Elə həmin il daxili imkanlarımızı səfərbər edib Soltanbud təpəsinin ətəyindəki Qala qapısı adlanan ərazidə göz oxşayan bir park da saldıq.

Bunun ardınca Veteranlar Evini tikib istifadəyə verdik.

Növbəti il İmamqulubəyli kəndinin girişində ikinci gözəl bir park salındı. İndinin özündə də rayonda bir çox əhəmiyyətli tədbirlər elə həmin parkda keçirilir.

2012-ci ildə Soltanbud təpəsinin yuxarı hissəsində Bayraq Meydanı kompleksi yaradıldı. Olduqca möhtəşəm və əzəmətli idi.

2012-ci ildə İmamqulubəyli kəndinin girişində gözəl bir bulaq kompleksi və istirahət zonası yaradıldı. Kənd yollarının kənarına səki və hasarlar çəkildi, Qozluq meşəsi adlanan ərazinin ətrafında bulaq kompleksi və göz oxşayan təpələr salındı. Quzanlı və Bənövşələr qəsəbələrində park və şəlalələr kompleksi yaradıldı.

Quzanlı qəsəbəsində Ulu öndər Heydər Əliyevin adını daşıyan, uzunluğu 3, eni 14 metr olan prospekt salındı. Həmin prospekt 2009-cu ilə qədər ensiz kənd yolundan ibarət idi. Yolboyu 30-40 il əvvəl çiy kərpicdən, nizamsız, səliqə-sahmansız tikilmiş ticarət köşkləri səpələnmişdi. Uçmaq təhlükəsi olan tikililərin sahibləri ilə təxminən bir ay danışıqlar aparıldı. Təklif etdik ki, icazə versinlər, prospektin enini 14 metrə qədər genişləndirək. Kimin köşkü plana düşüb sökülərsə, əvəzində arxa tərəfdən öz köşkündən iki dəfə böyük ərazidə yeni dükan tikdirsin. Sahibkarların

qarşısında şərt qoyulmuşdu: yeni inşa olunan ticarət obyektlərinin ön tərəfi ağlay daşlarla üzlənməli, damları qırmızı kirəmitlə örtülməli idi. Aparılan söhbətlər öz nəticəsini verdi və razılıq əldə olundu. Sahibkarlar inana bilmirdilər ki, onlara təmənnasız torpaq verilir. Sahibkarlar qısa müddətdə uçuq-sökük, köhnə köşklərin əvəzində ayrılmış ərazidə müasir tipli ticarət obyektləri tikdirdilər. Əhaliyə xəbərdarlıq etmişdim, tikinti-abadlıq işinə kim mane olmaq istəsə, onları incitsə, mənə məlumat versinlər. Bir gün sahibkarlardan birindən məlumat aldım ki, rayonun memarı ondan 500 manat pul tələb edib. Dərhal həmin memardan işdən çıxması ilə bağlı ərizə yazmasını tələb etdim və o, tutduğu vəzifədən azad olundu. Ağdam rayonunda işlədiyim 5 il müddətində heç bir mağaza sahibindən bir manat da pul alınmadı.

Görülən tədbirlər nəticəsində Heydər Əliyev prospektində orta hesabla 500 nəfərin çalışa biləcəyi iş yerləri açıldı. Bundan əlavə, əgər 2009-cu ilə qədər həmin prospektdə gün ərzində 30-40 avtomobil görünərdisə, artıq 2011-2012-ci illərdə bu rəqəm 4-5 mini keçmişdi. İş o yerə çatdı ki, tıxacları aradan qaldırmaq üçün Heydər Əliyev prospektində işıqforlar quraşdırmalı olduq.

Mənim Ağdamda gördüyüm işlər bunlar idi.

2010-cu ildə Quzanlı qəsəbə qəbiristanlığı hasara alındı. Təmiz suyu olan artezian quyusu qazdırdım. Qəbiristanlığın girişində bulaq kompleksi yaradıldı.

Ağcabədi rayonunun Sarıcalı kənd qəbiristanlığı Quzanlı kənd qəbiristanlığı ilə yanaşı olduğundan ora da su çəkdirdik. Su çəkdirmək savab işdir, deyirlər. Allah bütün ölənlərimizə, şəhidlərimizə rəhmət eləsin.

Quzanlı qəsəbəsinin daxili yolları da bərbad vəziyyətdə idi. Böyük yük avtomobilləri dar küçələrdə çətinliklə hərəkət edirdi. Elə küçələr var idi ki, sakinlər vəziyyətdən sui-istifadə edərək avtomobil yolunu öz həyətinə birləşdirmişdi. Problemi həll etmək üçün 2011-2013-cü illərdə

100 kilometr asfalt yol salınmasına və işıq dirəklərinin dəyişdirilməsinə nail olduq.

Əhalinin Ağdam həsrətini, el-oba nisgilinə hörmət, ehtiram əlaməti olaraq, Quzanlıdakı bəzi küçələrə Böyük Ağdamdakı bəzi küçələrin adlarını verdik: Süleyman Sani Axundov küçəsi, Əşrəf Əliyev küçəsi, Xudu Məmmədov küçəsi, Məşədi Abbas küçəsi və s. Yadımdadır, bu adları küçələrə verəndən bir neçə gün sonra ağsaqqal bir kişi mənə yaxınlaşıb dedi: “Elə bil, getdim Ağdamı görüb qayıtqım”.

2010-cu ildə Zərifə Əliyeva küçəsində abadlıq işlərinə başladıq. Küçəyə asfalt döşəndi, işıq dirəkləri yeniləndi, hasarlar, mağazalar ağlay daşı ilə üzləndi. Tam müasir bir prospektə bənzər, göz oxşayan küçə alındı.

O dövrdə məcburi köçkün həyatı yaşayan insanlarda belə bir fikir formalaşmışdı: tezliklə Böyük Ağdama qayıdacağıq. Ona görə heç kim daşı daş üstünə qoymaq istəmirdi.

Çox düşünüb-daşınandan sonra belə nəticəyə gəldim ki, Quzanlı da, ətraf kəndlər də Ağdamdır, Ağdamın bir parçasıdır. Həyat öz axarı ilə inkişaf edir. 1993-cü ildə köçkün düşən bir kişinin 4 övladı var idisə, artıq bu uşaqlar böyüyüb, ailə qurublar. Qismət olsun, lap Ağdama qayıtsalar belə, artıq bu ailə Böyük Ağdamdakı evlərinə yerləşə bilməzdilər. Həm də, çox güman ki, ermənilər Böyük Ağdamda salamat ev qoymayıb. Belə halda məsələnin bir həlli var idi...

Müşavirələrdə, kənd və qəsəbələrdə insanlarla görüşlər zamanı onlara izah edirdim ki, hazırda yaşadığımız ərazilərdə özümüz üçün evlər tikməliyik, həyat şəraitimizi yaxşılaşdırmalıyıq. Xəstəxanalar, məktəblər, kitabxanalar inşa etməliyik. Böyük Ağdam işğaldan azad olunanda da ailənin yarısı köhnə yurda qayıdar, yarısı da elə məskunlaşdığı yerdə qalıb yaşayar.

Sanki insanlar yuxudan ayılan kimi oldular. Beləcə, quruculuq və tikinti işləri geniş vüsət aldı.

2009-cu ildə böyük bir vəzifə sahibinə Quzanlı qəsəbəsində kitabxana tikmək istədiyimi bildirəndə, dedi ki, kitabxananı Böyük Ağdama qayıdanda tikərsiniz. Özümdən asılı olmayaraq cavab verdim ki, onsuz da dünyada vəziyyət pisə doğru gedir. Bəlkə, bu məsələ 5-6 il də uzandı. İndi belə çıxır, biz 5-6 il də kitab oxumamalıyıq? Vəzifə sahibi məni tərs-tərs süzsə də, heç nə demədi.

Bir gün məlumat aldım ki, “Dövlətqaçınkom”İmişli rayonunda məcburi köçkünlər üçün yeni qəsəbə salmaq istəyir. Elə həmin gün Bakıya yola düşdüm. “Dövlətqaçınkom”un rəhbərliyi ilə görüşüb izah etdim ki, Ağdam rayonunun özündə, palçıq daxmalarda 25 min insan yaşayır. Müzakirələrdən sonra Quzanlı qəsəbəsinə yaxın ərazidə 700 ailəlik böyük bir qəsəbənin tikintisinə nail oldum. Həmin qəsəbənin sakinləri 15-16 il idi, kiçik, dəmir evlərdə yaşayır, qışda soyuqdan, yayda istidən əziyyət çəkirdilər.

Yenidən qurulan Fin qəsəbəsi Quzanlı qəsəbəsi ilə bitişik idi deyə, layihəyə həmin ərazidə böyük bir istirahət parkının yaradılması barədə bəndin salınmasına da nail olduq. Fin qəsəbəsində tikilən evlər əvvəl-əvvəl yalnız köhnə Fin qəsəbəsində məskunlaşan məcburi köçkünlər üçün nəzərdə tutulsa da, rayonda həkim çatışmadığını nəzərə alıb kənardan gələn bir neçə nəfər həkimə də oradan ev ayırdıq. Bundan başqa, Ağdam rayonundan kənarda və rayonun özündə ağır vəziyyətdə yaşayan 35 şəhid ailəsini evlə təmin edə bildik. Bir müddət sonra daxili imkanlar hesabına qəsəbədə müasir üslubda, 200 nəfərlik xeyir-şər evi tikdirib bütün avadanlıq və qab-qacağı ilə bərabər sakinlərin istifadəsinə verdik.

Yeri gəlmişkən, həmin xeyir-şər evinin birini də məcburi köçkünlərin məskunlaşdığı Birinci “Dördyol” qəsəbəsində inşa etdirdik. Bu həmin qəsəbə idi ki, təxminən bir il əvvəl yaşlı bir kişi mənə qardaşı dünyasını dəyişəndə ehsan vermək üçün nə ərzaq, nə də yer tapdığını danışıb ağlamışdı.

...Ağdamda işə yenicə başlamışdım, məlumat aldım ki, qəsəbələrdə elə köçkün ailələri var, həftələrlə ət, mer-meyvə üzünə həsrətdirlər, acınacaqlı vəziyyətdə yaşayırlar.

Rayonun bütün qəsəbələri üzrə nümayəndələrini icra hakimiyyətinə dəvət elədim, müəyyənləşdirdim ki, ümumilikdə 35 ailə o qədər çətin, ağır vəziyyətdə yaşayır ki, hətta onların acından ölmək təhlükəsi var. Ailələrdən bir qismi ailə başçısını itirmişdi, o birilərin isə ailə üzvlərindən bir neçə nəfəri ruhi xəstə idi.

Çıxış yolu tapmaq, problemi həll etmək vəzifəsi rayon icra hakimiyyətinin başçısı kimi, təbii ki, mənim üzərimə düşürdü. Uzun illərdən bəri iş prosesində qazandığım təcrübə, eləcə də ömrüm boyu böyük önəm verdiyim mənəvi dəyərlər həmişə mənə diqtə edib ki, rəhbər şəxs mütləq ən mürəkkəb və çətin situasiyada belə, vəziyyəti sadələşdirməyi bacarmalı, onun problemin həlli yolunu tapmaq istəyi olmalıdır.

Məsələ mənə tam aydın olandan sonra götür-qoy elədim, təxminən iki saatın içində qərar verdim ki, çətin yaşayan 35 ailə rayon icra hakimiyyətinin əməkdaşlarına təhkim olunsun. Dərhal bu barədə sərəncam hazırlatdırıb imzaladım. Sərəncamda göstərilirdi ki, imkansız ailələrə təhkim edilən vəzifəli şəxslər müntəzəm şəkildə həmin ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görsünlər. Sərəncamda özümü iki imkansız ailəyə təhkim etmişdim.

Məsəl var, deyir, kasıb ailəyə hər gün bir balıq tutub verməkdənsə, həmin ailəyə balıq tutmaq üçün tor alıb vermək yaxşıdır ki, ailə özü balıq tutmağı öyrənsin və heç kəsə minnəti olmasın. Mən də düşünüb qərar verdim, imkansız ailələrin həyətyanı sahəsini şumlayıb lazım olan meyvə-tərəvəz məhsulları əkək ki, ailə üzləri əldə olunan məhsullardan istədiyi qədər istifadə edə bilsin. Bu, həmin ailələrə həftədə bir dəfə xiyar-pomidor alıb aparmaqdan min dəfə üstün idi.

Təhkimçilərə bir təklif də verdim: gəlin, hər birimiz həftədə bir dəfə himayəyə götürdüyümüz ailənin üzvləri ilə birlikdə nahar, yaxud şam yeməyi yeyək, qoy o insanlar bizi özlərinə arxa bilsinlər.

Hamıdan əvvəl bu işdə özüm nümunə göstərməli olduğumu bilirdim. Buna görə də himayəyə götürdüyüm ailələrin üzvləri ilə birlikdə onların həyətyanı torpaq sahəsini bellədim, sonra özüm xiyar-pomidor şitilləri alıb gətirdim və həmin sahədə əkdik.

Mən özüm himayəyə götürdüyüm ailələrlə bir neçə dəfə nahar etdim. Ailələrdən birinin iki uşağı ruhi xəstə idi. Onların vəziyyəti qəlbimi ağrıdırdı. Hər dəfə o uşaqları görəndə bacardığım qədər nəvaziş görtərir, qayğılarına qalır, beləcə, az da olsa, mənəvi rahatlıq tapırdım.

O biri ailələrə təhkim olunan idarə rəhbərləri də eynən belə edirdilər.

Sonralar eşitdim ki, mənim vəzifədən gedişimlə bu nəcib təşəbbüs davam etdirilməyib və yarımçıq qalıb.

İndi məni bu xatirə-kitabı yazmağa vadar edən həmin o məmurdan soruşuram: sən bir dəfə də olsun, ruhi xəstə uşağı qucağına aldınmı, bağrına basdınmı, ona nəvaziş göstərdinmi? O uşağı görəndə ürəyin sızıldadımı heç? Əlinə bel götürüb imkansız bir ailənin həyətində işlədinmi? Əməlinlə bir Ağdam şəhidinin ruhuna dua oxutdurdunmu? Bir ağdamlının qəm yükünü çiynində daşıdınmı? İnanmıram. Mən bilən, bağrına basmadın, nəvaziş göstərmədin, həyətdə işləmədin, dua oxutdurmadın, o yükü çiynində daşımadın. Sən bilənləri isə mən bilmək istəmirəm.

Bu işləri görməyə məni kimsə məcbur etmirdi, möhtərəm oxucu! Sadəcə, taleyinə məcburi köçkünlük düşmüş həmyerlilərimin acınacaqlı həyatının, min bir ehtiyac içərisində yaşamalarının şahidi olmaq mənə çox ağır gəlirdi deyə, bu işləri görməyi özümün mənəvi borcum bilirdim.

İndi bu cümlələri yazanda o vaxtki duyğuları bir daha, yenidən yaşayıram və inanın ki, qəhər məni boğur, göz yaşlarımı saxlaya bilmirəm.

Axı, mən gözümü açandan Ağdamı, ağdamlıları – el-obamın bu məğrur, qürurlu insanlarını həmişə şax, ötkəm, əyilməz, cəsarətli görmüşdüm. Zaman, son illərin qanlı-qadalı hadisələri Ağdamın, onun sakinlərinin sinəsinə dağlar çəkdi, insanlar yurd-yuvalarından pərən-pərən düşdülər, muncuq dənələri kimi ölkənin dörd bir yanına səpələndilər. İllər boyu alın təri ilə qazandıqları sərvəti, mal-mülkü bir anın içində itirdilər, işğal altında qalan yurdları kimi bir çox mənəvi dəyərləri, arzuları, xəyalları da alt-üst oldu. Mən bu insanlarla görüşəndə hər dəfə ürək ağrısı, sarsıntı keçirirdim, hər vəchlə çalışırdım ki, onların dərdinə şərik olum, əlimdən gələn, gümanım çatan köməkliyi göstərim. Bu mənim həm vəzifə, həm də vətəndaşlıq borcum idi.

Əminəm ki, orta və yaşlı nəslin nümayəndələri Ağdamın o əzəmətini, o möhtəşəmliyini heç vaxt unutmayacaq, ağdamlı olmaları ilə son nəfəslərinəcən fəxr edəcəklər.

Kənardan bazburutlu adam təsiri bağışlayan vəzifəli məmur bir gün Bərdə rayonunda vətəndaşları qəbul edərkən belə bir hadisə baş vermişdi. Deməli, bir nəfər qadın ona üz tutub uşağının xəstə olduğunu deyir, əməliyyat üçün ondan pul istəyir.

Qadın gərgin vəziyyətdə olduğundan hündürdən danışırmış.

Nazir özünü adam sərrafı, mahir bilici kimi göstərmək istəyir, şəstlə ətrafındakılara deyir:

- Bax, istəyirsinizsə, qışqıran, səs-küy salan o qadının hansı rayondan olduğunu deyim. O qadın Ağdam rayonundandır.

Hamı nazirə baxır, o, səs salan qadını irəli dəvət edib, kobud şəkildə soruşur:

- Hansı rayondansınız?

Qadın cavab verir:

- Qurban olum, Ağdam rayonundan gəlmişəm.

Zəndində yanılmadığını güman edən nazirin rəngi-rufu açılır, məmnun bir görkəm alır, utanmadan qürrələnir ki, gördünüzmü, necə düz tapdım?

Yazıq Ağdam!

Qadın nazirin üzündəki sevinci görüb bir az ürəklənir, deyir ki:

- Qurban olum, əslən başqa rayondanam, yoldaşım ağdamlıdır, Ağdama ərə gəlmişəm.

Qadın bu sözləri deyəndə nazir tutulur, rəngi bozarır, yanıldığını görüb pərt olur.

Heyf səndən, Ağdam! Nəsli-nəcabəti bilinməyənlər haqqında nə danışmadılar ki!...

Sönmüş odun, ocağın,

Viranədir qucağın.

Qurda-quşa yem oldun,

Ağlayır dörd bucağın...

***

Ağdama təyinat alarkən Azərbaycan Prezidenti cənab İlham Əliyevin mənə verdiyi tapşırıqlardan biri də rayonda tikinti-quruculuq və abadlıq işlərinə xüsusi diqqət yetirməklə bağlı idi. Rayonun büdcəsi ilə tanış olanda öyrəndim ki, abadlıq işləri üçün ayrılan vəsait bir ildə təxminən on min ağac əkməyə bəs edir. Ona görə də Quzanlı qəsəbəsinə yaxın bir ərazidə, 5 hektar torpaq sahəsində tinglik salmaq qərarına gəldik. Artıq 2009-cu ilin sonunda bəzək kol və ağaclarının toxumlarını əldə edib həmin ərazidə yerə basdırmışdıq. Əlavə olaraq, bəzək kollarının şitilini də əkmişdik.

2010-2013-cü illər ərzində özümüz becərdiyimiz tinglərin hesabına Ağdam rayonunda orta hesabla 80 min ədəd bəzək kol və ağacları əkdik və buna görə dövlət büdcəsindən bir manat da xərcləmədik. Nəzərə alsaq ki, hər ağacın qiyməti təxminən 5-6 manat civarındadır, onda dövlət vəsaitinə xeyli qənaət olunduğu üzə çıxar.

Bir halda ki, yeri gəldi, onu da deyim, mən təqaüdə göndəriləndən sonra tinglikdə qalan 80 min ədəd bəzək ağacını Ağdam rayonuna hədiyyə etmişdim. Amma düzünü deyim ki, pay verdiyim o ağacların Ağdamda təmənnasız əkildiyinə inanmıram. Tinglikdəki bəzək ağacları və kolları yığılıb qurtarandan sonra rayon rəhbərliyi həmin ərazidə kələm becərtdirib satdırmağa başladı. Mən o tingliyi salanda niyyət eləmişdim ki, orada becərdiyimiz ağac və kolları bir vaxt Böyük Ağdamda əkəcəyik. Əfsus!

***

Azərbaycanın hər bir regionunun özünəməxsus xüsusiyyətləri müxtəlif sahələrdə olduğu kimi, heç şübhəsiz, iqtisadi sferaya da təsirsiz ötüşmür. Rəhbərlik etdiyi rayonun tərəqqisini həqiqətən istəyən rəhbər şəxsin başlıca vəzifələrindən biri də məhz iqtisadi sahənin inkişafını xüsusi diqqətdə saxlamaq, konkret addımlar atmaq olmalıdır. Mentalitetimizə uyğun olaraq, rəhbər şəxslərin tövsiyə və məsləhətlərinə əhalinin həmişə xüsusi hörmətlə yanaşdıqlarını nəzərə alsaq, zənnimcə, rayon icra hakimiyyəti başçılarının bu məsələyə böyük təsir imkanlarının olması fikri ilə hər kəs razılaşar. Əhali hiss edəndə ki, rəhbərin tapşırıq və göstərişləri onun mənafeyinə xidmət göstərir, o zaman həmin rəhbəri mütləq dəstəkləyir. Bu baxımdan, icra hakimiyyətinin başçısı vəzifəsində işləmək nə qədər məsuliyyətli olsa da, çətin iş deyil. Sadəcə, ədalətli olub ağılla hərəkət etmək lazımdır.

2009-cu ildə Quzanlıda və ətraf kəndlərdə hələ də torpaq islahatları həyata keçirilməmişdi, torpaqları əhaliyə şərti olaraq paylamışdılar. Ağdam

rayonunda əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı və qismən də ticarət sahəsi idi. Sənaye obyektləri işğal edilmiş ərazilərdə qaldığından, demək olar, bu sahədə tam süstlük hökm sürürdü. Belə bir vəziyyətdə torpaq islahatının indiyədək aparılmaması təəccüb doğururdu. İqtisadi sferada konkret iş görmək üçün ilk növbədə torpaq islahatından başlamaq lazım gəlirdi. Belə də etdim və qısa müddətdə rayonda torpaq islahatını başa çatdırdım. İslahata qədər Quzanlı qəsəbəsində torpaqlar imkanlı adamlar arasında pay-pürüş edilmiş, adambaşına şərti olaraq 20 sot torpaq verilmişdi. İslahatdan sonra bu rəqəm 40 sota çatdırıldı. İnsanlar haqları çatan torpaqlarına sahib çıxdıqdan sonra güzəranları xeyli yaxşılaşdı. Əhaliyə söz verdim ki, kənd təsərrüfatının dirçəldilməsi üçün əlimdən gələn köməyi əsirgəməyəcəyəm. Sahibkarlara açıq şəkildə bildirdim ki, heç nədən çəkinməsinlər, onlara konkret hansısa işdə kömək edə bilməsəm də, icra strukturları tərəfindən hər hansı problem yaradılmasına da imkan verməyəcəyəm.

Xındırıstan Ağdam rayonunun qabaqcıl kəndlərindən idi. 2010-cu ildə bu kənddə abadlıq-quruculuq işlərinə başladıq. Kəndin girişindəki ticarət köşkləri sökülüb yeni, müasir üslubda yaraşıqlı tikililərlə əvəz olundu. Kəndin girişində Azərbaycanda analoqu olmayan böyük bir dayanacaq inşa etdik, yol kənarlarında piyadaların gediş-gəlişi üçün səkilər çəkdirdik.

Sovet hakimiyyəti illərindən fərqli olaraq, indi kənd təsərrüfatının inkişafını şərtləndirən bir sıra xüsusi amillər var. Birinci amil kənd əhalisini və sahibkarları kənd təsərrüfatı texnikası ilə təmin etmək məsələsidir. Sovet hakimiyyəti dövründə bu sahədə vahid infrastruktur, formalaşmış sistem olduğundan kolxoz və sovxozlar ardıcıl şəkildə texniki vəsait və digər zəruri avadanlıqlarla təmin edilir, ortaya çıxan problemlər anındaca öz həllini tapırdı. Amma kolxoz və sovxozlar ləğv olunduqdan sonra yardımçı infrastrukturlar da dağıdıldı. Ağdamda isə vəziyyət bu sarıdan lap bərbad idi. O vaxtlar torpaqda çalışan əhalinin kənd təsərrüfatı texnikasına olan tələbatı “Aqroservis” ASC-nin rayon filialları vasitəsi ilə ödənilirdi. Ağdam rayonunda bu qurumun filialı fəaliyyət göstərmirdi.

Olan-qalan texnikanı Ağdam rayonunun əvvəlki rəhbərliyi “Aqroservis”in Ağcabədi rayonundakı filialına vermişdi, bəhanə də o olmuşdu ki, guya Ağdamda bu işi bilən mütəxəssislər yoxdur. Qonşu rayondakı filial isə, təbii ki, Ağdam rayonuna lazım olan səviyyədə xidmət göstərə bilməzdı. Bu səbəbdən də Ağdam rayonunda kənd təsərrüfatı sahəsində çalışan əhali texnika sarıdan bərk əziyyət çəkirdi.

Məsələni gecikdirmək olmazdı, birinci növbədə problemi həll etmək lazım idi. Elə də elədim. Kənd Təsərrüfatı Nazirliyinə getdim, nazirlə görüşdüm, Ağdama aid texnikanı alıb rayona gətirdim. Daha əlimizdə olan texnika vasitəsilə kənd təsərrüfatında zəruri işləri özümüz görə bilirdik.

2011-ci ildə isə Quzanlı qəsəbəsində “Aqroservis”in rayon filialı üçün gözəl bir kompleks tikib istifadəyə verdik. Beləliklə, rayonun kənd təsərrüfatı ilə bağlı ən böyük problemi öz həllini tapdı.

Sahibkarlığın inkişafına təkan verən ən vacib şərtlərdən biri də sahibkarların özlərini müstəqil və azad hiss etmələri üçün münbit şəraitin yaradılmasıdır. Ona görə də mən Ağdam rayonunda işlədiyim 5 il müddətində sahibkarları rayon səviyyəli müşavirələrə dəvət edir, müşavirələrdən sonra isə onlarla özüm görüşürdüm. Məqsədim sahibkarlarla səmimi və isti münasibət yaratmaq idi. Fikirləşirdim ki, elə söz olar, sahibkar onu müşavirədə, hər kəsin yanında deyə bilməz, ya da demək istəməz. Ona görə də sahibkarları şəxsən özüm qəbul edirdim ki, istənilən problemlə bağlı açıq danışa bilsinlər. Həmin görüşlərdə iştirak etmiş sahibkarlar indi də sağ-salamatdırlar, yəqin onlar da danmazlar, hansısa bir problem ortaya çıxanda daima çalışırdım ki, əlimdən gələn köməkliyi göstərim.

Söz düşmüşkən, bu məsələ ilə bağlı sizə bir hadisəni danışmaq istəyirəm. 2012-ci il idi, Ağcabədi-Tərtər şossesində, yol kənarında kiçik mağazası olan bir nəfər məcbiri köçkün yanıma gəlib bildirdi ki, Nəqliyyat Nazirliyinin Gəncə zonasına nəzarət edən bir əməkdaşı gəlib ondan mağazanın sökülməsini istəyir. Səbəb mağazanın yoldan qanunla tələb olunan məsafədə yerləşməməsi idi. Çox çətinliklə də olsa, həmin əməkdaşı tapdım, rayon icra hakimiyyətinə dəvət edib görüşdüm. Ona dedim ki, sizi

anlayıram, əslində, tələbiniz qanunidir, amma bu məqamda, bu vəziyyətdə belə tələb irəli sürmək insafsızlıqdır. Həmin şəxsə izah elədim ki, əgər düşmənlə təmas xəttində yaşayan məcburi köçkün öz ailəsini bu köşkdən qazandığı cüzi məbləğlə dolandıra bilirsə, buna ancaq sevinmək lazımdır, onun qazandığı 5-3 manata göz tikmək səhv hərəkətdir. Nəqliyyat Nazirliyinin əməkdaşı mənimlə razılaşdı, üzr istədi və rayonu birdəfəlik tərk elədi.

İqtisadiyyatın dirçəldilməsinə, sahibkarlığın inkişafına ilk növbədə, əlbəttə, gərgin zəhmət hesabına nail olmaq mümkündür, amma bununla yanaşı, necə deyərlər, gərək uğur mələyi də səninlə ola, gərək Uca Yaradan da öz mərhəmətini səndən əsirgəməyə. Bax, 2010-cu ildə Ağdam rayonunda belə oldu. Uca Yaradanın lütfü ilə ruzi bolluğu yarandı. Rayon əhalisinin üzü gülürdü. Beləcə, bir neçə il dalbadal hər hektardan 40-50 sentner taxıl biçilirdi, bir ildə 50 min tona qədər soğan becərilirdi.

...Sahibkarların əsas problemlərindən biri də kreditlə bağlı idi. Bu problemi həll etmək məqsədilə 2011-ci ildə Sahibkarlığa Kömək Milli Fondu ilə əlaqə saxlayıb sahibkarlara güzəştli kredit verilməsinə köməklik göstərilməsini xahiş etdim. Sözün açığı, nə qədər çalışırdımsa, sahibkarlara kredit verilməsinə nail ola bilmirdim. Bir gün rayon icra hakimiyyəti başçısının müavini Allahverən Əliyevlə birlikdə Qaradağlı kəndinə vətəndaşların qəbuluna gedirdik. Söhbət təsadüfən kredit məsələsinə gələndə Allahverən müəllimə dedim ki, istəyirəm kreditlə bağlı bir nəfər vəzifəli adama zəng edim (Həmin vəzifəli şəxsin adını bilərəkdən çəkmək istəmirəm, çünki sonralar o, Ağdam rayonu üçün bəzi işlər gördü). Zəng edib hal-əhval tutandan sonra ondan xahiş elədim ki, kredit məsələsində bizə köməklik göstərsin. Həmin o vəzifə sahibi mənə nə desə yaxşıdır? Dedi ki, biz kredit verəndə elə edirik, rayon icra hakimiyyəti başçıları bilməsin, yoxsa onlar xəbər tutanda ki, biz hansısa sahibkara kredit veririk, verilən məbləğin yarısını o sahibkarın əlindən alırlar. Düzü, elə bil başıma bir qazan qaynar su tökdülər. Dedim, ay filankəsov, sən özün dələduzsan deyə, elə bilirsən, hamı sənin kimi dələduzdur? Bu sözləri deyib telefonu bağladım. Bir az keçmiş Allahverən müəllimin telefonuna zəng gəldi. Zəng

edən həmin vəzifəli şəxs idi. İki gündən sonra Ağdam rayonunda fəaliyyət göstərən sahibkarlara kredit ayrıldı.

Demək istəyirəm ki, vəzifəli şəxs xalq üçün nəsə bir iş görəndə gərək heç nədən çəkinməsin, kreslosunu itirməkdən qorxmasın.

***

Mən Qarabağ müharibəsi iştirakçısı olmuşam. Hələ 1991-ci ilin yayında Şuşa qalasında fəaliyyət göstərən, ermənilərin törətdiyi cinayətlərin qarşısını almaq və baş verən cinayətlərin istintaqını aparmaq məqsədi ilə yaradılmış Əməliyyat-istintaq qrupunda əməliyyatçılara rəhbərlik etmişəm. O dövrdə Dağlıq Qarabağ ərazisində cinayət hadisələrinin baş verdiyi bütün yerlərdə olmuşam və törədilən cinayət hadisələrinin üstünün açılması üçün bir çox zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirmişəm. Mərhum jurnalist, Azərbaycanın Milli Qəhrəmanı Salatın Əsgərovanın qətlə yetirilməsinin, Martuni rayonunun Qarabağlı kəndindəki mal fermasında kənd sakinlərinin öldürülərək yandırılmasının iştirakçıları olmuş erməni cəlladlarının ifşasında iştirak etimiəm.

1991-ci il iyul ayının 3-də səhər saat 5 radələrində tabeliyimdə olan 50 nəfər polis əməkdaşı ilə Daşaltı kəndində əməliyyat keçirərək bir qrup erməni yaraqlısını zərərsizləşdirib Şuşaya gətirmişdik. Əməliyyatda Milli Təhlükəsizlik Nazirliyi Şuşa şəhər şöbəsinin o vaxtkı rəisi, indi Fövqəladə hallar nazirinin müavini olan, general Rəfail Mirzəyev də yaxından iştirak etmişdi.

Səkkiz il qondarma Dağlıq Qarabağ Respublikasının müdafiə naziri olmuş Samvel Babayanın 1991-ci ildə gizli həbs edilib Xankəndidən Bakıya gətirilməsi əməliyyatını da mən həyata keçirmişdim. 1990-1991-ci illərdə S.Babayan erməni yaraqlılarının partlayışlar törətmək üzrə qrupunun komandiri idi. Ona qarşı Xankəndi-Şuşa yolunu birləşdirən Ağa körpüsünü partlatmaq ittihamı irəli sürülmüş və axtarışa verilmişdi. Tərəfimizdən keçirilən əməliyyat tədbirləri nəticəsində S.Babayanı tutub

əvvəlcə Şuşa qalasına gətirdik. Şuşa qalasında o vaxt mənim rəhbərlik etdiyim əməliyyat qrupunun üzvü olan, Astara rayonunun indiki polis rəisi Adil Həsənov S.Babayanı dindirmişdi. İndiki kimi yadımdadır, dindirmədən sonra mənə məruzə edən A.Həsənov S.Babayanın "it qorxağı" olduğunu deyirdi. Dindirmədən sonra S.Babayanı Bakıya apardıq. Bir müddət keçmiş erməni separatçıları S.Babayanı azad etmək məqsədi ilə Azərbaycanın bir nəfər yüksək rütbəli vəzifə sahibini girov götürərək onunla dəyişməyə nail oldular. Əsirlikdən qayıdandan sonra S.Babayan Dağlıq Qarabağda daha da məşhurlaşdı və dediyim kimi, səkkiz il qondarma respublikanın müdafiə naziri oldu.

Möhtərəm oxucu!

Sizə danışdığım bu hadisələrlə bağlı indiyə kimi heç yerdə heç kimə bir kəlmə söhbət açmamışam. Hesab etmişəm ki, danışmağım qeyri-təvazökarlıq kimi anlaşıla bilər. Aradan uzun illər keçəndən sonra bu haqda sizlərə danışmağımın isə tək bir səbəbi var. Demək istədiyim odur ki, Dağlıq Qarabağda dəfələrlə ölümlə üz-üzə gələn bir insan kimi Ağdam Rayon İcra Hakimiyyətinin başçısı olduğum dövrdə şəhid ailələrinə və keçmiş döyüşçülərə həmişə xüsusi diqqət və qayğı ilə yanaşmışam. Buna qədər - 1992-2009-cu illərdə, əvvəldə də qeyd elədiyim kimi, beş rayonda polis şöbəsinin rəisi vəzifəsində işləmişəm, həmin müddətdə Qarabağdan olan vətəndaşlarımızın öz problemləri ilə bağlı müraciətlərinə heç vaxt biganə qalmamışam, bacardığım qədər hamıya əl tutmağa, köməklik göstərməyə çalışmışam.

Kitabın əvvəlində də demişdim, Ağdam rayonuna təyinat alarkən məni sevən insanların əsas tövsiyəsi yaxşı işləmək, ümidləri doğrultmaqla bağlı idi. Mən həmin insanları əmin edirdim ki, narahat olmasınlar, əgər respublikanın beş rayonda polis rəisi vəzifəsində işlədiyim müddətdə dost-tanışın, işlədiyim rayonların əhalisinin etimadını qazana bilmişdimsə, bu xətir-hörməti indi Ağdamda – öz doğma el-obamın camaatı arasında itirmək niyyətim yoxdur.

Müdrik insanlardan eşitdiklərimə, uzun illər əxz elədiyim həyat təcrübəsinə əsaslanıb deyə bilrəm ki, insanın həyatda uğur qazanması üçün

bir sıra zəruri şərtlər var. Fikrimcə, insan ilk növbədə Allaha təvəkkül etməlidir, insanın gördüyü iş Allaha xoş getməlidir. Yalnız bu zaman o, xeyir tapar, ziyana düşməz. İkincisi, insan bütün məsələlərə ağıl və zəka ilə yanaşmalı və unutmamalıdır ki, o, həyatda yalnız öz zəhməti hesabına nəyəsə nail ola bilər. Bunun üçün isə mütləq özünü dərk etməlisən. İnsanın özünü dərk etmədən xoşbəxt olması, ətrafında baş verənləri düzgün dəyərləndirib dürüst nəticə çıxarması mümkünsüzdür. İnsan özünə güvənməli, həyatda özünü təsdiqləməyi bacarmalıdır. İnsanın əlini ürəyinin üstünə qoyub "mən bu işi bacardım" deməyə haqqı çatmalıdır, bunun üçün isə onun başladığı işi axıra çatdırmağa təpəri, iradəsi, qabiliyyəti olmalıdır.

Əmək fəaliyyətinə başladığım gündən mənim bir dəyişməz prinsipim olub: kiçik, ya böyük fərqi yoxdur, sənə tapşırılan vəzifə əmanət kimidir və əmanətə heç bir halda xəyanət eləmək olmaz. Bugünə qədər bir çox məsul vəzifələrdə çalışmışam, amma heç zaman tutduğum vəzifəni itirməkdən çəkinməmişəm. Çəkindiyim, ehtiyat elədiyim tək şey etimad göstərib məni vəzifəyə təyin edən adamın bir gün mənə güvənini itirməsi təhlükəsi olub. Həmişə düşünmüşəm, məni hanısa vəzifəyə irəli çəkən şəxs bir gün çağırıb deyə bilər ki, axı, sənə güvənmişdim, inanmışdım, bəs nə üçün etimadı doğrultmadın, əmanətə xəyanət etdin? Bu duyğu həmişə qəlbimdə hakim olub və çalışmışam ki, öz işimlə mənə göstərilən etimadı doğruldum, əmanətə xəyanət etməyim.

Allahıma şükürlər olsun, fəaliyyət göstərdiyim bu illər ərzində bir dəfə də olsun, bu prinsipləri pozmadım. Şəxsi mənafeyimi heç vaxt ictimai mənafedən üstün tutmadım. Allahımın və mənə etimad göstərən rəhbərimin qarşısında üzüm həmişə ağ olub.

1974-cü ildə daxili işlər orqanlarında işə düzəltməkdə mənə kömək edən, çox böyük ehtiram bəslədiyim şəxsin bir tövsiyəsi indiyədək yadımdadır: çalış nəfsini həmişə tox tut, tamah sənə güc gəlsə, nə hörmətin olacaq, nə də çörəyin...

Möhtərəm oxucu, bir halda ki, fikirlərimizi səmimi şəkildə bölüşmək niyyəti ilə sizinlə üz-üzə oturmuşuq, onda bir nüansı da mütləq qeyd eləmyi özümə borc sayıram. Uzun illər yüksək vəzifələrdə işləmiş bir adam

əgər durub desə ki, mən mələyəm, pakam, işlədiyim müddətdə həmişə təmiz olmuşam, nə almışam, nə vermişəm, inanmayın, bilin ki, o adam riyakar və yalançıdır! Istər Sovet hakimiyyəti dövrü olsun, istərsə də indi, heç zaman ideal işləmək mümkün olmayıb və mümkün deyil. Lakin ədalətli və insaflı olmaq o gün də mümkün idi, bu gün də mümkündür.

Mən müstəqil həyata atılandan daima dürüst davranmağa, atdığım hər bir addımda kiməsə zərər vurmamağa, əksinə, insanlara bacardığım qədər yararlı olmağa, xeyirxahlıq eləməyə çalışmışam. İl üstünə il gəldikcə, həyat təcrübəm artdıqca seçdiyim bu həyat tərzinin doğruluğuna dəfələrlə əmin olmuşam. Təsəvvürünüzə gətirin, insan bütün ömrü boyu yalnız özü üçün, öz rifahı, rahat güzəranı üçün çalışır və bir gün hiss edir ki, o, ətrafdakıların gözündə gərəksiz ət parçasından, lazımsız varlıqdan başqa bir şey deyil, sən demə, indiyədək ömrünü səhv, yalnış yaşayıb - onda nə baş verər? Məncə, bu, bədbəxt bir varlığın faciəsi, məşəqqətli, miskin sonudur. Mənim həyat kredom həmişə bu olub: kim, nəçi olursan-ol, Ulu Yaradanın sənə bəxş elədiyi ömrü elə yaşa ki, öz əməllərinlə yaddaşlarda sözün müsbət mənasında iz buraxa biləsən, bacardığın qədər insanlara yaxşılıq eləyəsən. Amma elədiyin yaxşılığın müqabilində qarşındakından heç nə ummayasan. Təmənnasız yaxşılığın insana yaşatdığı zövqdən gözəl heç nə ola bilməz!

Hələ lap cavan yaşlarımdan Ağdamın adı gələndə həmişə ürəyim atlanıb. Ağdamı və ağdamlıları o qədər böyük hisslərlə sevmişəm ki, əlimə fürsət düşən kimi daima bu şansdan istifadə edib öz həmvətənlərimə kömək etmək istəmişəm.

2009-cu ildə mən Ağdama – Quzanlıya gələndə məcburi koçkünlər əsasən “Fin qəsəbəsi” deyilən ərazidə dəmir evlərdə yaşayırdılar. Qəsəbənin yerləşdiyi ərazi məkan baxımından həm əlverişli, həm də böyük idi, sahəsi təxminən 30 hektar olardı. Ayrı-ayrı vətəndaşlar bu ərazidən torpaq almaqdan ötrü dəridən-qabıqdan çıxır, hətta yer üçün böyük məbləğdə pul da təklif edirdilər. Adamlar var idi ki, bu ərazidə 10 sot torpağa sahib olmaq üçün xeyli vəsaitindən keçməyə hazır idilər. Mən bununla bağlı müxtəlif səviyyələrdən gələn bütün təklifləri rədd etdim, o

ərazidəki torpaqların satılmayacağını bildirdim. Məni bu qərara gəlməyə vadar edən birinci səbəb uzun illərdən bəri “Fin qəsəbəsi”ndə dəmir evlərdə yaşayan məcburi köçkün ailələrinin acınacaqlı həyat şəraiti idi. Onların mənzil şəraitini yaxşılaşdımaq üçün yollar axtarırdım. Bu məqsədlə “Dövlətqaçınkom”a müraciət edib bu ərazidə məcburi köçkünlər üçün qəsəbə salınması ilə bağlı təkliflərimi bildirdim. Təklifim müsbət qəbul edildi,  əvvəlcə İmişli rayonunda salınması nəzərdə tutulan qəsəbənin Quzanlıda inşa olunmasına qərar verildi. Beləliklə, 2010-cu ildə “Fin qəsəbəsi” deyilən ərazidə 689 ailəlik yeni qəsəbə salındı.

Məcburi köçkünlərin evlə təmin olunması prosesi bununla bitmədi. Quzanlı qəsəbəsində torpaq islahatı aparıldıqdan sonra yeni bir qəsəbənin salınması üçün əlavə 35 hektar torpaq sahəsi ayırmaq imkanı yarandı. Yenidən bununla bağlı “Dövlətqaçınkom”un rəhbərliyinə müraciət elədim və “Dörd yol” deyilən ərazidə uzun illər palçıq daxmalarda məskulaşmış məcburi köçkünlər üçün 700 ailəlik böyük bir qəsəbənin salınmasına nail oldum.  Nəhayət, 2014-cü ildə qəsəbədə tikinti işləri başa çatdı. Bu gün “Dörd yol” adlanan ərazidə palçıq daxmada yaşayan bir nəfər də köçkün ailəsi yoxdur.

Təxminən 1400 ailənin müasir tələblərə cavab verən mənzillərə köçürülməsinə, evlə təmin olunmasına yardımçı olduğuma görə bu gün özümü çox xoşbəxt sayıram.

***

Yadınızdadırsa, əvvəldə də demişdim, Ağdama gələndə ilk müşahidələrimdən biri bu idi ki, bu yerlərdə yaşayan insanlar, elə bil, təzə paltar geyinib harasa getməyi, hansısa mədəni tədbirə qatılmağı unutmuşdular. Həm də rayonda bunun üçün münasib məkan yox idi. Bir yandan da həyat şəraitinin doğurduğu çətinliklər əhalinin xarakterinə olduqca mənfi təsir göstərirdi. İnsanlar xaraktercə codlaşmışdılar. Gözümüzü açandan Ağdamda eşitdiyimiz “qurban olum”, “başına dönüm” sözlərini “səndən yazaram”, “səni məhv edərəm” sözləri əvəz eləmişdi.

Nəsə bir canlanma, gündəlik həyata qaynarlıq qata biləcək tərpəniş lazım idi. Bunun üçün mədəni-kütləvi tədbirlərə, belə tədbirlərin keçirilməsi üçün isə normal bir məkana ehtiyac vardı.

Gecə-gündüz ürəyimdə Allaha yalvarırdım ki, Quzanlıdakı Mədəniyyət Evini təmir etməkdə kimsə bizə köməklik göstərsin. Allah səsimi eşitdi. Çox keçmədi, bunun üçün vəsait ayrıldı və qısa müddətə Mədəniyyət Evini təmir edə bildik. Bundan əlavə, qəsəbədə böyük tikinti-abadlıq işləri gördük.

Mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün rayonda artıq hər cür şərait yaradılmışdı. Bircə qalırdı təşkilatçılıq işlərinə güc vermək.

2011-ci ildə həmyerlimiz, peşəkar boksçu Fariz Məmmədov 3-cü dəfə dünya çempionu titulunu qazandı. Həm də Fariz məhz erməni boksçunu məğlub etmişdi, rəqibini bir zərbə ilə qarşısında diz çökdürmüşdü. Farizin qələbəsinin rəmzi bir anlamı vardı: bu, bir növ bizim ermənilər üzərində mənəvi qələbəmiz kimi səslənər, insanlarda ruh yüksəkliyi yaradardı. Ağdam rayonunda böyük tədbir keçirmək üçün bu hadisə, elə bil, göydəndüşmə oldu.

Fariz Məmmədovla əlaqə yaradıb onu Quzanlı qəsəbəsinə qonaq dəvət elədim. Ağdamın giriş qapısından Quzanlıya qədər təxminən 4 kilometrlik məsafə vardı. Təsəvvür edin, F.Məmmədovu qarşılamağa çıxmış 10 min nəfərə qədər ağdamlı yol boyu düzülmüşdü. Onlar Farizin başına gül ləçəkləri səpirdilər. Möhtəşəm bir qələbəlik var idi.

Tədbiri Ağdam Olimpiya İdman Kompleksində keçirməyi qərara almışdıq. Bu kompleks 2008-ci ildə tikilib istifadəyə verilsə də, rayonun əvvəlki rəhbərliyi burada elə bir ciddi mədəni-kütləvi tədbir təşkil etməmişdi.

Tədbir başlayanda öncə F.Məmmədovun erməni boksçuya qalib gəldiyi döyüşün videoyazısı nümayiş olundu. Sonra mən çıxış elədim. Çıxışımda üzümü tədbir iştirakçılarına tutub dedim ki, əziz ağdamlılar, əgər bu gün F.Məmmədov erməni idmançını diz çökdürübsə, inşallah, tezliklə Azərbaycan Prezidenti də Ermənistan Prezidentini diz çökdürəcək.

Tədbir böyük ruh yüksəkliyi ilə başa çatdı. İnsanların sevincinin həddi-hüdudu yox idi. Sözün düzü, tədbirin belə möhtəşəm alınması məni çox sevindirdi...

... Quzanlı qəsəbəsində bundan daha izdihamlı tədbiri isə bir il sonra – 2012-ci il iyul ayının 23-də, Ağdam şəhərinin erməni qəsbkarları tərəfindən işğalının 20-ci ildönümü günü keçirdik. İşğala etiraz əlaməti olaraq Quzanlı qəsəbəsindən 4 kilometr məsafədə yerləşən Şəhidlər abidəsinə yürüş-mitinq təşkil etdik.

Yürüşdə təxminən 15 min nəfər iştirak edirdi. Bu 4 kilometrlik məsafə boyunca insan əlindən tərpənmək olmurdu, iynə atsan yerə düşməzdi. Şəhid ailələri, hərbçilər, müxtəlif peşə sahibləri yürüşdə çiyin-çiyinə addımlayırdılar. 15 min nəfər insanı bura bir amal toplamışdı – Vətənə, torpağa sonsuz məhəbbət, düşmənə sonsuz nifrət! İnsanların simasında bir qələbə əzmi var idi. Sanki bu kütlə axını inamlı addımlarla Böyük Ağdamımıza yürüş edir, işğalçı erməni qəsbkarlarının üzərinə gedirdi.

Tədbirdə müxtəlif kütləvi informasiya vasitələrinin nümayəndələri, o cümlədən Azərbaycanda akkreditə olunmuş xarici media təmsilçiləri də iştirak edirdilər...

***

2009-cu ilin oktyabr ayında Ağdam rayonunun Quzanlı, Əhmədağalı və Əfətli kəndlərini birləşdirən asfalt yolların əsaslı təmiri üçün Prezident cənab İlham Əliyevə müraciət etmişdim. 2011-ci ilin əvvəlləri idi. Prezident Administrasiyasının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri cənab Zeynal Nağdəliyev mənə zəng etdi, telefonda bildirdi ki, Quzanlı-Əhmədağalı-Əfətli asfalt yolunun əsaslı təmiri üçün lazım olan vəsait ayrılıb. Sonra Zeynal müəllim qəti şəkildə bildirdi ki, görülən işlər keyfiyyətli olmalıdır.

Elə həmin gün bələdiyyə sədrləri, icra nümayəndələri və müəssisə rəhbərlərinin iştirakı ilə toplantı keçirib məsələ barədə məlumat verdim,

yol tikintisinə nəzarəti icra hakimiyyəti başçısının birinci müavini Zülfü Qasımova həvalə elədim. Bu yerdə bir məsələyə toxunmağı özümə borc bilirəm. İşlədiyim 5 il ərzində ən çətin işləri həmişə Zülfü Qasımova tapşırardım. Amma bir dəfə də olsun, onun giley-güzar elədiyini, "bu işi bacarmaram" deyib yaxasını kənara çəkdiyini görmədim, dilindən "yoruldum" kəlməsini eşitmədim. Zülfü müəllim olduqca tələbkar və tamahsız işçi, qərəzsiz, vicdanlı insan idi. Acı, amma düz sözü insanların gözünün içinə, sanki heç nə olmayıbmış kimi, elə şəstlə deyirdi ki, bəzən özü üçün problem də yaradırdı.

Yolun əsaslı təmiri ilə bağlı bir sıra problemlər ortaya çıxdı. Layihədə yolların genişləndirilməsi məsələsi də nəzərdə tutulurdu deyə, bəzi vətəndaşların həyətyanı torpaq sahələrinin bir hissəsi plana düşürdü. Bir yandan da, pərakəndə və səliqəsiz şəkildə basdırılmış telefon və işıq dirəkləri işə maneçilk törədirdi.

Məsələnin müşavirədə müzakirəsi zamanı iştirakçıların qənaəti belə oldu ki, bütün problemlərin həlli mümkündür, yalnız həyətyanı torpaq sahəsi plana düşən vətəndaşı razı salmaq çətinlik yaradacaq. Ola bilsin, vətəndaş bu zaman hətta bizdən pul da tələb etsin. Amma, möhtərəm oxucu, sizi inandırım ki, 30 kilometrlik yol boyu onlarla vətəndaşın həyətyanı sahəsindən yol üçün istifadə olundu, amma bir nəfər də olsun həyətyanı torpağının yola qatılmasına görə bizdən nə pul istədi, nə də narazılığını bildirdi.

Yolun çəkilişi təxminən 5 ay çəkdi. Asfalt döşənən əraziyə hər gün 2-3 dəfə baş çəkirdim. Fəhlələr üçün ayrıca su maşını ayrılmışdı. Onların ərzaq təminatı ən yüksək səviyyədə həll olunurdu. Yol tikintisi başa çatana qədər hər həftənin bazar günləri tikintidə çalışan bütün fəhlə və mütəxəssisləri - təxminən 60-70 nəfəri "Balıqçılıq" deyilən ərazidəki bulaq başında yeməyə dəvət edirdim. Yol çəkən mütəxəssislər deyirdilər ki, 20 ildir, rayonlarda yol çəkirik, indiyə qədər hansısa icra başçısının heç üzünü də görməmişik.

2011-ci ilin noyabr ayında Quzanlı-Əhmədağalı-Əfətli yolunun əsaslı təmir işləri başa çatdı. Bu yol 35-40 il bundan əvvəl çəkilmiş ensiz bir yol idi, büsbütün dağılmışdı, heç kim bu kəndlərə gedib-gəlmək istəmirdi. Kəndlərin əhalisi ciddi əziyyət çəkirdi. Həm də düşmənlə təmas xəttində yaşayan əhali belə həlli çətin problemlərin aradan qaldırıldığını görəndə özünü o ərazilərdə müvəqqəti hesab etmir, torpağa daha çox bağlanır, sabaha böyük ümidlərlə baxır, əhval-ruhiyyəsi düzəlir, ən əsası, dövlətinin ona arxa durduğunu görüb təskinlik tapmış olur.

Əhval-ruhiyyə demişkən, islam dininin bilicisi kimi tanıdığım mötəbər insan Şeyx Məhəmmədin bu barədə fikirlərini xatırladım.

Masallı rayonunda polis rəisi işlədiyim vaxtlar idi. Eşitmişdim ki, Cəlilabad rayonunda Şeyx Məhəmməd adlı bir nəfər din xadimi yaşayır. Bir neçə dəfə ayrı-ayrı məclislərdə onun müdrik, ibrətamiz söhbətlərini dinləmiş, qəlbimdə ona qarşı xüsusi bir rəğbət yaranmışdı. Ona görə də tez-tez onu Masallıya, evimə qonaq dəvət edir, gecənin yarısına qədər maraqlı söhbətlərinə qulaq asmaqdan doymurdum.

Bəzi din xadimlərindən fərqli olaraq, Şeyx Məhəmməd İslam dininə dünyəvi prizmadan yanaşırdı. Bir gün söhbət əsnasında dedi ki, insanın yeganə qiymətli və dəyərli sərvəti onun ruhudur. İnsanın cismi heç nəyə yaramır, dünyasını dəyişən kimi hamı tezcə ölünün cəsədini torpağa tapşırmağa tələsir. İnsan cisminin bir qara qəpik qiyməti yoxdur. İnsanı idarə edən, şərəfləndirən onun ruhudur. Allah ruhumuzu salamat eləsin.

Əvvəldə də dediyim kimi, mənim Ağdamda fəaliyyətə başlayanda keçirdiyim ilk müşavirədə əhalinin əhval-ruhiyyəsinin yüksəldilməsi üçün konkret tədbirlər həyata keçirilməsinin zəruriliyi ilə bağlı dediklərim təsadüfi deyildi. İlk müşahidələrimdən hiss eləmişdim ki, insanlar öz taleyinə sanki biganələşiblər. Ətrafda baş verənlərə laqeydlik, pessimizm, ruh düşkünlüyü  olan yerdə irəli getmək, inkişafa nail olmaq mümkünsüz

idi. Ona görə də bu istiqamətdə ardıcıl olaraq konkret iş aparmaqla qısa müddətdə əməli nəticələrə nail ola bildik. Artıq insanlar sabaha böyük ümidlərlə baxır, çalışır, özünü torpağının, yurd-yuvasının əsil sahibi kimi hiss edirdi.

2011-ci ilin avqust ayı idi. Azərbaycanın işğal altındakı Xankəndi şəhərində yaşayan 13 yaşlı erməni qızı Adelina Avaqimyan Azərbaycan Prezidenti cənab İlham Əliyevə məktub yazmışdı və o məktub mətbuat vasitəsi ilə yayılmışdı. 13 yaşlı qız öz məktubunda ermənilərin Stepanakert adlandırdığı Xankəndi şəhərində doğulduğunu, Qarabağı çox sevdiyini qeyd edir, hər dəfə televiziyaya baxarkən İlham Əliyevin Qarabağdan danışan gördüyünü bildirir və Qarabağın Azərbaycanın nəyinə lazım olduğunu soruşurdu. Atasının Qarabağ müharibəsi iştirakçısı olduğunu deyən 13 yaşlı erməni qızı müharibə istəmədiyini, amma müharibə başlayacağı təqdirdə valideynlərinə kömək edəcəyini, Qarabağın Azərbaycana məxsus olmadığını yazırdı.

Erməni məktəblinin məktubunun yayılmasından bir neçə gün keçmişdi. Xəbər aldım ki, Ağdam rayonundakı köçkün məktəblərindən birinin şagirdi  erməni məktəblisinə cavab məktubu yazıb. Məktubu əldə edib oxudum. 137 saylı köçkün orta məktəbinin XI sinif şagirdi Səyyad İsmayılzadənin məktubu ilə tanış olanda Vətənini, ana yurdunu böyük bir məhəbbətlə sevən bir yeniyetmədəki bu təpəri görüb bərk duyğulanmışdım. Həm də Vətən sevdalısı olan XI sinif şagirdinin, torpağının, el-obasının təəssübünü çəkən bir yeniyetmənin bu addımı məni əməlli-başlı qürurlandırmışdı. Çox sevinirdim. Sevinirdim ki, torpağımın, el-obamın insanları daha heç nəyə biganə yanaşmırlar, Vətənin və həm də özlərinin taleyinə laqeyd münasibət göstərmirlər, artıq onlarda sabaha inam var, böyük ruh yüksəkliyi var.  Və bir də ona sevinirdim ki, zəhmətimiz hədər getməyib, istəyimizə nail ola bilmişik.

Möhtərəm oxucu, XI sinif şagirdi Səyyad İsmayılzadənin erməni məktəblisinə yazdığı və bu günə qədər arxivimdə saxladığım o məktubu Sizə təqdim edirəm:

“Salam, Adelina!

Sənin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə yazdığın məktubu mən də oxudum. Mən bir qarabağlı oğlanam. Bu məktubu yazdıranlar yəqin sənə deməyiblər ki, vaxtı ilə bizim babalarımız sizlərə yer verib, məskən salmağa köməklik ediblər. Siz isə bu yerləri bu gün özünüz bildiyiniz kimi adlandırırsınız.

Səni qınamıram, nənələrinizin danışdığı nağıllarda sizə vətəni sevməyi deyil, özgə torpaqlarında məskən salmağı öyrədiblər. Sən də bu ruhda tərbiyə alıb böyümüsən. Bunun üçün də səni yox, sənin təmiz qəlbini siyasətə qatıb kirlədənləri qınayıram. İnanma onlara. Axı, bizim öz uşaq dünyamız var. Qoyma kirlətsinlər o dünyanı.

Mən sənə bu məktubu hansı hisslərlə yazdığımı kaş biləydin. Əlindən tutub Vətənimi gəzərdik, ata-babalarımdan yadigar qalmış yerləri sənə göstərərdim və sübut edərdim ki, bu gün o yerlərdə yaşamasam da, əslində, Qarabağ mənim Vətənimdir. Əgər yazdıqlarıma inanmırsansa:

Ağdamın havasını içinə çək, uda bilməzsən, sənin deyil!

Şuşanın Turş suyunu iç, içə bilməzsən, sənin deyil!

Cıdır düzünün gülünü dərib qoxla, duya bilməzsən, sənin deyil!

Ancaq mən oralardan uzaq olsam da, hiss edirəm o gözəllikləri. Çünki onlar bir bulaq olub sanki mənim damarlarımdan axır.

Sənin məktubun 13 yaşlı uşağın yazdığı məktu ba oxşamır. Mən isə hamıdan xəlvət bir küncə çəkilərək yazıram bu məktubu. Sən mənim Vətənim haqqında fikirləşmək belə istəmirsən. Təbiidir, axı, oralar da sənin deyil, mənimdir. Prezidentimizə müraciət edərək deyirsən ki, o silaha

verdiyin pulları qaçqınlara xərclə. Bəs niyə fikirləşmirsən ki, bu insanlar niyə qaçqındırlar? Əgər bilmirsənsə, ata-anandan soruş, gör o insanlar nə üçün qaçqın düşüblər? Bax mən də həmin qaçqınlardan biriyəm.

Sən gözəl bir evdə dünyaya göz açmısan, amma mən çadır düşərgəsində. Sən təmiz məhlədə oynayıb böyümüsən, mənsə palçığın içində. Sən yalandan da olsa öz vətənindəsən, amma mən hələ də burada qaçqın, ya da köçkün adlanıram, Vətənimdə vətənsizəm. Heç nə demirəm, kaş bircə il mənim kimi çadırda yaşayaydın! Onda ulduzlara yox, insana yardım verən xaricilərlə danışardın (amma deyəsən, siz ermənilər həmişə yardımla yaşayırsınız).

Mənim adım Səyyad, soyadım isə İsmayılzadədir. O danışdığın, baxaraq sevdiyin ulduz mənəm. Görürsənmi heç oraların ulduzları da sənin deyil. Vətənimdə məni vətənsiz qoyduğunuz üçün sevinmə. Mən hər səhər yenidən doğuluram öz vətənimdə bir ulduz kimi. Görürsən nə qədər ucayam, əlçatmazam? Uşaq qəlbi təmiz, uca və parlaq olmalıdır. Yalvarıram sənə, o təmiz uşaq qəlbini daşnak, separatçı, işğalçı fikirlərlə doldurma! Gəl, heç olmasa biz doğru yol tapaq. Mən və mənim timsalımda minlərlə qaçqın uşaqlarının da öz yurd-yuvalarında oynamalarını arzu edək! O zaman mən də sənin kimi öz torpağımda ulduzlara baxardım.

Sağ ol. İnşallah Qarabağda görüşərik!

Səyyad İSMAYILZADƏ,

Ağdam rayonu 137 saylı köçkün orta məktəbinin XI sinif şagirdi”.

Bəli, mənə həmişə elə gəlib ki, insanda ruh yüksəkliyi olsa, o, həyatındakı bütün çətinliklərə qalib gələ, qarşısına qoyduğu məqsədə nail ola bilər.

***

Rayona yeni təyin olunmuşdum. Ağdam Rayon Səhiyyə Şöbəsinin iş şəraiti ilə tanış olanda acınacaqlı durumla üzləşdim. 2260 nəfər əməkdaşı olan Səhiyyə şöbəsi Quzanlıdakı kənd orta məktəbinin inzibati binasında yerləşirdi. Əməliyyat otağının şəraiti bərbad halda idi. Xəstəxananın həyəti ayrı-ayrı vətəndaşlara paylanmışdı. Gündüz saat 12-dən sonra şöbədə, ümumiyyətlə, tibbi personaldan kimisə tapmaq mümkün deyidi. Uzun sözün qısası, buradakı durumu ağlamağa iki göz gərək idi.

Öyrəndim ki, əslində, pulsuz verilməli olan dərman və sarğı materiallarını əhaliyə satırlar. Dövlətin vətəndaşlara pulsuz tibbi xidmət göstərdiyindən əhali yerli-dibli bixəbərdir.

Dəhşətə gəlmişdim. Deməк, neçə illərdən bəri Ağdam kimi bir rayonun səhiyyə şöbəsi şəraitsiz kənd məktəbində fəaliyyət göstərib, dərman və sarğı materialları çatışmayıb, amma bu, rayon rəhbərliyini qəti narahat etməyib, vəziyyətin düzəlməsi istiqamətində heç bir addım atılmayıb. Bu zaman Ağdam əhalisi tibb işçilərindən, rayon rəhbərliyindən necə razı qala bilərdi ki?

Səhiyyə naziri Ağdam Rayon Səhiyyə Şöbəsinin işindən narazı qaldığından Baş həkimi vəzifəsindən azad etdi. Mənim təqdimatıma əsasən, 2009-cu ildə Baş həkim vəzifəsinə Gülnar xanım Abbasova təyin olundu. Gülnar Abbasova 1957-ci ildə Ağdam şəhərində dünyaya gəlmişdi, orta məktəbi Ağdam şəhərində bitirmişdi. Həssas, qayğıkeş və şəfqətli bir insan olan Gülnar xanım öz peşəsinin vurğunu idi. O, fədakarlığı ilə başqalarından seçilir, xəstələrlə xoş rəftar etməyi bacarırdı, verilən tapşırıqları qısa zamanda, böyük məsuliyyətlə yerinə yetirməyə səy göstərirdi. Ağdamda səhiyyənin son illərdəki inkişafında onun xüsusi xidmətləri oldu. Baş həkim rayonun ictimai işlərində də fəallığı ilə seçilirdi. Xeyirxahlıq bu xanımın həyat amalına çevrilmişdi. Elə bayram, el şənliyi olmurdu ki, Gülnar xanım səngərdəki əsgərlərə sovqat göndərməsin.

Baş həkimdən birinci tələbim bu oldu ki, tibbi personalın iş rejimində ciddi nizam-intizam yaradılmalı, müraiət edənlərə qağyı və diqqətlə yanaşılmalı, əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi yüksəldilməlidir. Vətəndaşlar tibb işçilərindən şikayətçi olsalar, məsələni şəxsən özüm araşdıracağımı bildirdim. Rayonda səhiyyə şöbəsinin işinə nəzarəti gücləndirmək məqsədilə Bəhram Qurbanov adlı çox savadlı bir nəfəri rayon icra hakimiyyətinə həkim-mütəxəssis vəzifəsinə təyin etdim.

Qısa vaxtda səhiyyə şöbəsinin həyətindəki qanunsuz tikililərin sökülməsinə və xəstəxananın hərtərəfli hasara alınmasına nail oldum. Bir qədər əvvəldə qeyd etdiyim kimi, çətinliklə də olsa, əlavə vəsait tapıb rayon Mərkəzi Xəstəxanasının əsas binasını təhvil verdik. Xəstəxananın həyətində fəvvarəli çarhovuz inşa etdirib həyətdə səliqə-sahman yaratdıq. Xəstəxananın həyətindəki bu səliqə göz oxşayırdı. Əgər əvvəllər xəstəxananın qarşısından yük avtomobili güc-bəla ilə keçə bilirdisə, artıq ətrafda genişlik yaradılmışdı, ərazi gül-çiçəyə qərq olmuşdu.

2011-ci ildən başlayaraq, Ağdamdan kənarda yaşayan vətəndaşlarımızın müayinə olunması məqsədi ilə rayon səhiyyə şöbəsinin həkimləri başqa rayonlara səyyar səfərlər təşkil etməyə başladılar.

Köçkün qəsəbələrində elə ailələr vardı, maddi çətinlik ucbatından 13-14 yaşlı oğlan uşaqlarını sünnət elətdirə bilmirdilər. Bu problemin həllini rayon icra hakimiyyəti öz üzərinə götürdü və 5 ildə yüzlərlə uşaq sünnət edildi.

2012-ci ildə rayon Mərkəzi xəstəxanasının əvvəllər yerləşdiyi binanı təmir etdirib rayon poliklinikasını həmin yerə köçürdük.

2009-2014-cü illərdə Ağdam rayonunda 6 xəstəxana inşa etdirməyə nail olduq. Rayon Mərkəzi Xəstəxanası, Doğum Evi və Uşaq Xəstəxanası Prezident cənab İlham Əliyevin sərəncamı ilə ayrılmış vəsait hesabına tikilərək istifadəyə verildi. Təcili tibbi yardım stansiyasının, vərəm və əsəb dispanserlərinin binalarını isə daxili imkanlar hesabına inşa etdirdik. Əlavə

olaraq, bir neçə kənd və qəsəbədə kiçik tibb məntəqələri də tikdirdik. Bütün xəstəxanalarda ehtiyat elektrik enerjisi əldə etmək üçün xüsusi stansiyalar inşa olundu. Qeyd edim ki, Təcili Tibbi Yardım Stansiyası uzun illər ərzində - 2010-cu ilə kimi şəxsi evdə yerləşirdi.

Rayonun səhiyyə sistemində apardığımız islahatlar, çox keçmədi, öz müsbət nəticələrini verməyə başladı. Bir neçə faktı deyim: əgər 2009-cu ilin yekunu üzrə Ağdam rayon Mərkəzi Xəstəxanasında əməliyyat olunan xəstələrin sayı 120 nəfər olmuşdursa, 2013-cü ilin yekununda bu rəqəm artıq 1250 nəfəri keçmişdi. Əgər rayon üzrə dərman preparatlarına ayrılan vəsait 2009-cu ildə 153 min manat idisə, sonra bu rəqəm 500 min manata qədər artmışdı. 2013-cü ildən etibarən diabetli xəstələrin hamısı pulsuz dərmanla təchiz edilirdi.

Baxanda bizim qısa zamanda gördüyümüz bu işlər bəlkə də, bir müddət əvvəl kiməsə xülya kimi görünə bilərdi, amma bu, əsil həqiqət idi.

Ağdam rayon Mərkəzi Xəstəxanasında, Doğum Evində, Uşaq Xəstəxanasında olan təmizliyi, səliqə-sahmanı, nizam-intizamı, eləcə də müasir aparatları, tibbi avadanlıqlarını və ləvazimatları, uniformalı tibb işçilərini görəndə, sözün əsil mənasında, insan bir rahatlıq tapırdı. Bu müəssisələrdəki şərait bu gün paytaxtda fəaliyyət göstərən özəl xəstəxanalardan, tibb ocaqlarından heç də geri qalmırdı. Bu işlərin arxasında çox böyük zəhmət, işgüzarlıq, işə məsuliyyət hissi və tələbkarlıq dururdu. Gülərüz tibb işçiləri, bacarıqlı və qayğıkeş həkimlər hər an öz işlərinin başında idilər. Gecənin hansı saatında olur-olsun, onlar xəstələrə böyük məsuliyyətlə xidmət göstərirdilər. Ona görə də hətta ətraf rayonlardan da bir çox xəstələr məhz Ağdam xəstəxanalarına müraciət edirdilər.

Kim nə deyir-desin, dünya fədakar, xeyirxah insanlardan heç vaxt xali olmayıb. Son dövrlər xeyirxah, əməlləri ilə örnək olan insanların sayı azalsa da, şükürlər olsun ki, kökü hələ kəsilməyib. 2010-cu il idi. Bakı şəhərində yaşayıb işləyən, əslən Ağdam rayonundan olan Ələkbər adlı bir

nəfər cərrahla tanış olduq. Söhbət zamanı Ələkbər həkimin fədakar, xeyirxah bir insan olduğunu müşahidə elədim. Ələkbər həkim hər həftənin şənbə və bazar günləri Quzanlı qəsəbəsindəki xəstəxanada ehtiyacı olan xəstələri təmənnasız cərrahi əməliyyat etmək istədiyini bildirdi. Sonra sözünün üstündə durdu və beləcə, yüzlərlə insana şəfa verdi. Mən bu xeyirxah və nəcib əməlinə görə Ələkbər həkimin qarşısında baş əyirəm.

Rayonun Baş həkimi Gülnarə xanıma tövsiyə eləmişdim ki, qeyri-hökümət təşkilatları ilə əlaqələri möhkəmləndirsin, onlarla rayona dərman preparatlarının və sarğı materiallarının gətirilməsi ilə bağlı danışıqlar aparsın, əhaliyə tibbi xidmət göstərmək üçün Bakı şəhərindən xüsusi briqadalar dəvət olunsun. Mehriban və nəcib insan olan Baş həkim bu işin öhdəsindən layiqincə gəlirdi.

Çox qısa vaxt ərzində rayonun səhiyyə sektorunda islahatlar o həddə çatmışdı ki, Ağdamın səhiyyə işçiləri ətraf rayondakı köçkünlərimizə də xidmət göstərməyə başlamışdılar.

Xəstəxanaların həyəti gül-çiçəkli, gözəl bir parkı xatırladırdı. Hər yan yamyaşıl bəzək ağacları ilə əhatə olunmuşdu. Həyətində səliqəli oturacaqlar qoyulmuş, yerlərə daş plitələr döşənmişdi. Həyətdəki yaşıl qazonlar göz oxşayırdı. Əhalinin sağlam yaşaması və rifahı, körpələrin gözəl gələcəyi üçün əlimizdən nə gəlirdisə, eləməyə çalışmışdıq.

***

1993-cü ildə Ağdam rayonu ərazisinin 70 faizinin işğala məruz qalması istər-istəməz rayonun təhsil sisteminə də böyük zərbə vurmuşdu. Rayonun, demək olar, bütün pedaqoji heyəti, şagirdlər pərən-pərən düşmüşdü, insanlar ancaq sağ qalmaq uğrunda mübarizə aparırdılar.

İnzibati binası olmadığından Ağdam rayon Təhsil şöbəsi 2009-cu ilə kimi 9 dəfə yer dəyişdirmək məcburiyyətində qalmışdı. Şöbə şəxsi evlərdə yerləşdiyi üçün kirayə haqqı ödəyirdi. Məktəblərin çoxu heç bir şəraiti olmayan binalarda yerləşirdi.

Təshil şöbəsinin müdiri Elmira xanım Şükürova (hazırda Kəlbəcər rayon Təhsil şöbəsinə rəhbərlik edir) öz işini mükəmməl bilən, qeyrətli, cəsarətli, çətinliklərdən qorxmayan, rayonda böyük hörmət sahibi olan qadın idi. Ağdam rayonunun 145 məktəbinin yarısından çoxu Azərbaycanın müxtəlif şəhər və rayonlarında fəaliyyət göstərirdi. Təkcə Bakı şəhərində Ağdamın 23 köçkün məktəbi var idi. Belə bir vəziyyətdə mənim üzərimə çox böyük məsuliyyət düşürdü.

Mənim ikinci ixtisasım tarix müəllimidir. Nəsirəddin Tusi adına Azərbaycan Pedaqoji Universitetinin tarix fakültəsini bitirmişəm. Cavan vaxtlarımda Ağdam Kənd Təsərrüfatı Texnikumunda müəllim işləmişəm. Yəni demək istəyirəm ki, təhsil sahəsinə azdan-çoxdan bələdçiliyim var.

Ağdam rayonunda işə başlayanda, ilk olaraq, Elmira xanımla düz 3 saat ərzində təhsilin vəziyyətini müzakirə etdik. Rayon təhsil sisteminin durumu haqqında ətraflı məlumat alandan sonra təhsilin inkişaf etdirilməsi məqsədilə görəcəyim işlər barədə planlarımı açıqladım.

Birinci növbədə, təhsil sahəsində neqativ hallara son qoyulması, şagirdlərin sayı az olan məktəblərin bağlanması, tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı təklif və fikirlərimi dedim, məktəblərdə şagirdlərin dərsə davamiyyətinin yaxşılaşdırılması istiqamətində ciddi tədbirlər görülməsinin vacibliyini bildirdim.

Məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması, yeni məktəblərin tikintisi, təmirə ehtiyacı olan məktəblərin təmir olunması kimi işləri öz öhdəmə götürdüm.

Müəllimlərin 2009-cu ilin sentyabr ayında keçirilən konfransında çıxış edərək Ağdam rayonunda təhsilin inkişaf perspektivləri barəsində mülahizələrimi tədbir iştirakçıları ilə bölüşdüm. Rayon əhalisinin əhval-ruhiyyəsini yüksəltmək məqsədilə Ağdam müəllimlərinin, Ağdam məktəblərinin yetişdirdiyi Xudu Məmmədov, Adilə Namazova kimi görkəmli ziyalıları xatırladım.

2009-cu ilin sonunda Ağdam rayon Təhsil şöbəsi üçün müasir üslubda inzibati binanın təməlini qoyduq. Bir neçə ay sonra - 2010-cu ilin birinci yarısında tikinti işləri başa çatdırıldı və bina istifadəyə verildi. Bu məqsədlə keçirilən təntənəli mərasimdə çoxdan tanıdığım bir müəllim mənə yaxınlaşdı:

- Cənab başçı, - dedi, - bəs binanı tikməyə pulu hardan aldınız, axı, deyirdilər ki, pul yoxdur?

Mehribanlıqla gülümsəyərək belə cavab verdim:

- Əsas məsələ istəkdir, insanda istək varsa, hər işə nail olmaq mümkündür.

Bir qədər əvvələ qayıdım... Hələ 2009-cu ilin oktyabr ayında mənə məlumat verildi ki, Quzanlı qəsəbəsinin icra nümayəndəsi iki ay əvvəl rayon icra hakimiyyətinə məktub yazıb, qəsəbədəki uşaq bağçasının fəaliyyətini dayandırmaq istəyir. O vaxtlar uşaq bağçalarını kənd və qəsəbələrin icra nümayəndəlikləri maliyyələşdirirdi.

Səbəbini soruşanda məlum oldu ki, sən demə, bir nəfər imtiyaz sahibinin uşaq bağçası yerləşən binanın tavanındakı beton plitələrə gözü düşübmüş. Qəsəbədə bağçanın fəaliyyətini də ona görə dayandırmaq istəyirmişlər ki, binanı söküb tikinti materiallarını pay-püş eləsinlər. Uşaq bağçasında işləyən 20 nəfər işçinin ailəsinin taleyi isə heç kimi maraqlandırmırdı. Qəsəbənin uşaq bağçasız, uşaqların qayğısız qalacağı bu adamların vecinə də deyilmış.

Təcili olaraq Quzanlı qəsəbə nümayəndəsini yanıma dəvət elədim, uşaq bağçasının ləğv olunması planı barədə məlumat istədim. İcra nümayəndəsi yaşlı, fağır bir adam idi. Sözün açığı, özümdə deyildim, bu xəbər məni bərk əsəbiləşdirmişdi. Qəsəbə nümayəndəsi vəziyyətimi görüb hər şeyi boynuna aldı, məsələni olduğu kimi danışdı. Elə oradaca ərizəsini alıb icra nümayəndəsini vəzifəsindən azad etdim.

Uşaq bağçasının müdiri Xanım müəllimə təcrübəli, abırlı-ismətli bir qadın idi. Bağçada bir müddət hərbçilər yaşamışdılar, bina tam yararsız vəziyyətə düşmüş, həyəti qonşu tərəfindən zəbt olunmuşdu. Gücümüzü səfərbər edib təxminən 3 ay çalışdıq, daxili imkanlar hesabına uşaq bağçasında təmir işləri apardıq. 2011-ci ildə daxili işlər naziri, general-polkovnik cənab Ramil Usubov bağçanın yenidən qurulmasına yaxından köməklik göstərdi.

Uşaq bağçasının sökülüb tar-mar edilməsinə yol verə bilməzdim. Bu addımımla həm bədxahlara, həm də xeyirxahlara çatdırmaq istəyirdim ki, rayon rəhbəri kimi heç kəsin pis əməlinə göz yummayacağam.

...Hər həftənin ikinci günləri rayon icra hakimiyyətində idarə-müəssisə rəhbərləri, yerli icra hakimiyyəti nümayəndələri və bələdiyyə sədrlərinin iştirakı ilə vətəndaşların qəbulunu keçirirdim. Qəbul günlərindən birində İmamqulubəyli kəndindən bir vətəndaş bildirdi ki, qonşu onun su kanalını bağlayıb deyə, həyətyanı sahəsini suvara bilmir. Rayona gələndə qayda qoymuşdum, hər bir vətəndaş qəbula yaşadığı kənd və qəsəbənin icra nümayəndəsi ilə birlikdə gəlməli idi. Vətəndaşdan bu problemlə bağlı icra nümayəndəsinə məlumat verib-vermədiyini soruşanda bildirdi ki, icra nümayəndəsinə desə də, həm o, məsələyə səhlənkar yanaşıb, həm də qonşu onu eşitmək istəməyib.

Elə qəbuldaca icra nümayəndəsinə dedim ki, yaxşı olar, özünə başqa iş axtarsın.

Səbəbini soruşanda cavab verdim ki:

- İki səbəbə görə. Birinci səbəb odur ki, kənddə sizin nüfuzun yoxdur, sözünüz keçmir, sizin xahişinizlə qonşu qonşuya heç su da vermir. Deməli, sadə bir məsələni həll edə bilmirsinizsə, mürəkkəb məsələdə aciz qalacaqsınız. İkinci səbəb də odur ki, siz öz işinizə səhlənkar münasibət bəsləyirsiniz. İdarəçilik sistemində çox vacib olan bu şərtlər sizdə çatışmadığına görə tutduğunuz vəzifənizdən azad edilirsiniz.

Növbəti müşavirələrin birində həm Quzanlı qəsəbəsindəki uşaq bağçası, həm də bu məsələ barədə geniş müzakirə aparıldı. Hər iki hadisəni müşavirədə müzakirəyə çıxarmaqla rəhbər işçilərə çatdırmaq istəyirdim ki, onlar daima vətəndaşların müraciətlərinə həssas yanaşsınlar, öz nəfslərinə hakim olsunlar.

Hiss edirdim ki, rayon icra hakimiyyətinin təhsil sektoruna diqqəti artırması rəğbətlə qarşılanır, insanların əhval-ruhiyyəsi yüksəlir. Elə müəllimlər, şagirdlər arasında da böyük ruh yüksəkliyi yaranırdı. Əvvəllər məktəbə nimdaş paltarda gələn müəllim və şagirdlər sanki bir-birlinin bəhsinə daha gözəl və səliqəli görünməyə çalışırdılar. Qısa müddətdə məktəblilərin təxminən 90 faizi dərsə yeni məktəbli formasında gəlməyə başladı.

Qabaqlar bəzi məktəblərdə müəllimlərin dərsə hazırlıqsız gəlmələrini, bəzən də, ümumiyyətlə, gəlməmələrini eşitdiyimdən, öncədən xəbərdarlıq etmədən qəfil məktəblərə gedir, müəllimdən icazə alıb dərslərdə iştirak edirdim. Müşahidə etdiyim nöqsanları Təhsil şöbəsinin müdiri ilə bərabər müzakirə edir, çatışmazlıqları aradan qaldırmağın yollarını araşdırırdıq. Ağdam Rayon İcra Hakimiyyətinin, Təhsil şöbəsinin rəhbər işçilərinin, digər əməkdaşlarının iştirakı ilə açıq dərslər keçirilməsi adi hal almışdı. Mən özüm də rayon orta məktəblərində keçirilən bir neçə açıq dərsdə iştirak etmişdim.

Həmişə fikirləşirdim ki, Ağdam rayonunun inkişafı ancaq təhsilə göstərilən qayğıdan asılı ola bilər. Yüksək bal toplayıb ali məktəbə daxil olan tələbələr və onların müəllimlərinin iştirakı ilə hər il rayonda müşavirə keçirilir, onlara pul mükafatı verilir, tələbələr ilboyu təqaüdlə təmin edilirdilər. Məktəb direktorlarının işinə o məktəbi bitirən məzunlardan neçə nəfərin ali məktəbə qəbul olunması ilə qiymət verirdim. Rayonda sanki yaxşı oxumaq, ali məktəbə daxil olmaq uğrunda bəhs, yarış gedirdi. 2009-cu ilin yekunu üzrə Ağdam rayon orta məktəblərini bitirən şagirdlərdən

cəmi 120 nəfəri ali məktəbə daxil olduğu halda, 2013-cü ildə bu rəqəm 500-ü keçmişdi.

2010-2014-cü illərdə bilavasitə mənim təşəbbüsümlə Ağdam rayonunda 7 kənd orta məktəbi və bir musiqi məktəbi inşa edilmişdi.

Həmin məktəblər bunlardır:

- 180 yerlik Baharlı kənd orta məktəbi
- 180 yerlik Səfərli kənd orta məktəbi
- 180 yerlik II Baharlı kənd orta məktəbi
- 120 yerlik Həsanxanlı kənd orta məktəbi
- 120 yerlik Hacıməmədli kənd orta məktəbi
- 360 yerlik Əfətli kənd orta məktəbi
- 440 yerlik 18 saylı Quzanlı kənd orta məktəbi
- Xındırıstan Musiqi məktəbi

Bundan əlavə, 5 kənd orta məktəbini və 2 uşaq bağçasını əsaslı təmir etdirib, bütün inventarları ilə bərabər yeniləşdirmişdik:

- 440 yerlik Çəmənli kənd orta məktəbi
- 440 yerlik Hacıturanlı kənd orta məktəbi
- 440 yerlik Əhmədağalı kənd orta məktəbi
- 440 yerlik Qaradağlı kənd orta məktəbi
- 300 yerlik Alıbəyli kənd orta məktəbi
- 140 yerlik Quzanlı kənd bağçası
- 140 yerlikQuzbaşılı kənd bağçası

Yeni tikilmiş bu məktəblər öz xarici görünüşü, sinif otaqları, fənn kabinetləri, foyesi, idman zalları ilə bu gün paytaxtda fəaliyyət göstərən məktəblərdən heç də geri qalmır, müasir tələblərə tam cavab verirdi. Məktəblər tədris üçün zəruri olan bütün növ avadanlıqlarla və kompüter sistemi ilə təchiz olunmuşdu.

***

Torpaqlarımızın işğalı insanların daxili aləmini, mənəvi dünyasını da alt-üst eləmişdi, illah da məcburi köçkün taleyi yaşayanların içindəki ruh düşkünlüyü, pessimizm çöhrələrindən də açıq-aydın sezilirdi. Elə bil bu insanların qismətinə ancaq dərd çəkmək yazılmışdı, nə teatr, konsert, nə də istirahət yada düşürdü.

İtkilər nə qədər ağır və ağrılı olsa da, düşünürəm ki, Ağdamın işğalından keçən 16 il ərzində əhalinin əhval-ruhiyyəsinin dirçəldilməsi, mənəvi-psixolji vəziyyətinin yaxşılaşdırılması üçün nəsə iş görmək mümkün idi. Hesab edirəm ki, mədəniyyət, sənət, musiqi olmadan hansısa tərəqqidən söhbət gedə bilməz. Bir yandan da, bəşər sivilizasiyasının neçə minillik tarixini yada salıb nəzərə alsaq ki, mədəniyyətin, sənətin inkişafı həm də ağrılı-acılı insanların sarsılmış ruhuna, zədələnmiş mənəviyyatına məlhəm ola, sabaha ümidinin yenidən pərvazlanmasına stimul verə bilər, onda böyük bir sahənin diqqətdən kənar qalmasının yaratdığı fəsadların miqyasını təsəvvürə gətirmək çətin olmaz. Amma, əfsus ki, Ağdam rayonunun əvvəlki rəhbərliyi bu məsələlərə laqeyd yanaşmış, mədəniyyət sahəsinə qətiyyən diqqət yetirməmişdi.

Ağdam rayon Mədəniyyət şöbəsində vəziyyət təhsil və səhiyyə söbələri ilə müqayisədə daha da acınacaqlı idi. Quzanlı qəsəbəsindəki və kəndlərdəki mədəniyyət evlərinin əksəriyyətinin binalarından atəşkəsə qədər hərbi məqsədlər üçün istifadə edilmişdi, heç döşəmələri, qapı-pəncərələri də yox idi. Ağdam Dövlət Dram Teatrı fəaliyyətini məlum hadisələrə görə 1990-cı ildən tamamilə dayandırmağa məcbur olmuşdu. Əvvəllər inkişaf etmiş başqa sahələr kimi mədəniyyət sahəsində də işğaldan sonra tənəzzül yaşanırdı.

İlk təəssüratım belə idi ki, hər şeyi sıfırdan başlamaq lazım gələcək. Lakin çox keçmədi, yanıldığımı gördüm. Rayona gəldiyim 3-4 ay olardı, Əfətli kənd Musiqi məktəbinin müdiri məktəbin təmiri ilə əlaqədar mənə müraciət etdi. Söz verdim ki, gəlib məktəbə baxandan sonra bu məsələyə münasibətimi bildirəcəyəm. Məktəbin müdiri Araz Əliyev Ağdamda əsası

hələ 1952-ci ildə qoyulmuş "Şur" xalq çalğı alətləri ansamblının vaxtilə üzvü olmuşdu, məlahətli səsi vardı.

Soyuq bir qış günündə heç kimə demədən musiqi məktəbinin binasına baxmaq üçün Əfətli kəndinə getdim. Məktəbin həyətinə çatanda sürücü dedi ki, deyəsən, məktəbdə heç kim yoxdur. “Nə edək?” - dedim, - “Maşını saxla, düşüm, binaya, gendən də olsa, baxım”.

Binaya yaxınlaşanda gördüm ki, otaqların birinin bacasından tüstü çıxır. İçəridən səs eşidilirdi. Əvvəlcə gözətçi otağı olduğu ağlıma gəldi. Amma yaxınlaşanda bildim ki, sinif otağıdır. Uşaqlar sinifdə qadın müəllimin dirijorluğu ilə musiqisiz, xorla mahnı oxuyurdular. İcazə alıb sinifə daxil oldum, dərsə davam etmələrini xahiş elədim.

Uşaqların xorla oxuduğu mahnının iki misrası hələ də yadımdadır:

Məni dağa göndər, ay nənə,
Çiyələyə döndər, ay nənə.

Sözün düzü, gördüyüm mənzərə, eşitdiyim mahnı məni əməlli-başlı heyrətləndirmişdi. Ağdamın coğrafi mövqeyinə nabələd olanlar üçün deyim ki, Əfətli kəndi düşmənlə təmas xəttinin bir neçə yüz metrliyində yerləşir. Ermənilər kəndi daima atəş altında saxlayırlar. Buna baxmayaraq, əhali uzun illərdir dözüm və cəsarət göstərərək kəndi tərk etməyib.

Belə çətin şəraitdə yaşayan uşaqlar hələ xorla mahnı da oxuyurdular. Gözlərimə inana bilmirdim.

Quzanlı qəsəbəsinə qayıdan kimi mədəniyyət və təhsil şöbələrinin, eləcə də digər aidiyyəti idarələrin rəhbərləri ilə müşavirə keçirdim. Qəti şəkildə tapşırıq verdim ki, 2010-cu ilin may ayından bütün orta və musiqi məktəblərində xor kollektivləri yaradılmalı, müsabiqələr təşkil olunmalıdır. Müsabiqədə I, II, III yerləri tutanlar üçün böyük məbləğdə pul mükafatları təsis etdik.

2010-cu ildə Əfətli kənd Musiqi məktəbi təmir olundu, əlavə bir neçə sinif otağı da inşa edildi.

Artıq 2010-cu ilin ortalarında Ağdam rayonunda püxtələşmiş uşaq xor kollektivləri fəaliyyət göstərirdi. Azərbaycan bəstəkarlarının mahnıları ilə bərabər, uşaqlar türk, italyan, rus, macar, moldavan mahnıları da ifa edirdilər.

İki il keçəcək, 2012-ci ildə Ağdam rayon birləşmiş uşaq xoru Şəki rayonundakı məcburi köçkünlər qəsəbəsində tikilmiş Ağdam məktəbinin açılış mərasimində “Salamat qal, ana” (döyüşə gedən əsgərin mahnısıdır) mahnısını ifa edəcək, açılış mərsiminin iştirakçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mahnını dinləyəndən sonra xor kollektivinin üzvlərinə xitabən deyəcəkdi: “Möhtəşəm ifaya görə sizə minnətdarlığımı bildirirəm”.

Cənab Prezidentin bu fikirləri, hesab edirəm, uşaq xor kollektivinin fəaliyyətinə verilən ən böyük qiymət idi.

Ümumiyyətlə, 2010-cu ildən başlayaraq 2013-cü ilə kimi hər ilin aprel ayında Ağdam rayonundakı məktəblər arasında uşaq xor kollektivlərinin müsabiqəsi keçirildi. Müsabiqənin keçirildiyi günlər sanki toy-bayram idi. İnsanlar o qədər yüksək əhval-ruhiyyədə olurdular, adam özünü lap Böyük Ağdamdakı kimi hiss edirdi. Şəxsən mənim özümə elə gəlirdi ki, sanki Böyük Ağdamdakı atalı-analı günlərimi yaşayıram. Özümü lap Ağdamın "Pionerlər evi"ndə xor oxuyan uşaqlardan biri zənn edirdim. Elə bil, internat məktəbində Cəlal müəllim bizə "Səhər" mahnısını xor ilə oxumağı öyrədirdi:

"Gözəl səhər, gözəl səhər,

Sən hər şeydən əzəl səhər.

Təsəvvür edin, bu cümlələri yazarkən gözlərim yaşarır, özümü saxlaya bilməyib ağlayıram. Həyat yoldaşım mənə irad tutur:

- Heç kişi də ağlayar? – deyir.

- Kişi qorxudan ağlamaz. – cavab verirəm, - Amma kişi kövrək bir xatirənin havasından təsirlənib ağlayarsa, mən burda heç bir qəbahət görmürəm...

...Uşaq xoru ilə əlaqəli yaddaqalan bir hadisə də BMT-nin Qaçqınlar üzrə Ali Baş Komissarı cənab Antonio Quterresin Ağdam rayonuna səfəri zamanı baş vermişdi. Birləşmiş uşaq xorunun ifasında sözləri türk şairi Ahmet Kutsi Tecerə, musiqisi bəstəkar Munir Ceyhana məxsus "O köy bizim köyümüzdür" mahnısını dinləyən Ali Baş Komissar xeyli fikrə gedəndən sonra təəccübləndiyini bildirdi. Mahnının sözləri əvvəldən ona tərcümə edildiyi üçün Ali Baş Komissar xeyli qəhərlənmişdi.

Mahnının sədaları və sözləri hələ də yaddaşımı rahat buraxmır:

Orda bir köy var, uzaqda,
O köy bizim köyümüzdür.
Gəzməsək də, tozmasaq da
O köy bizim köyümüzdür.

Orda bir ev var, uzaqda,
O ev bizim evimizdir.
Yatmasaq da, qalmasaq da,
O ev bizim evimizdir.

Orda bir dağ var, uzaqda,
O dağ bizim dağımızdır.
Enməsək də, çıxmasaq da,
O dağ bizim dağımızdır.

Orda bir yol var, uzaqda,
O yol bizim yolumuzdur.

Dönməsək də, varmasaq da
O yol bizim yolumuzdur.

Baş komissar üzünü uşaqlara tutub tərcüməçi vasitəsilə ingilis dilində:

- Sizin çox gözəl məktəbiniz var, buna görə heç sevinirsinizmi? – deyə soruşdu.

Təxminən 11-12 yaşlarında bir məktəbli qız tərcüməçini gözləmədən ingilis dilində cavab verdi:

- Düzdür, məktəb gözəldir, amma biz öz evimizi, öz kəndimizi istəyirik.

Biz o qızın ingilis dilində belə danışmaq qabiliyyətinin olduğunu bilmirdik. Baş komissar məktəblini qucaqlayıb öpdü və bərk təsirləndi.

Cənab Quterres məndən Ağdam şəhərinin durduğumuz qəsəbədən hansı məsafədə yerləşdiyini soruşdu. Biz yenicə tikilmiş köçkün qəsəbəsində idik. Mən Ağdam istiqamətində dağları göstərib dedim ki, 10-15 kilometr.

Bu arada onu da qeyd edim ki, o vaxtlar BMT-nin qaçqınlar üzrə Ali Komissarlığının Baş Komissarı vəzifəsində çalışan cənab Antonio Quterres bu gün BMT-nin Baş katibidir. Cənab Quterres əvvəllər - 1995-2002-ci illərdə Portuqaliya Respublikasının Baş naziri olub. Mənimlə söhbət zamanı Cənab Quterres 1996-cı ilin dekabr ayında Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilmiş ATƏT-in növbəti zirvə toplantısını xatırlatdı, o vaxt Portuqaliyanın Baş naziri olduğunu, zirvə toplantısında danışıqlar prosesinin çox çətin getdiyini və şəxsən özünün Azərbaycanın haqq işini dəstəklədiyini bildirdi. Sonra ulu öndər Heydər Əliyevlə bağlı bir xatirə danışan Ali Baş Komissar onu böyük şəxsiyyət kimi xarakterizə edərək mərhum ümumilli liderin çox təmkinli və təcrübəli siyasi xadim olduğunu dedi.

Cənab Quterresin haqqında bəhs etdiyi, tarixdə Lissabon sammiti adı ilə qalmış ATƏT-in həmin zirvə toplantısı, həqiqətən də, o dövr üçün

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində çox mühim bir mərhələ idi. Münaqişənin nizama salınmasının baza formulu məhz o görüşdə müəyyən edilmişdi. Azərbaycan Respublikasının o vaxtkı Prezidenti, mərhum Ümummilli lider Heydər Əliyev çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiəsinə nail olmuşdu. Ermənistandan başqa, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həlli məsələsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəkləmiş və bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar tərəfindən dəstək qazanan ədalətli hüquqi bünövrə yaradılmışdı.

...Möhtərəm oxucu!

Nə qədər ki, mətləbdən uzaq düşməmişəm, "O köy bizim köyümüzdür" mahnısı ilə bağlı bir hadisə, daha doğrusu, insan ruhunu riqqətə gətirən bu mahnının ab-havasında keçirilmiş bir görüş haqda da təəssüratlarımı sizinlə bölüşüm.

Mən "O köy bizim köyümüzdür" mahnısını Uşaq xorunun ifasında video-diskə yazdırıb, demək olar, hamıya paylamışdım. O videolent günü bu gün də Azərbaycanın müxtəlif televiziya kanallarında vaxtaşırı nümayiş etdirilir.

Yanılmıramsa, 2011-ci il idi. Türkiyədə xoşməramlı olmayan bəzi dairələr bu ölkənin Ermənistanla sərhədlərinin açılması məsələsini süni şəkildə gündəmə gətirmişdilər. Həmin ərəfədə Türkiyədən yüksək vəzifəli bir məmurun rəhbərlik etdiyi nümayəndə qrupu Ağdama gəlmişdi. Türkiyənin Azərbaycandakı o vaxtkı səfiri də gələnlər arasında idi. Deyəsən, o məmur Türkiyə Xarici İşlər Nazirliyinə bağlı olan hansısa araşdırma mərkəzinə rəhbərlik edirdi. Elə səfər də, bizə bildirildiyinə görə, köçkünlərlə görüşüb onların sərhədin açılmasına münasibətini öyrənmək məqsədi daşıyırdı.

Əvvəlcə qonaqlara "O köy bizim köyümüzdür" mahnısını canlı olaraq dinlətdim. Sonra sərhədlərin açılması ilə bağlı mövqeyimi bildirdim. Dedim ki, biz sizlərlə əkiz qardaşlarıq. Yəqin eşitmisiniz, deyir, əkizlərdən

birinin ağrısını mütləq o biri əkiz də hiss edir. Bəs onda necə ola bilər ki, siz türklər əkiz qardaşlarınızın ağrısını duymayasınız? Bir də dedim ki, qədim bir türk məsəli var, deyir, uman yerdən küsərlər. İran dövləti Ermənistana lazım olan bütün köməyi göstərir, amma biz İrandan küsmürük, çünki  o dövlətdən umacağımız yoxdur. Amma sizlərdən umuruq.

Türkiyəli qonaqlar həm Uşaq xorunun ifasından, həm də mənim sözlərimdən çox təsirlənmişdilər. Köçkün uşaqların bir türk mahnısını belə ustalıqla ifa etdiklərinə inana bilmirdilər.

Mən Uşaq xorunun ifasında həmin mahnının video-diskini həm səfirə, həm də qonaqlara hədiyyə elədim. Sonra onlardan o mahnının video-diskini və Ağdam rayonundan olan məcburi köşkünlərin adından yazılmış məktubu Türkiyə Cümhuriyyətinin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğana çatdırmalarını xahiş etdim. Qonaqlar məktubu və video-diski götürdülər və ünvanına çatdıracaqlarına söz verdilər.

Həmin məktubun mətni ilə Sizlərin də tanış olmanızı istəyirəm:

"Türkiyə Cümhuriyyətinin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Baş nazir!

Ərazisinin 78 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış Ağdam rayonundan məcburi köçkünlər olaraq, öz nisgilimizə qapanıb torpaq həsrəti, yurd həsrəti ilə ümidlərimizi itirmədən yaşamaqdayıq.

Biz qarabağlıyıq, mənfur ermənilərlə üz-üzə yaşayaraq gül qoxulu Qarabağımızı həsrətli baxışlarımızda və hisslərimizdə yaşadırıq.

Hörmətli cənab Baş nazir!

Biz viranə qalmış kəndlərimizi, evlərimizi, dağlarımızı görürük. Bu yerlərin havasını içimizə çəkirik, çiçəyinin qoxusunu duyuruq, kəndlərimizdə cəh-cəh vuran quşların səsini eşidirik, ot basmış yollarını uzaqdan da olsa görürük. Əfsus ki, bu yerləri ancaq seyr edə bilirik, əlimiz çatmır.

Bilirik ki, bizim dərdlərimizi Siz də bilirsiniz, çünki əkizlərin ağrısı eyni duyulur. Türk dünyasının lideri Mustafa Kamal Atatürk təsadüfən

demirdi: “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”.

Biz, Ağdam rayon Mədəniyyət və Turizm şöbəsinin əməkdaşları sözləri türk şairi Ahmet Kutsi Tecerə, musiqisi bəstəkar Munir Ceyhana məxsus “O köy bizim köyümüzdür” mahnısını köçkün uşaqların birləşmiş xorunun ifasında hazırlayaraq video-diskə köçürmüşük. Bu mahnı sanki, Qarabağ müharibəsində yurd yerlərindən didərgin düşmüş insanların naləsidir. Sanki, bizim məşəqqətlərimizi Ahmet Kutsi Tecer öz gözləri ilə görüb.

Biz Ahmet Kutsi Tecerin ruhu qarşısında, belə bir şəxsiyyəti yetişdirən xalqın qarşısında baş əyir, onun Baş nazirinə minnətdarlıq hissimizi bildiririk.

Azərbaycanın haqq işini həmişə dəstəklədiyinizə, Türk xalqlarının birliyinə daima çalışdığınıza, Dünya meydanında zülmə qarşı mübarizə apardığınıza görə böyük hörmət əlaməti olaraq bu video-diski hədiyyə olaraq Sizə göndəririk”.

***

Ağdam kimi şərəfli keçmişə, zəngin ənənələrə malik bir rayonda, hətta torpaqları işğal olunsa da, təhsil və mədəniyyət sahəsinin acınacaqlı, miskin duruma düşməsini heç cür sinirə bilmirdim. Fikirləşirdim ki, bu sahələrdə ciddi işlərin görülməsinə ehtiyac var. İlk növbədə, sələflərimizdən miras qalmış, zəngin ənənələri olan muğam sənətinin inkişafına diqqət yetirməyin vacibliyini düşünürdüm. Həm də Azərbaycanda muğamın inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərildiyi bir vaxtda Ağdamda bu sahədəki tarixi ənənələrin unudulması dözülməz idi. Bunları reallaşdırmaq üçün isə gərgin iş, zəhmət, qətiyyət və səriştə tələb olunurdu.

Quzanlı qəsəbəsindəki Mədəniyyət Evi 1958-ci ildə inşa edilmişdi. Böyük Ağdamdakı teatrın möhtəşəm binasına bənzərliyi vardı, əvəzsiz bir

memarlıq abidəsi idi. Bir vaxtlar burada konsertlər təşkil olunar, teatr tamaşaları göstərilərdi. Quzanlılar və ətraf kəndlərin sakinləri Ağdam Dövlət Dram Teatrının tamaşalarına, “Şur” ansamblının konsertlərinə böyük həvəslə baxardılar. Tez-tez Bakıdan tanınmış mədəniyyət və incəsənət adamları dəvət olunar, qastrol səfərləri təşkil edilərdi. İndiki kimi yadımdadır, 1965-ci ilin yazı idi, Quzanlı kənd Mədəniyyət evində Xalq artisti Rübabə Muradovanın iştirakı ilə “Əsli və Kərəm” operasının tamaşası gedirdi. Zalda bir dənə də boş yer tapmazdın. Zövqlə, səliqə ilə geyinib bəzənmiş insanların üzündəki sevinc, gözəl əhval-ruhiyyə adama olduqca xoş təsir bağışlayırdı.

1972-1973-cü illərdə, hələ Ağdam Kənd Təsərrüfatı Texnikumunda müəllim işləyərkən mən bir müddət Quzanlıda qalmalı olmuşdum. O vaxtlar Ağdam rayonundakı orta məktəb və texnikumlarda təhsil alan şagird və tələbələri kömək məqsədilə kəndlərdə pambıq yığımına cəlb edirdilər. Tələbələrimlə birlikdə mən də Quzanlı kəndində qalırdım. Yadımdadır, qəsəbədə gözəl bir səliqə-sahman var idi. Mədəniyyət evinin o zamankı abad, yaraşıqlı görkəmi hələ də gözlərim önündən getmir. Amma indi - təxminən 35 il sonra Mədəniyyət evinin belə bərbad durumda olduğunu görəndə bərk təəccübləndim. Aradan xeyli müddət keçsə də, bu illər ərzində çox sular axıb durulsa da, belə mənzərə ilə qarşılaşacağımı ağlıma da gətirmirdim.

Deməli, 2009-cu ilin sentyabr ayı, bir bazar günü idi. Mədəniyyət evinin mövcud şəraiti ilə tanış olmaq istəyirdim. Təsəvvür edin, Mədəniyyət evinin həyətinə girəndə üzləşdiyim bir mənzərədən yerimdəcə quruyub qalmışdım. Həyətdə zir-zibil dizə çıxırdı. Təxminən dörd-beş yük maşınının daşıyacağı qədər zibil qalağı var idi.

Bazar günü olmasına baxmayarq, bütün idarə-müəssisə rəhbərlərini təcili Mədəniyyət evinin həyətinə dəvət etdim. Həyətdəki zibilxananı hamıya göstərəndən sonra: “İndi gedin istirahət edin. Az müddətdən sonra

sizi yenə bura dəvət edəcəyəm. Bax, onda siz tamam başqa bir mənzərənin şahidi olacaqsınız” - dedim.

Gözləmək olmazdı. Qısa müddətdə respublikanın ayrı-ayrı dövlət qurumları ilə danışıqlar aparıb Mədəniyyət evinin təmir olunması barədə razılıq əldə etdik. Nəhayət, 2010-cu ildə əsaslı təmir işlərinə start verildi.

Təmir işlərini Mədəniyyət və Turizm Nazirliyi aparsa da, həm mən, həm də müavinlərim hər gün əraziyə baş çəkir, təmir işlərinin gedişi ilə maraqlanırdıq (Bir nəfər qəsəbə sakini Mədəniyyət evinə məxsus ərazinin təxminən üçdə bir hissəsini hasara almışdı ki, orada özünə şəxsi ev tikdirsin. Onun dediyinə görə, hasara aldığı yer üçün rayonun əvvəlki rəhbərliyinə pul da vermişdi).

Binada təmir işlərinin bitməsini gözləmədən paralel olaraq həyət-bacada abadlıq işlərinə başladıq. Həyətdə səliqə-sahman yaradıldı, daş döşəndi – göz önündə əsil istirahət parkını xatırladan bir mənzərə var idi. Ərazidə gözəl bir bulaq kompleksi inşa etdik. Piano dillərini xatırladan kompleks görənləri valeh edir, həyətə xüsusi yaraşıq verirdi.

Həyətdə bəzək kollarının və ot örtüklərinin əkilməsinə şəxsən özüm rəhbərlik edirdim. Həyətdə təxminən 50 ədəd yapon əzgili deyilən həmişəyaşıl ağac əkdirdim. Qeyd edim ki, bu ağacın qəribə bir özəlliyi var. Adətən payızın axırlarında çiçək açmağa başlayan ağacın çox gözəl ətri olur, ətrafa olduqca xoş bir rayihə yayılır. Adam özünü gül kollarının arasındaymış kimi hiss edir. Gül-çiçəyin ətrindən, az qalırsan, bihuş olasan.

Mədəniyyət evinin əsaslı təmiri və abadlıq işləri təxminən bir ilə başa çatdı. Görülən işin keyfiyyətinə söz ola bilməzdi. Şərq üslubunda ornamentlərlə bəzədilmiş, əsil memarlıq nümunəsi olan bina, yenidən qurulmuş geniş səhnə, möhtəşəm çilçıraqlar, müasir üslubda tikilmiş pərdələr göz oxşayırdı.

Bir il əvvəl vəd verdiyim kimi, rayonun idarə-müəssisə rəhbərlərini yenidən Mədəniyyət evinin həyətinə dəvət elədim. Onları yığıb həyətdə -

çiçək açmış yapon əzgilinin yanında kiçik bir toplantı keçirdim. Gül-çiçəyin, xüsusilə də yapon ağaclarının ətri hər tərəfi bürümüşdü. Gördüm, hamı bir-biri ilə xısınlaşır ki, bu gözəl qoxu hardan gəlir? Toplantı iştirakçılarına xatırlatdım ki, sizi bir il əvvəl bura dəvət edəndə bu yerlər zibilxananı xatırladırdı. Bu gün isə sizə Ağdamın cənnət bir guşəsini göstərirəm. Baxın, zövq alın.

Möhtərəm oxucu!

Mən bir il əvvəl o vədi verəndə özümə, öz gücümə və bacarığıma inanırdım. İnanırdım ki, bütün bu çətinliklərin öhdəsindən gələcəyəm. İnanırdım ki, Ulu Yaradan və qəlbimdəkı Ağdam sevgisi bu xarabalığı gülüstana çevirə bilmək üçün mənə güc, təpər verəcək.

Çox şükür ki, Ulu Yaradan və Ağdama olan sonsuz sevgim məqsədimə çatmaqda mənə yardımçı oldu.

2011-2013-cü illərdə Ağdam rayonunda bütün mötəbər tədbirlər Quzanlı Mədəniyyət evində keçirilərdi. Azərbaycanın görkəmli elm xadimi, akademik Adilə xanım Namazovanın 85 illik yubileyi, Xalq artisti, muğam ustası Arif Babayevin 75 illik yubileyi, Əməkdar artist Sabir Abdullayevin, eləcə də fəxr etdiyimiz neçə-neçə başqa tanınmış elm, sənət adamlarının yubiley tədbirləri də həmin Mədəniyyət evində gerçəkləşdi.

Bu yerdə xatırladığım, Mədəniyyət evinin açılışı günü baş vermiş bir hadisəni də sizlərlə bölüşüm, deyirəm.

Bir neçə dəfə xəbərdarlıq edilsə də, bir çox idarə-müəssisə rəhbərlərinin, icra nümayəndələrinin icra hakimiyyətində keçirilən tədbirlərə yenə də nimdaş əyin-başla, üzütüklü gələn görürdüm. Xeyli düşünüb-daşındım, insanlarda tədbirlərə gələrkən əyin-başına, səliqə-sahmanına diqqət yetirmək vərdişi aşılamaq məqsədi ilə bir yol fikirləşdim.

Rayonda hər kəsin yaxşı tanıdığı, həmişə üzütüklü, nimdaş paltarda gəzən, uzun illər Mədəniyyət evinin gözətçisi işləyən yaşlı kişiyə təzə

kostyum, ağ köynək, ayaqqabı aldım. Mədəniyyət evinin açılışı günü ona tapşırdım ki, tədbir başlayana yaxın həmin təzə paltarını geyinsin, qara bantik taxıb giriş qapısında dayansın və gələn qonaqları salamlayaraq onlara "Xoş gəlmisiniz" desin.

İstəyirdim ki, hər kəs gözətçinin geyimini, səliqə-sahmanını, onun ağ köynəyini, üstündən taxdığı qara bantiki görüb anlasın ki, geyim, səliqə-səhman, xarici görkəmə fikir vermək insanı necə dəyişir, başqalaşdırır. Qoy əyin-başına fikir verməyən o insanlar gözətçidən nümunə götürsünlər, özlərini dəyişdirməyi bacarsınlar.

Düşündüyüm kimi də oldu. Çox qısa müddətdən sonra tədbir və iclaslara gələnlərin səliqə-sahmanını görəndə çox sevindim.

Həmin vaxtlar çoxdan tanıdığım bir nəfər ağdamlının dediyi sözlər heç zaman yadımdan çıxmır: "Nizami müəllim, təzə paltar geyinmək üçün səbəb olmalıdır. Təzə paltar geyinib palçığa girməzlər ki... Təzə kostyum geyinmək üçün insanda gərək yüksək əhval-ruhiyyə olsun".

İki-üç tədbirdən sonra zalda əyləşənlərə baxanda, görürdüm ki, hamı təzə paltar geyinib. İnsanların üz-gözündə nikbinlik, xoş əhval-ruhiyyə hiss olunurdu. Ağdam əhalisini belə şən əhval-ruhiyyədə görəndə özümü xoşbəxt hiss edirdim.

...Ümumiyyətlə, təkcə Ağdamda işlədiyim dövrdə yox, buna qədər uzun illər çalışdığım müxtəlif rayonlarda - Ağdaşda, Masallıda, Qubada da daima ürəyimin səsini dinləyib qəlbimdən gələn, insanların rifahına xidmət göstərəcək ideya və arzularımı gerçəkləşdirmək üçün heç zaman tərəddüd etməmişəm, özü də hər dəfə istəyimə nail olmuşam. Bütün bunlara görə Allahımdan həmişə razıyam. Adlarını çəkdiyim bu rayonlarda işlədiyim illər ərzində neçə-neçə bulaq çəkdirmişəm və bu bulaqların hər birinin üzərində bulağın Qarabağ uğrunda həlak olanların xatirəsinə inşa olunduğunu və bir nəfər ağdamlı tərəfindən çəkildiyini qeyd etdirmişəm. Mən bu işləri görərkən qətiyyən öz mənafeyimi düşünməmişəm.

Məqsədim ilk növbədə o olub ki, həmin bulaqlardan su içən insanlar şəhidlərimizin müqəddəs ruhuna dualar oxusunlar. Bulağın bir nəfər ağdamlı tərəfindən inşa edilməsini göstərməklə isə insanlarda Ağdamın adına hörmət və ehtiram aşılamaq niyyəti güdmüşəm. Təşəvvür edin, yay aylarında o bulaqlardan minlərlə insan ya su içir, ya da su götürür və hər dəfə şəhidlərimizin ruhuna dualar oxuyurlar. İndi məni bu kitabı yazmağa vadar edən həmin o qalstuklu ağzıgöyçəkdən soruşuram: mən bir ağdamlı kimi hər gün minlərlə insana dua oxutdururam, de görüm, Ağdam üçün, bəs, sən nə etmisən?

***

İstər Sovetlər İttifaqı, istərsə də müstəqillik dönəmində Ağdam rayonundan neçə-neçə məşhur elm adamı, mədəniyyət və incəsənət xadimi, şair və yazıçı çıxıb. Xudu Məmmədov, Adilə Namazova, Rafiq Əliyev, Ziyəddin Göyüşov kimi böyük alimlərin, dəyərli elm adamlarının adları ölkəmizin hüdudlarından kənarda da yaxşı tanınır. Mərhum şairlər Famil Mehdi, Şahmar Əkbərzadə, görkəmli muğam ustaları, xalq artistləri Arif Babayev, Qədir Rüstəmov, Mənsum İbrahimov, ünlü aktyorlar Qaflan Muradov, Heydər Şəmsizadə, Tofiq Qarayev kimi tanınmış insanlar Ağdamın bütün Azərbaycana bəxş etdiyi adlı-sanlı, nüfuzlu şəxsiyyətlərdir.

İcra hakimiyyətinin başçısı işlədiyim müddətdə mən Ağdamı ölkəmizdə və ölkəmizdən kənarda layiqincə təmsil edən bu dəyərli şəxsiyyətlərə qarşı həmişə xüsusi diqqət və qayğı göstərməyə çalışır, onlarla müntəzəm olaraq görüşür, dünyadan köçənlərin isə xatirəsini əziz tutur, müxtəlif tədbirlərin keçirilməsi, adlarının əbədiləşdirilməsi istiqamətində bir sıra işlər görülməsinə nail olurdum. Hələ Quzanlı qəsəbəsində tikinti-abadlıq işlərinin aparılmasına başlayarkən bir sıra küçələrə Ağdamın böyük şəxsiyyətlərinin adlarının verilməsini nəzərdə tutmuşdum və sonradan bunların bəzilərini reallaşdırdıq da. Böyük alim Xudu Məmmədovun xatirəsini əbədiləşdirmək məqsədilə həm Quzanlıda

küçələrdən birinə onun adını verdik, həm də qəsəbədə salınan yaraşıqlı parklardan birini “Xudu Məmmədov parkı” adlandırdıq.

...2011-ci il idi. Tanınmış pediatr, kardioloq, akademik Adilə Namazovanın anadan olmasının 85-ci ili tamam olurdu. Bu münasibətlə həmin ilin noyabrında Quzanlı qəsəbəsində təntənəli yubiley tədbiri təşkil etdik. Tədbirə respublikanın tanınmış elm və ictimai xadimləri, Milli Məclisin deputatları, rayon ictimaiyyətinin nümayəndələri qatılmışdılar. Təbii ki, yubilyar özü də Ağdama təşrif buyurmuşdu. Tədbir başlamazdan əvvəl Ümummilli lider Heydər Əliyevin Quzanlı qəsəbəsindəki abidəsi ziyarət olundu, abidənin önünə gül-çiçək dəstələri qoyuldu.

Quzanlı Mədəniyyət evində keçirilən tədbirdə mən özüm də çıxış elədim, Adilə xanım Namazovaya arzu və təbriklərimi çatdırdım, akademikin şərəfli və zəngin ömür yolundan, tibb elminə verdiyi böyük töhfələrdən danışdım.

Sonra A.Namazovanın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu, Ağdam Musiqi Kolleci tələbələrindən ibarət xor kollektivinin və məktəblilərin ifasında videoçarxlar göstərildi, “Şur” ansamblının ifasında mahnılar səsləndirildi.

O gün tədbirdə çox adam çıxış elədi, çox adam söz dedi, Ağdamla, yubilyarla bağlı müxtəlif fikirlər səsləndirildi. Amma bir çıxış diqqətimi xüsusi çəkdi. Azərbaycan Yazıçılar Birliyinin katibi, “525-ci qəzet”in baş redaktoru, yazıçı-publisist, xatirini dünyalar qədər istədiyim dəyərli ziyalımız Rəşad Məcidin çıxışı zalda əyləşən hər kəsi qəhərləndirdi. Rəşad müəllimin bu duyğulu fikirləri sanki mənim ürəyimdən keçən düşüncələrin eyni idi: “Ağdam təkcə bizdən uzaqda qalan o torpaq, o uçurulmuş divarlar, o yiyəsiz ruhlar, kimsəsiz qəbirlər deyil, Ağdam insanlardır, Ağdam sizlərsiniz. Ağdam Ağdamın simvolu olan 85 yaşlı bir xanımı, qürur duyulası insanı burada gül-çiçəklərə qərq edib ona xoş sözlər deməkdir. Ağdam Qədir Rüstəmovu qürbətdə yiyəsiz qoymamaq, öz nümayəndələrini göndərib ona baş çəkdirmək, halına yanmaqdır! Ağdam

Ağdamın daha bir simvolu olan Tofiq Qarayevi səfalət içindən, ölümün girdabından çıxarıb təzə kostyumda, ağ köynəkdə, işıqlı üzlə gətirib burada, bu zalda əyləşdirməkdir. 20 illik fasilədən sonra “Şur” ansamblını bərpa edib, o Uşaq xorunu araya-ərsəyə gətirməkdir Ağdam”.

Mən də bərk təsirlənmişdim.

Tədbirin sonunda çıxış edən Adilə xanım Namazova yubiley mərasiminin təşkilinə görə öz minnətdarlığını bildirdi.

Adilə xanım Namazovadan söz düşmüşkən, bir məsələni də qeyd edim. Quzanlıda inşa olunmuş Ağdam rayonu Uşaq Xəstəxanasına Adilə Namazovanın adının verilməsi mənim arzum idi. Amma bilirdim ki, bununla bağlı Bakıya rəsmi müraciət etsəm, həm məsələ uzanacaq, həm də hazırda fəaliyyət göstərən adamın adının əbədiləşdirilməsi etirazla qarşılanacaq. Ona görə də qeyri-rəsmi olaraq, öz təşəbbüsümlə xəstəxananın önünə vurulmuş lövhəni dəyişdirib Adilə Namazovanın adını əlavə elətdirdim...

... Ağdam camaatı bu torpağın yetirməsi olan istedadlı insanlara həmişə böyük ehtiram göstərib, hörmət bəsləyib. O insanların bir çoxu haqqında elə arasında bu gün də müxtəlif rəvayətlər, maraqlı əhvalatlar danışılır. Belə əhvalatlardan biri də görkəmli aktyor Qaflan Muradovla bağlıdır.

Deyilənlərə görə, hələ sovet hakimiyyətinin ilk illərində Ağdam teatrında "Əsli və Kərəm" əsəri tamaşaya qoyulubmuş və Əslinin atası keşiş Qara Məlik rolunu Qaflan Muradov oynayırmış. Aktyor bu obrazı elə inandırıcı oynayıb ki, hətta zaldakı tamaşaçılardan biri onu silahla hədələyib. Hadisə belə olub. Kərəmin adamlarının Əsliyə elçi gəldiyi səhnə oynanılanda ssenariyə uyğun olaraq Qaflan Muradov – Qara Məlik özünün xristian dininə mənsub olduğunu bəhanə gətirərək elçilərə “yox” deyir. Səhnə elə inandırıcı alınır ki, tamaşaçılar zaldan “keşiş”in üstünə silah çəkib tələb edirlər ki, elçiləri geri qaytarmasın, Əslini Kərəmə versin.

Q.Muradov görür ki, ara qarışıb, vəziyyət gərgindir, tamaşaçılar səhnəyə atəş aça bilərlər. Ona görə də vəziyyəti sakitləşdirmək üçün üzünü zala tutub deyir: “Allah xeyir versin, mən bu izdivaca razılıq verirəm”. Söz ağzından çıxan kimi bütün zal ayağa qalxıb Q.Muradovu alqışlayır.

...Hələ Sovet İttifaqı dövründə Ağdam rayonunun “Qarabağ bülbülləri” ansamblı Moskvada Kremlin Qurultaylar Sarayında dəfələrlə çıxış etmiş, alqışlarla qarşılanmışdı. Belə bir yüksək mədəni məkanda çıxış etmək o zaman böyük nüfuz göstəricisi sayılırdı. “Qarabağ bülbülləri”nin o möhtəşəm çıxışlarını bizim yaşda olan nəsil, yəqin, heç zaman unutmayacaq.

***

İnsan, qəlbən nə qədər çox bağlı olsa belə, öz peşəsi ilə uzun zaman məşğul olmayanda tədricən peşəkar vərdişlərini yadırğayır. Aktyorun yeri səhnədir, o öz sevimli peşəsi ilə ancaq səhnədə məşğul ola, peşəkar vərdişlərini yalnız teatrda zənginləşdirə bilər. Ağdam Dövlət Dram Teatrı isə məlum hadisələrdən sonra özünün acınacaqlı günlərini yaşayırdı, fəaliyyətini, demək olar, dayandırmışdı.

Mədəniyyət evinin təmir işləri yekunlaşan ərəfədə Ağdam Dövlət Dram Teatrının direktoru tutduğu vəzifədən kənarlaşdırıldı. 2011-ci ildə mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayev mənim təqdimatıma əsasən, bu vəzifəyə çoxlarının yaxşı tanıdığı, əvvəllər də teatrda direktor işləmiş Fəxrəddin Hacıbəylini təyin etdi. F.Hacıbəyli peşəkar olmaqla yanaşı, həm də zəhmətkeş bir ziyalıdır. Onunla şərt kəsdik ki, hər ikimiz teatrın inkişafı üçün bütün səy və bacarığımızı səfərbər edəcək, əlimizdən gələni əsirgəməyəcəyik. Hər ikimiz gözəl anlayırdıq ki, Ağdamda mədəni mühitin canlanmasında teatrın müstəsna rolu ola bilər.

Ağdamda teatrın yaranma tarixi barədə müəyyən bilgilərim var idi, bilirdim ki, Ağdam Dövlət Dram Teatrı 1902-ci ildə rayonun Seyidli

kəndində yaradılıb. Əsası Əbürrəhim bəy Haqverdiyev və yerli ziyalılar tərəfindən qoyulan teatr öz fəaliyyətinə darısqal bir otaqda başlayıb. İki il gərgin əməkdən sonra teatr 1904-cü ildə Mirzə Fətəli Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" və Əbürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" pyeslərinin tamaşaları ilə açılıb. 1923-cü ildən teatr dram, sonralar isə musiqili dram kollektivi kimi fəaliyyət göstərib. Bu dövrdə teatrın kollektivi Mirzə Fətəli Axundovun, Əbürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının, Üzeyir Hacıbəylinin bir çox əsərlərini tamaşaya qoyub. Sonrakı illərdə ictimai əsaslarla işləyən sənət ocağı 1937-1950-ci illərdə Dövlət Dram Teatrı, 1950-1968-ci illərdə isə dram kollektivi və xalq teatrı kimi fəaliyyət göstərib. 1968-ci ildən bu sənət ocağı fəaliyyətini Əbürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı kimi davam etdirib.

Ötən əsrin 70-80-ci illərində Ağdam Dövlət Dram Teatrı Azərbaycanın ən nüfuzlu əyalət teatrlarından biri kimi ad çıxarmışdı. Ağdam əhalisi də həmişə öz doğma teatrlarına xüsusi diqqət və qayğı göstərirdi. Hər yeni tamaşa böyük maraqla qarşılanar, teatrın salonunda boş yer tapmaq olmazdı. Bir sözlə, Ağdamin zəngin teatr məktəbi, teatr tarixi var idi. Bir vaxtlar Ağdam Dövlət Teatrının səhnəsində Heydər Şəmsizadə, Qaflan Muradov, Firəngiz Abbasova, Narınc Məlikova, Qurban Mirzəyev, İbrahim Yusifov, Səkinə Süleymanova, Tofiq Qarayev, Simuzər Namazova, Fatma Mahmudova, Səyavuş Soltanov kimi adlı-sanlı aktyorlar fəaliyyət göstərmişdilər.

Quzanlı Mədəniyyət evinin təmir işləri bitər-bitməz Ağdam teatrını yenidən dirçəltmək, bu qədim mədəniyyət ocağının nüfuzunu özünə qaytarmaq üçün ciddi tədbirlər görməyə başladıq. Bu gün böyük inamla deyə bilərəm ki, biz bu istəyimizə nail olduq və 2011-2014-cü illərdə Ağdam Dövlət Dram Teatrı özünün yeni intibah dövrünü yaşadı. Cəmi üç ilin ərzində M.F.Axundovun “Lənkəran xanının vəziri”, İ.Məlikzadənin “Gəl, qohum olaq”, M.Füzulinin “Saqinamə”, Ə.Əmirlinin “Varlı qadın”,

Ə.Haqverdiyevin “Ac həriflər”, S.Rüstəmin “Durna”, M.Süleymanın “O kənd bizim kəndimizdir” kimi əsərləri səhnəyə qoyuldu və uğur qazandı.

***

Ağdam rayon "Şur" xalq çalğı alətləri ansamblı 1952-ci ildə yaradılmışdı. Ötən əsrin 60-80-ci illərində "Şur" çox populyar idi, özü də təkcə Azərbaycanda yox, onun hüdudlarından kənarda da. Yalan olmasın, Sovet İttifaqının elə bir şəhəri tapılmazdı ki, "Şur" ansamblı orada konsert proqramı ilə çıxış etməsin. SSRİ miqyasında keçirilən müxtəlif festivallarda "Şur" 47 qızıl medal qazanmışdı. Ansamblın Moskvanın Qurultaylar Sarayının sütunlu salonunda, Moskvada keçirilən beynəlxalq folklor festivalındakı möhtəşəm çıxışları o dövrdə hər birimizi qürurlandırırdı. Təkcə bir faktı deyim, Əbülfət Əliyev, Arif Babayev, Qədir Rüstəmov, Şahmalı Kürdoğlu, Səxavət Məmmədov, Qaraxan Behbudov, Bakir Haşımov, Sədi Məmmədov kimi adlı-sanlı sənətkarlar məhz "Şur" ansamblının yetirmələri olublar.

1993-cü ildə Ağdamın işğalı "Şur" ansamblını öz fəaliyyətini dayandırmağa məcbur etmişdi. Xeyli vaxt idi, ansamblın fəaliyyətini bərpa etmək haqqında düşünürdüm. Məcburi köçkün həyatı ansambl üzvlərini pərən-pərən salmışdı, onların əksəriyyəti respublikanın dörd bir yanına səpələnmişdi. Bu üzdən ansamblın fəaliyyətini bərpa etmək elə də asan iş deyildi. Amma qəti qərara gəlmişdim: "Şur" yenidən ayağa qalxmalı idi. Bu məqsədlə Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Şahin Qasımovu icra hakimiyyətinə dəvət etdim. Niyyətimi bildirəndə Şahin müəllim çox sevindi. Xeyli məsləhətləşəndən sonra ansamblın bədii rəhbər vəzifəsi Qarabağın məşhur xanəndəsi, muğam sənətinin mahir bilicisi Hüseyn Hüseynova həvalə olundu. Təsəvvür edin, Hüseyn müəllim çox qısa müddətdə ansambla təxminən 40 nəfər topladı. İlk vaxtlar məşqlərə həvəssiz, könülsüz gələnlər də olurdu, amma bir müddət sonra hər şey yoluna düşdü. Hətta ansambla üzv olmaqdan ötrü minnətçi salanlar da var idi.

“Şur” ansamblının, az qala, bütün məşqlərində mən özüm də iştirak edirdim. Yorulmadan çalışmağın, gərgin əməyin sayəsində 2011-2013-cü illərdə “Bayatı-Şiraz”, “Çahargah”, “Humayun”, “Rast”, “Şur”, “Mahur-hindi” muğamlarını “Şur” ansamblının ifasında diskə köçürə bildik. Bütün muğamlarda təsniflər əvəzinə, bəstəkar və xalq mahnıları, özü də birləşmiş xor tərəfindən ifa olunurdu. Bu, Azərbaycan muğam sənəti üçün özünəməxsus bir ifa tərzi idi.

“Şur” ansamblı təzə-təzə məşqlərə başlayanda fikirləşirdim ki, muğamın zil hissəsini ifa etmək üçün rayonda xanəndə tapmaq çətin olacaq. Ona görə də həmyerlimiz, Xalq artisti Mənsum İbrahimova muğamların solo hissəsindəki çətin parçaları oxumasını təklif etdim. Mənsum müəllim dedi ki, əgər solo hissəni oxumaq üçün Bakıdan kimisə dəvət etsəniz, çəkdiyimiz zəhmət boşuna gedəcək, çünki onda bu, təkcə “Şur” ansamblının ifası sayılmayacaq. Yaxşısı budur, çalışın, bütün parçaları “Şur” ansamblının üzvləri oxusunlar.

Mənsum müəllimin dedikləri ağlıma batdı.

Mənsum İbrahimovdan əvvəl bu məsələni Xalq artisti Qədir Rüstəmovla da məsləhətləşmişdim. İndi o söhbətimizi olduğu kimi xatırlamağa çalışacağam.

Qədirə təklif etdim ki, muğamların zil hissəsinin bəzi yerlərini o ifa etsin, xor kollektivi isə təsnifləri, xalq və bəstəkar mahnılarını oxusun.

Qədir Rüstəmov:

- Nizami müəllim, heç xorla da muğam oxuyarlar? – deyə təəccübləndi.

Mən:

- Qədir, biz muğamda yenilik etmək istəyirik.

Qədir Rüstəmov:

- Şahmalı Kürdoğlu da, deyəsən, qabaqlar elə bir iş görmək istəmişdi.

Mən:

- Hə, Qədir, düz deyirsən, olub.

Qədir Rüstəmov:

- Nizami müəllim, məndən başqa orada kim olacaq?

Mən:

- Əgər razılıq versələr, Mənsum İbrahimov, Təyyar Məmmədov, Cabir Abdullayev.

Q.Rüstəmov:

- Yaxşı, elə bil razıyam. Bi-iki ağız istədiyim parçanı oxuyaram. – dedi, dalınca da əlindəki qəlyana baxıb zarafatından qalmadı. – Bayaqdan başım söhbətə qatışıb, qəlyanım sönüb...

... Bir halda ki, söz görkəmli sənətkarımız, mərhum Qədir Rüstəmovdan düşdü, onunla bağlı bir xatirəni də sizinlə bölüşüm.

Ruhu şad olsun, Qədir Rüstəmov Ağdama şöhrət gətirən sənətkar idi. Tez-tez işlətdiyim bir söz var, həmişə deyirəm ki, kim öz torpağına şöhrət gətirib onun adını şərəfləndirirsə, həmin adamın qarşısında baş əyməyə hazıram.

Ağdam rayonuna yeni təyinat almışdım, Qədir Rüstəmov məni təbrik etməyə gəlmişdi. Təxminən bir saata yaxın söhbət elədik. Sözarası Qədirə dedim ki, istəyirəm, sənə aylıq maaş müəyyənləşdirək, hər ay gəlib alsan.

Aramızda belə bir dialoq oldu.

Q.Rüstəmov:

- Nizami müəllim, bilmək olarmı, sən bunu nə üçün etmək istəyirsən?

Mən:

- Qədir, iki səbəbə görə. Birincisi, sən hamımızın fəxrisən, istəyirəm, sənin maddi vəziyyətin bir az da yaxşı olsun. İkincisi, şirin, baməzə adamsan, istəyirəm, buralara tez-tez gələsən. Həm mən, həm də əhali səni Quzanlıda tez-tez görmək istəyirik.

Q. Qüstəmov:

- Nizami müəllim, nə qədər istəsən Quzanlıya gələrəm. Amma mənə nə verəcəksənsə, hamısını bir yerdə, kom ver ki, işimi bilim.

Hər ikimiz xeyli güldük...

Həqiqətən, Qədir Rüstəmov Ağdama tez-tez gəlirdi.

Bir gün eşitdim ki, bərk xəstələnib, Türkiyənin İstanbul şəhərində müalicə alır, vəziyyəti ağırdır. Çox pis oldum. Sözün düzü, bu ağır xəstəliyi Qədir Rüstəmova yaraşdıra bilmirdim.

Düşünüb-daşındım, Ağdam Dövlət Dram Teatrının direktoru Fəxrəddin Hacıbəylini İstanbula, Qədirin yanına göndərmək qərarına gəldim. Fəxrəddin Hacıbəyliyə durumu bildirdim, Qədir Rüstəmovun beyninə qan sızdığını, vəziyyətinin çox ağır olduğunu dedim. Tapşırdım ki, palatada əyilib Qədirin qulağına desin ki, "Qədir, Ağdam işğaldan azad olunub". Dedim, bəlkə, az da olsa hissiyyatı qalıb, qoy o dünyaya Ağdamdan nigaran getməsin. Qədirin xəstəxanada yanında olan ailəsinə maddi köməklik də göstərib Fəxrəddini Türkiyəyə yola saldım.

İstanbuldan qayıdandan sonra Qədirin o sözlərə reaksiya verib-vermədiyini soruşanda Fəxrəddin elə beləcə də dedi: "Nizami müəllim, üz-gözündən hiss elədim ki, çətinliklə də olsa, nəsə eşitdi".

Halal xoşu olsun, Qədir rəhmətə gedəndə dəfnindən qırx mərasiminəcən yas mərasiminin bütün xərclərini öz öhdəmə götürdüm.

Allah Qədirə rəhmət eləsin! Torpağı nurla dolsun!

... Beləcə, “Şur” ansamblının yenidən formalaşdırılması üçün xeyli əziyyət çəkdik. Uzun illərdən bəri yaddaşlardan silinən, unudulan istedadları kəndbəkənd axtarıb bir yerə cəm elədik. Ən yaxşı sazəndələr ansambla dəvət olundu. Bu işdə, sözsüz, əsas yük Hüseyn müəllimin üzərinə düşürdü. Əziyyətimiz hədər getmədi, nəhayət, 50 nəfərdən ibarət gözəl bir ansambl yaratmağa nail ola bildik. Ansamblı tam formalaşdırdıqdan sonra, ilk növbədə, ansambl üzvlərinin geyim məsələsini həll etdik. Musiqiçilər ayaqqabıdan tutmuş qalstuka, xüsusi səhnə paltarlarına qədər hər şeylə təmin olundular. Ansamblın bütün kişi üzvləri səhnəyə qara kostyum, ağ köynək, qara bantik, qadınlar isə müvafiq uzun səhnə geyimində çıxırdılar. Ayrıca ansabl üzvlərinin hər birinə əməkhaqqı verilməsi məsələsi də həllini tapdı.

Böyük zəhmətdən, gərgin işdən, davamlı məşqlərdən sonra, nəhayət, 2011-ci ildə “Şur” ansamblı Azərbaycanda ilk dəfə “Kor ərəbin mahnısı” və “Sarı gəlin” mahnılarını  muğamla xorun sintezində hazırlayıb ifa etdi.

“Şur” ansamblı elə bir səviyyəyə gəlib çıxmışdı ki, onun konsertlərini, hətta deyərdim, Avropa ölkələrində də təşkil etmək olardı.

2012-ci il i idi, Yeni Azərbaycan Partiyasının 20 illik yubileyi ilə bağlı respublika miqyasında bir sıra tədbirlərin, o cümlədən böyük bir konsertin keçirilməsinə hazırlıq gedirdi. Biz əlaqədar təşkilatlara müraciət edərək  həmin konsertdə “Şur” ansamblının da çıxış etmək arzusunu bildirdik. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru ilə Dövlət Filarmoniyasının bədii rəhbəri bu məsələ ilə bağlı Ağdam rayonuna ezam olundular. Məqsəd “Şur” ansamblının ifaçılıq səviyyəsi və ansambl üzvlərinin geyimləri barədə məlumat toplamaq idi. “Şur” ansamblı ilə tanışlıqdan sonra hər iki mütəxəssis heyrətlərini gizlədə bilmədi. Hətta belə bir fikir də söylədilər: ansamblı gördük, ifasını eşitdik, amma, sözün düzü, hələ də belə bir ansamblın varlığına inanmaq olmur.

Mütəxəssislər Bakıya çox razı qayıtdılar və əlaqədar təşkilatlara ansambl haqqında müsbət rəylərini bildirdilər. Bundan bir müddət sonra,

noyabr ayının 7-də “Şur” ansamblı Yeni Azərbaycan Partiyasının yaranmasının 20 illiyi münasibəti ilə Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında geniş auditoriya qarşısında geniş və rəngarəng konsert proqramı ilə çıxış etdi. Konsert çox bəyənildi. Hər ifadan sonra tamaşaçılar dəqiqələrlə ifaçıları alqışlayırdılar. Bu, Bakı tamaşaçıları üçün də bir sürpriz oldu. Cəbhə bölgəsində, düşmənlə təmas xəttində belə bir ansamblın formalaşdırılması gözlənilməz idi.

Konsert proqramı “Qarabağ şikəstəsi” ilə tamamlandı. Demək olar, bütün tamaşaçılar ayaq üstündə, sağ əli sinəsində Qarabağın himni hesab olunan “Qarabağ şikəstəsi”ni böyük həyəcanla, ürək yanğısı ilə dinlədilər.

Konsertdə YAP-ın icra katibi Əli Əhmədov, onun müavinləri Mübariz Qurbanlı, Siyavuş Novruzov, millət vəkilləri, respublikanın tanınmış ziyalıları və muğam ustaları iştirak edirdilər. Üç gün sonra – noyabrın 10-da konsert proqramının videoyazısı bütöv şəklildə “Space” telekanalı ilə yayımlandı. Konsertdən sonra Xalq artisti, görkəmli muğam ustası Arif Babayev öz ürək sözlərini belə bölüşdü: “Allah, nə gözəl gənclər yetişib. Mən onlara baxdıqca hər birinin timsalında opera səhnəmizin Ərəbzəngisini, Leylisini, Məcnununu, Şah İsmayılını, Kərəmini gördüm”.

Bu həm bir sınaq, həm də Ağdam “Şur” ansamblının böyük qələbəsi idi.

“Şur” ansamblı ilə bağlı bir layihə həyata keçirməyi qərara almışdıq. Ansamblın ifasında ayrı-ayrı muğam dəsgahlarını yeni üslubda hazırlayıb diskə yazdırırdıq. “Şur”un ifasında hazırlanmış “Mahur-hindi”, “Çahargah”, “Rast”, “Bayatı-şiraz” dəsgahlarını, eləcə də bir çox xalq mahnılarını təkcə sıravi dinləyicilər yox, peşəkar musiqiçilər də yüksək qiymətləndirirdilər. Bundan əlavə, üç il ərzində rayonun musiqi məktəbləri kollektivlərinin ifasında “Sən ellərin İlhamı”, “O kənd bizim kəndimizdir”, “Salamat qal, ana”, “Gülümse, anne”, “Aruoza”, “Milyon qızıl gül”, “İgid əsgər” kimi musiqi kompozisiyalarını video-disklərə köçürmüşdük. Bütün

bu layihələr birbaşa mənim nəzarətim və rəhbərliyim əsasında həyata keçirildi. Hazır mahnı və muğamların video-disklərə köçürülməsi çətin proses idi. Xorun ifasında bir muğamın hazırlanması azı 6 ay çəkirdi. Hazır mahnıların diskə köçürülməsi üçün isə Bakıdan xüsusi qrup gəlirdi. Bu işdə bizə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucovun böyük köməyi dəydi.

2012-ci ildə artıq biz ağır bir işin öhdəsindən gələ bilmişdik - Quzanlıda səsyazma studiyası yaratmağa nail olmuşduq.

…Ağdam rayon əhalisinin təxminən 100 min nəfəri respublikamızın ayrı-ayrı şəhər və rayonlarında məskunlaşıb. Biz mütəmadi olaraq, Ağdam əhalisinin kompakt yaşadığı ərazi və məntəqələrə gedir, vətəndaşlarla görüşlər keçirir, onların problemlərini öyrənir, məcburi köçkünlərimizə hərtərəfli köməklik göstərirdik. Hər dəfə vətəndaşların qəbulundan sonra "Şur" ansamblının üzvlərinin iştirakı ilə konsertlərin keçirilməsi ənənə halını almışdı. Ansambl Sumqayıtda, Mingəçevirdə, Şəkidə və İsmayıllıda böyük konsert proqramları ilə çıxışlar etmişdi.

Bu qəbullar, görüşlər zamanı həmyerlilərimizin çöhrəsində sevinc, inam hissi müşahidə edirdim. Bəzən insanlar göz yaşlarını saxlaya bilmir, təsirlənirdilər. O göz yaşları sevincin, etimadın yaratdığı duyğular idi. Məcburi köçkün həyatı yaşayan bu insanlar dövlətin, hökumətin onlara qayğı, diqqət göstərdiyini görüb özlərini yalnız, kimsəsiz hiss etmir, duyğulanırdılar.

Ayrı-ayrı rayonlarda keçirilən belə görüşlərə gedəndə əvvəlcədən Ağdam rayonunda görülən quruculuq-abadlıq işlərini əks etdirən videosüjetlər hazırlatdırır, görüşlər zamanı nümayiş etdirir, əhali qarşısında hesabat verirdim.

Görüşlərdən sonra təşkil olunan konsert proqramlarına, teatr tamaşalarına yerli əhali də dəvət olunurdu. Onlar da konsert və tamaşaları məcburi köçkünlərlə bir yerdə izləyirdilər. Bununla biz məcburi

köçkünlərimizlə yerli əhali arasında daha sıx ünsiyyətin yaranmasına, bir-biri ilə qaynayıb-qarışmalarına yardımçı olmağa çalışırdıq.

Məcburi köçkünlərlə yerli əhali arasında ünsiyyət məsələsinə bir neçə dəfə rayonumuza gələn əcnəbi qonaqlarla söhbət zamanı da toxunulmuşdu. Əvvəla onu deyim ki, Ağdamda işlədiyim dövrdə ayrı-ayrı xarici ölkələrdən və beynəlxalq təşkilatlardan respublikamıza gələn müxtəlif nümayəndə heyətləri ilə rayon icra hakimiyyətində dəfələrlə görüşlərim olmuşdu. Belə görüşlərin sayı təxminən 25-ə yaxın idi.

Bəzən görüşlər zamanı qonaqlar məcburi köçkünlərlə yerli əhalinin necə yola getmələri ilə maraqlanır, arada münaqişə yaranıb-yaranmadığını soruşurdular. Mən həmin qonaqlara avropalıların Azərbaycandan öyrənə biləcək əsas iki cəhətin olduğunu örnək gətirirdim. Birincisi, Azərbaycan xalqının çox qonaqpərvər bir xalq olduğunu misal çəkirdim və deyirdim ki, Ağdam rayonundan olan məcburi köçkünlər Azərbaycanın hər yerində özlərini öz evlərindəki kimi hiss edə bilirlər - yerli əhali köçkünləri qonaq kimi hətta əzizləyir də. Avropanın Azərbaycandan öyrənə biləcəyi ikinci cəhətin isə tolerantlıq, dini dözümlülük olduğunu, müxtəlif millətlərin, fərqli təriqət məsublarının ölkəmizdə dinc yanaşı yaşadıqlarını nümunə gətirirdim.

...Məcburi köçkünlərin problemləri, onlara yaradılan şəraitlə tanış olmaq məqsədilə 2011-ci ildən etibarən xarici ölkələrdən gələn nümayəndə heyətləri, deputatlar, qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə Ağdamda tez-tez görüşlər keçirilirdi. Bakıdan qonaqların daha çox Ağdama istiqamətləndirilməsinin səbəbləri var idi. Qonaqlar Ağdam rayonunda böyük hörmətlə qarşılanır, hərtərəfli məlumat və bilgilərlə təmin edilir, Mədəniyyət evində muğam sənəti ilə, Uşaq xorunun ifası ilə tanış olurdular.

Bundan əlavə, gələn qonaqları işğal olunmuş ərazilərin tarixi, keçmişi, ermənilərin törətdikləri vəhşiliklər barədə məlumatlandırmağa da çalışırdıq. Bu işdə bir mənbənin bizə çox böyük köməyi dəyirdi.

2011-ci ilin may ayı idi. Həmyerlimiz, İnam Plüralizm Mərkəzinin sədri, yazıçı-publisist Vahid Qazi rayon icra hakimiyyəti ilə əlaqə saxlayıb Quzanlı qəsəbəsində  “Ağdam - Qafqaz Xirosiması və ruhlar şəhəri” sərgisinin açılmasına yardımçı olmağımızı xahiş etdi. Bir neçə gündən sonra Quzanlı qəsəbəsində üçgünlük sərgi təşkil olundu. Sərgi İnam Plüralizm Mərkəzi tərəfindən, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, “Qarabağ İctimai Forumu”nun təşkilati dəstəyi ilə həyata keçirilirdi. Sərgidə Ağdamda işğaldan əvvəl və işğaldan sonra çəkilmiş, xüsusi formada hazırlanmış 60 foto təqdim olunur, ingilis, alman, rus və Azərbaycan dilində hazırlanmış, Ağdam şəhərinin işğaldan əvvəlki və işğaldan sonrakı vəziyyətini əks etdirən 8 dəqiqəlik film nümayiş etdirilirdi.

Sərginin açılışına özüm şəxsən qatıldım və çıxış etdim. Çıxışımda layihənin böyük əhəmiyyət daşıdığını bildirdim, dedim ki, biz bu sərgiylə necə gözəl şəhərimizin olduğunu fəxrlə dünyaya göstərə, eyni zamanda şəhərin indiki halını dünya ictimaiyyətinin diqqətinə çatdırmaqla erməni vandalizmini əyani nümayiş etdirə bilərik.

Qeyd edim ki, sərgidə nümayiş olunan, dörd dildə hazırlanmış həmin 8 dəqiqəlik film sonralar xaricdən gələn nümayəndə heyətləri ilə görüşlər zamanı bizim əlimizdən tuturdu. Həmin filmin diskini 1000 nüsxə çıxartdırmışdım. Gələn qonaqların hər birinə o filmi seyr etdirir və həmin disklərdən onlara da verirdim.

...2011-ci ilin yay ayları idi. ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasye (Fransa), Robert Bradtke (ABŞ) və İqor Popovun (Rusiya) iştirakı ilə Ağdamda, “Tək çinar” deyilən ərazidə hərbçilər tərəfindən quraşdırılmış çadırda görüş təşkil olunmuşdu.

Görüşün əsas müzakirə mövzusu yerli hakimiyyət nümayəndələrinin əhalini güzəştli sülh müqaviləsinə hazırlamaq istiqamətində davamlı iş aparmaları ilə bağlı idi.

Amerikalı həmsədr Robert Bradtke mənə müraciət edərək soruşdu ki, bilirsinizmi müharibə olsa, nə baş verə bilər? “Bilirəm, -dedim - əgər müharibə başlasa, Dağlıq Qarabağda bir nəfər də erməni qalmaz, Azərbaycan ordusu erməniləri düz Yerevana qədər qovar”.

Ardınca üzümü rusiyalı həmsədr İqor Popova tutub əlavə elədim: “Əlbəttə, əgər Rusiya ermənilərə kömək göstərməsə”.

İqor Popov bic-bic qımışıb: “Yox, yox, - dedi - biz həmişə neytral olmağa çalışırıq”.

Həmsədrlərə açıq şəkildə bildirdim ki, əhali arasında sorğu aparmışam, Ağdam rayonunun əhalisi torpaqlarımızın sülh yolu ilə işğaldan azad olunmasını istəmir. Mən özüm də, əhalimiz də torpaqlarımızın yalnız müharibə yolu ilə azad olunmasının tərəfdarıyıq. Yoxsa gələcək nəsil bizi bağışlamayacaq. Torpaqlarımız sülh yolu ilə işğaldan azad olunsa, şəxsən mən öz vəzifəmdən istefa verəcəyəm.

Rusiyalı həmsədr İqor Popov mənə:

- Bayaq bildirdiniz ki, ermənilər yayın günü əkin yerlərini suvarmaq üçün Sərsəng su anbarından sizə su vermirlər, – dedi, - istəyirsinizsə, sizi Ağdamın rəhbəri ilə görüşdürüm, bu məsələni müzakirə edin.

“Ağdamın rəhbəri” deyəndə o, Ağdamın işğal olunmuş ərazilərinə ermənilər tərəfdən nəzarət edən şəxsi nəzərdə tuturdu. Söz mənə bərk toxundu:

- Mən – dedim, - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmuşam. Bu rayonun qanuni rəhbəri mənəm. O erməni Ağdamın işğal altında olan ərazisinə özü özünü təyin edib. O, dələduzdur. Dələduzları müdafiə edənlər isə siyasi dələduzlardır.

Həmin gün həmsədrlərlə söhbətimiz xeyli gərgin keçdi. Görüşün sonunda fransalı həmsədr Bernar Fasye xahiş elədi ki, onlarla şəkil

çəkdirim. Həmsədrlərlə şəkil çəkdirəndən sonra Bernar Fasyeyə dedim ki, mənimlə nə üçün şəkil çəkdirdiyinizin səbəbini anlayıram. Ona görə şəkil çəkdirdiniz ki, görüş haqqında rəhbərlərinizə hesabat verəndə məni göstərib deyəsiniz ki, Qarabağda müharibə istəyən adam budur.

Sözümü bitirəndə Bernar Fasye məndən ixtisasımı, əvvəllər harada işlədiyimi, nə işlə məşğul olduğumu soruşdu. Mən ixtisasca tarixçi olduğumu, əvvəllər müəllim işlədiyimi dedim.

...Xaricdən, xüsusən də Avropa ölkələrindən gələn nümayəndə heyətləri ilə görüşlər zamanı həmişə onların bir xüsusiyyətini müşahidə etmişdim. Əgər sənin danışdıqların onlar üçün maraq kəsb edirdisə, o saat dəftərlərini açıb dediklərinlə bağlı qeydlər götürürdülər. Yox, əgər deyilənlər onların həmişə eşitdikləri kimi ümumi sözlər idisə, maraqlı deyildisə, onda əllərini çənəsinə dayayıb sakit-sakit gözlərini danışan adama zilləyir, hətta bəzi hallarda mürgü də vururdular.

2012-ci ildə Avropa İttifaqından Ağdama böyük tərkibdə nümayəndə heyəti gəlmişdi. Heyətdə 12 nəfər deputat var idi. Nümayəndə heyətinin üzvləri Ağdam barədə verdiyim geniş məlumatı dinləyəndən sonra deputatların, demək olar, hər biri ayrılıqda mənə bir-iki sual verdilər.

Bir nəfər qadın deputat üzünü mənə tutub elə-belə də dedi:

- Azərbaycanın təbiəti çox gözəldir, zəngin neft ehtiyatlarınız da var. Axı, sizin nəyiniz çatmır?

- Düzdür, bizim hər şeyimiz var, - cavab verdim, - təkcə bəxtimiz yoxdur. Bəxtimiz olsaydı, Allah bizə Ermənistan kimi təcavüzkar qonşu qismət eləməzdi...

Hər birinin baxışları mənə tərəf yönəlmişdi. Sözlərimə davam elədim:

- Hörmətli qonaqlar, hamınız bilirsiniz, bizim qonşularımızdan üçü bu dövlətlərdir - Rusiya, İran və Ermənistan. Birincisi Rusiya Federasiyasıdır ki, o, dünyanın çəkindiyi iki dövlətdən biridir. Bu dövlət

nüvə silahının olmasına güvənib bütün dünyanı hədələyir. Qonşumuz olan ikinci dövlət də İran İslam Respublikasıdır – o da atom bombası hazırlayacağı ilə dünyaya hədə-qorxu gəlir. Üçüncü qonşumuz Ermənistan isə artıq 100 ildir, havadarlarının köməyi ilə Azərbaycanın əzəli torpaqlarını zəbt eləmək hesabına özünə dövlət qurub. Bu gün Ermənistan dünyanın qorxduğu dövlətlərlə birləşib torpaqlarımızı işğal edib, amma sizin təmsil etdiyiniz dövlətlər Ermənistanı təcavüzkar dövlət kimi tanımır. Avropa ölkələrinin təcavüzkara leqeyd münasibəti dünyada daha pis tendensiyaların yaranmasına rəvac verir. İndi sizə sual verirəm, hər hansı bir dövlətin zəngin neft yataqlarının olması yaxşıdır, yoxsa sülhsevər dövlətlərlə qonşu olması?..

İnandırıram sizi, deməyə söz tapa bilmirdilər, hər kəsin matı-qutu qurumuşdu.

Mən həmişə Ağdama gələn xarici qonaqlarla görüş zamanı onlara bildirirdim ki, Avropa, Qərb dünyası Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyətini dünyanın müsəlman dövlətləri arasında nümunə kimi qəbul edib bu dövlətlərin modelinin başqa müsəlman ölkələrində də tətbiqinə yardım göstərsələr, dünya sivilizasiyasına daha böyük töhfələr vermiş olarlar. Yoxsa müsəlman dövlətləri arasına təfriqə salıb kütləvi insan qırğınına rəvac verməklə heç nəyə nail olmaq mümkün deyil. Dünyanı qan çanağına döndərib qaçqınların Avropaya axınına səbəb olmaq yaxşı heç nə vəd etmir.

Belə görüşlər zamanı xarici qonaqlar məni diqqətlə dinləyir, hətta bir çoxu xahiş edirdi ki, müəyyən qeydlər götürə bilmələri üçün bir qədər asta-asta danışım.

Adətən görüşlərdən sonra qonaqları nahara dəvət edirdim. Bəzən nahar zamanı protokoldan kənar mövzulara toxunur, bir-birimizin fikirlərini öyrənir, polemikalar aparırdıq. Avropalı deputatların da olduğu həmin nümayəndə heyəti ilə naharın sonunda üzümü qonaqlara tutub onlara bir sual vermək istədiyimi bildirim.

Nümayəndə heyətinin rəhbəri dedi ki, buyurun, sualınızı eşidirik.

- Əgər, - dedim, - Azərbaycan ordusu qəfil hücuma keçib işğal olunmuş torpaqları azad etsə, siz deputatlar bu məsələyə necə reaksiya verərsiniz?

Məclisdə olan 12 nəfər deputat ingilis dilində öz aralarında bir xeyli mübahisə etdikdən sonra heyətin rəhbəri mənə üz tutdu:

- Biz Azərbaycanın torpaqları müharibə yolu ilə azad etməsinə pis baxacağıq, bunu mənfi qarşılayacağıq. Bizim, burada əyləşənlərin hamısının rəyi belədir. Çünki Azərbaycan dövləti Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək barədə öhdəlik götürüb.

Onlara bu mövzuda daha heç nə demədim. Və bir daha əmin oldum ki, biz işğal altındakı torpaqlarımızın azad edilməsi məsələsində yalnız və yalnız Azərbaycan ordusuna güvənməliyik, vəssalam!

Xarici qonaqlardan, nümayəndə heyətlərinin səfərlərindən söz düşdü, xarici jurnalistlərin səfəri ilə bağlı bir hadisəni xatırladım.

2010-cu ilin qışı idi. Ağdam rayonuna Almaniyadan bir neçə nəfər jurnalist gəlmişdi. Onları məcburi köçkünlər üçün salınmış “Bənövşələr” qəsəbəsinə apardım. Jurnalistlər məcburi köçkünlərlə bir xeyli söhbət etdilər, onların məskunlaşma şəraiti ilə tanış oldular, problemləri və qayğıları ilə maraqlandılar, məqalə hazırlamaq üçün lazım olan materiallar topladılar.

Heyətin rəhbəri qəsəbəni tərk etməzdən əvvəl yaxınlaşıb mənimlə bir qədər söhbət etmək istədiyini bildirdi. Razılaşdım.

Qonaq dərhal mətləbə keçdi:

- Siz ruslarla uzun illər bir dövlətin tərkibində yaşasanız da, deyəsən Rusiyanın apardığı siyasətin mahiyyətini başa düşə bilmirsiniz.

Nə demək istədiyini geniş şəkildə izah etsin deyə, özümü o yerə qoymadım:

- Sizin nə demək istədiyinizi tam anlamıram. – dedim.

Alman jurnalist:

- Sizə bir sual verəcəm. – dedi, - Rusiya dünyanı faşizmdən xilas elədiyi halda niyə bu gün həmin dünya Rusiyanı qətiyyən sevmir? Ona görə ki, Rusiya dünyanın bir hissəsini zorla əlinin altında saxlamaq istəyir və hələlik buna nail ola bilir. Bu problemi – Qarabağ münaqişəsini də Rusiya özü yaradıb. Nə qədər ki, Rusiya at belindədir, bu məcburi köçkünlər öz yurd-yuvalarına qayıda bilməyəcəklər. Ən yaxşı variant fürsət yaranmasını gözləməkdir. Torpaqları işğaldan azad etmək üçün nə vaxtsa o fürsət əlinizə düşəcək. Baxın, indiki Kalininqrad vilayətini ruslar 1945-ci ildə işğal ediblər, halbuki həmin torpaqlar tarixən almanlara məxsus olub. Biz neçə illərdir, gözləyirik ki, almanların əlinə fürsət düşsün, həmin vilayəti rus işğalından azad edək. Sizin bir üstünlüyünüz var ki, Dağlıq Qarabağı dünya dövlətlərinin heç biri rəsmən tanımır. Ona görə də fürsəti gözləyib imkan düşən kimi torpaqlarınızı işğaldan azad edə bilərsiniz.

Alman jurnalistin bu sözlərini tez-tez xatırlayıram...

***

Hər həftənin şənbə və bazar günləri Quzanlı qəsəbəsində, məcburi köçkünlər üçün yeni salınmış qəsəbələrin parklarında geniş konsert proqramları təşkil olunurdu. Uşaqdan-böyüyə hamı “Şur” ansamblının ifasından, repertuarından razılığını bildirir, tədbirlərdə sona qədər iştirak edirdi.

Müşahidə apardıqca görürdüm ki, ev-eşiklərini itirmiş insanlar bu görüşlərdən təskinlik tapır, özlərini qəriblikdə yox, onları sevən, ehtiram

göstərən insanların əhatəsində hiss edirlər. Bu, bizə də rahatlıq verirdi. Həmyerlilərimizin bu konsert axşamlarından, tamaşalardan məmnun qaldıqlarını, 2-3 saatlıq olsa da, mənəvi rahatlıq tapdıqlarını görəndə sevinirdik ki, neçə vaxtdan bəri Ağdam teatrının, “Sur” ansamblının fəaliyyətini dirçəltmək istiqamətində apardığımız işlər, çəkdiyimiz zəhmət hədər getməyib.

Bu ənənə mən Ağdam rayonunda fəaliyyət göstərdiyim son günə qədər davam etdirildi. Amma təəssüf ki, mən təqaüdə çıxandan - 2014-cü ilin aprel ayından sonra bir dəfə də olsun “Şur” ansamblının konserti təşkil olunmadı və onun fəaliyyəti ilə heç kim maraqlanmadı.

***

Ağdam rayonunda mədəniyyət və incəsənət sektorunun durumundan danışarkən Ağdam Musiqi Kollecinin fəaliyyətinə toxunmamaq olmaz.

Rayonun mədəni həyatında həmişə xüsusi çəkisi olmuş bu musuqi kollecinin də durumu 2009-cu ilin payızına qədər o biri mədəniyyət müəssisələri kimi bərbad halda idi. Qısa müddət ərzində kollecin yerləşdiyi ərazini hasara alıb zəruri təmir işləri gördük. Kollecin direktoru Laura xanım Ağayevanın gərgin əməyi sayəsində az bir vaxtda pedaqoji kollektiv və tələbələr arasında nizam-intizam, dərsə davamiyyət bərpa olundu. Qeyd edim ki, Laura Ağayeva Ağdam Musiqi Kollecinə 1990-cı ildən rəhbərlik edirdi. Kollektivdə böyük hörmətə və nüfuza malik idi. Peşəkar musiqiçi kimi o, “Şur” ansamblının və xor kollektivinin yaradılmasında da mühüm rol oynadı. Laura xanımın ən böyük xidməti isə indiyə qədər Ağdam Musiqi Kollecinin öz fəaliyyətini davam etdirməsi, musiqi ocağının bağlanmaması üçün əlindən gələni əsirgəməməsi idi.

1993-cü ildə Böyük Ağdamın işğalından sonra sığınacaq tapa bilməyən idarə, müəssisə, tibb ocaqları və məktəblər fəaliyyətlərini birdəfəlik dayandırmağa məcbur idilər. Amma Laura xanımın sayəsində kollec ən çətin günlərdə belə fəaliyyətini dayandırmamışdı. Bir müddət

Bərdə rayonunun köhnə Mədəniyyət evində fəaliyyət göstərən musiqi kollektivi sonradan Quzanlı kəndinə köçürülmüşdü.

***

Qarabağın ən sınanmış seyid ocaqlarından birinin nümayəndəsi olan Seyid Lazım ağa təkcə Ağdamda, Qarabağda yox, bütün Azərbaycanda böyük hörmət və nüfuz sahibi idi. Ağanın nəslinin 4-cü şiə imamı Zeynalabdinin nəslinə mənsub olduğu deyilir.

1880-ci ildə Laçın rayonunun Böyük Seyidlər kəndində anadan olan Seyid Lazım ağa kiçik yaşlarından Ağdama köçüb. Deyilənlərə görə, ötən əsrin əvvəllərində Ağdamın Çəmənli kəndində yüzbaşı Alı bəy adlı xeyirxah bir insan yaşayırmış. Alı yüzbaşı Seyid Lazım ağanın ata-babası ilə çox yaxın dost olub. O, Seyid Lazım ağanın ailəsini Çəmənli kəndinə dəvət edib və burada yaşaması üçün hər cür şərait yaradıb. Sonradan ağa ailəsi ilə birlikdə Şıxbabalı kəndinə köçüb və orada yaşayıb. Seyid Lazım ağa yeniyetmə yaşlarında - 1914-1918-ci illərdə Soltan bəyin dəstəsində erməni daşnakı Andronikə qarşı vuruşub. Ümummilli lider Heydər Əliyev hələ 1970-ci ildə Ağdam rayonuna səfər edərkən şəxsən Seyid Lazım ağanı ziyarət etmişdi.

Böyük əxlaq sahibi olan bu əvəzsiz şəxsiyyətin 114 illik həyatı möcüzələrlə dolu olub. Qarabağda çətinliyə düşən insanlar həmişə Seyid Lazım ağanın cəddini çağırar, ona pənah apalardılar. Ağdamda kiminsə nəyəsə yalandan and içməsi, bəlkə də, mümkün idi, amma heç kim cürət edib yalandan Seyid Lazım ağanın cəddinə and içməzdi.

Təsadüfi deyil ki, ağa ilə bağlı dillərdə çoxlu rəvayətlər dolaşır. Deyilənlərə görə, 1993-cü ildə Ağdam uğrunda gedən qanlı vuruşmalarda bir nəfər türkiyəli jurnalist əsgərlərlə birlikdə mühasirəyə düşür. Aramsız yağan qrad atəşlərindən xilas olmaq üçün əsgərlər Seyid Lazım ağanın cəddini köməyə çağırırlar. Atılan qradlar elə göydəcə istiqamətini dəyişir, başqa səmtə düşür. Bu hadisənin şahidi olan həmin

jurnalist Seyid Lazım Ağanın sorağı ilə onun Mingəçevirdəki evinə gəlib çıxır.

Seyid Lazım ağa məcburi köçkün kimi məskunlaşdığı Mingəçevir şəhərində 1994-cü ildə vəfat edib. Öz vəsiyyətinə əsasən Ağdam rayonunun Çəmənli kəndində dəfn olunub. Həmin gündən Seyid Lazım ağanın Çəmənli kəndindəki məzarı Qarabağ camaatının ziyarətgahına çevrilib. İnsanlar ağanın məzarını bir ümid yeri bilir, həmişə onun ziyarətinə gəlir, murad diləyirlər. Mən özüm Ağdama hər gəlişimdə Seyid Lazım ağanın ocağını ziyarət etmişəm.

Ağdam rayonuna təyinat alandan bir neçə gün sonra ziyarətgahda müasir üslubda 40 nəfərlik böyük bir çardaq inşa etdirdik.

Uzun illərdən bəri isti münasibət saxladığım, milliyyətcə yəhudi olan Arzu adlı bir tanışım 2012-ci ildə Ağdama gələrək mənimlə görüşdü. Söhbət zamanı Seyid Lazım ağanın ziyarətgahını təmir etdirmək istədiyini bildirdi. İstəyinin səbəbini soruşanda Arzu müəllim dedi ki, həm Seyid Lazım ağanın nəvəsi ilə dostluğu var, həm də bununla xeyriyyəçilik etmək istəyir. Dərhal razılıq verdim.

Ziyarətgahdakı təmir işləri təxminən bir il davam etdi. Tikintini texnika ilə təmin etməyi, eləcə də digər texniki işləri mən öhdəmə götürdüm. Yerdə qalan bütün xərclər Arzu müəllimin üstünə düşürdü. O, tikintiyə təxminən bir milyon manata qədər vəsait xərclədi və nəticədə möhtəşəm bir kompleks ərsəyə gəldi.

Ziyarətgahda iş getdiyi müddətdə hər 2-3 gündən bir tikintiyə baş çəkirdim. Nə vaxt Çəmənli kəndinə gedirdimsə, Arzu müəllimi həmişə iş başında görürdüm. Naharı da fəhlələrlə bir yerdə edirdi.

Ziyarətgahın həyətində qadın və kişilər üçün ayrı-ayrılıqda iki böyük mərasim zalı inşa olundu, bütün avadanlıqlarla təmin edildi. Mərasim evində keçirilən ilk tədbir ulu öndərimiz Heydər Əliyevin vəfatının 9-cu ildönümü ilə əlaqədar verilən ehsan məclisi oldu.

Seyid Lazım ağanın ziyarətgahının məhz Ağdam rayonu ərazisində olmasının və təmir edilib abadlaşdırılmasının bir neçə səbəbdən müstəsna əhəmiyyəti var idi.

Hər şeydən əvvəl, öz yurd-yuvasından didərgin düşmüş insanların daxilən təskinlik, rahatlıq tapa bilmələri baxımından ziyarət edəcəkləri müqəddəs bir məkanın olması, o məkanın ümid, pənah yerinə çevrilməsi çox vacib idi. Üstəlik, Ağdamdan kənarda yaşayan, ölkənin ayrı-ayrı rayonlarında məskunlaşan onminlərlə əhali mütəmadi şəkildə ziyarət üçün düşmənlə təmas xəttində yerləşən Çəmənli kəndinə gəlib getməklə həm də orada yaşayan insanlara ürək-dirək vermiş olur. Ətraf rayonlardan da ziyarətgaha gedib-gələnləri nəzərə alsaq, bu, böyük insan kütləsi deməkdir.

Ən əsası da, ziyarətgahda Seyid Lazım ağanın nəvəsi Mir Yusif ağanın özünün oturması, oraya gələn insanları şəxsən özünün qəbul etməsi, onlarla birbaşa ünsiyyətə girməsi ziyarətçilər üçün olduqca önəmli idi.

Mir Yusif ağa ilə dəfələrlə ünsiyyətdə olmuş bir adam kimi deyə bilərəm ki, şəxsən mən indiyəcən Azərbaycanda dövlətinə, dövlətçiliyinə, ulu öndərimiz Heydər Əliyev yoluna onun qədər sədaqətli din xadimi ilə rastlaşmamışam. Mir Yusif ağa həmişə bütün söhbətlərində əhaliyə ürək-dirək verib, onları dözümlü və səbirli olmağa səsləyib, insanlara tezliklə torpaqlarımızın işğaldan azad olunacağını təlqin edərək ruh yüksəkliyi yaratmağa çalışıb. Mir Yusif ağa yüksək intellekti, maraqlı söhbətləri, səmimiyyəti və yüksək natiqlik qabiliyyəti ilə insanların məhəbbətini qazanmış müdrik bir insan, xeyirxah bir vətən övladıdır.

***

Möhtərəm oxucu!

Yazı boyunca hər hansı bir mövzuya toxunarkən Ağdamda fəaliyyət göstərdiyim dövrü tez-tez əvvəlki və sonrakı illərlə müqayisəli şəkildə təhlil edəndə, elə çıxmasın ki, məqsədim özümü öymək, öz şənimə tərif deməkdir. Əsla! Tək niyyətim bu illər ərzində Ağdam rayonunda nələr baş

verdiyini ardıcıllıqla diqqətə çatdırmaq, Siz oxucuların hərtərəfli və dürüst qənaətə gəlməyinizə yardımçı olmaqdır. Hər məsələdə fərq müqayisədə ortaya çıxdığı kimi, görülən işin miqyası da məhz mərhələli və sistemli təhlildə müfəssəl təsəvvür yaradır.

Ağdama təyinat aldığım ilk günlərdən diqqətdə saxladığım başlıca məsələlərdən biri də rayonun idarə-müəssisə rəhbərlərinin vətəndaşlardan gələn ərizə və şikayətlərə nə dərəcədə ciddi yanaşdıqlarını araşdırmaq oldu. Qısa araşdırmadan sonra öyrəndim ki, icra nümayəndəliklərində, idarə və təşkilatlarda heç vətəndaşların qəbulu kitabı da yoxdur. Məlum oldu ki, ötən 16 il ərzində rayon rəhbərliyi vətəndaşların müraciətlərinə qeyi-ciddi, laqeyd münasibət göstərib.

Bu səhlənkarlığa son qoymaq məqsədilə qərara aldım ki, vətəndaşların ərizə və şikayətlərinə baxılması üçün idarə və təşkilatların rəhbərlərinin iştirakı ilə hər həftənin çərşənbə və cümə günləri qəbullar təşkil edilsin. Özümün də iştirak etdiyim qəbullar çərşənbə günləri rayon icra hakimiyyətinin binasında, cümə günləri isə ayrı-ayrı kənd və qəsəbələrdə keçirilirdi. Bundan əlavə, ayda bir dəfə Bakıda və Ağdam əhalisinin daha çox məskunlaşdığı iri şəhərlərdə vətəndaşlarla görüşlərimiz olurdu. Hər görüş, hər qəbul zamanı vətəndaşları diqqətlə dinləyir, dərd-səri ilə maraqlanır, problemlərin aradan qaldırılması ilə bağlı əməli tədbirlər görürdük.

Bir halda ki, söz vətəndaş-rəhbər münasibətlərindən düşdü, müxtəlif sahələrdə fəaliyyət göstərdiyim müddətdə qazandığım iş təcrübəmə və müşahidələrimə əsaslanaraq bu məsələ barədə bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm.

Bu illər ərzində gəldiyim qənaətə görə, hər hansı bir məsələ ilə bağlı rəhbər işçiyə müraciət edən vətəndaşın razı qalmasını şərtləndirən bir sıra mühüm amillər var. Bir də görürsən, səriştəsiz bir rəhbər şikayətə gələn vətəndaşa başdansovdu yanaşaraq ona yalandan vədlər verir və bununla da problemi həll etdiyini sanır. Amma unudur ki, vətəndaşı gözü yolda

qoymaqla, əslində, özünə əlavə problemlər yaradır. Ona görə də rəhbər işçi vətəndaşa heç vaxt yalan vəd verməməli, əksinə, ona qayğı və diqqətlə yanaşmalıdır. Qəbula gələn vətəndaş hətta bir az əsəbi olsa da, ilk ünsiyyət zamanı kobud davransa da, otağa daxil olarkən rəhbər işçi onu ovundurmağa çalışmalı, əyləşməsi üçün nəzakətlə yer göstərməli, diqqətlə dinləməli, sikayətçinin özünü sərbəst hiss etməsinə, heç nədən çəkinmədən dərdini aydın şəkildə danışmasına şərait yaratmalıdır. Hansı şikayətçi üz-gözünü turşudub duran rəhbərə dərdini danışar?

Əgər vətəndaş öz şikayətini ərizə ilə bildiribsə, ona cavab yazılı şəkildə verilməlidir. Rəhbər işçi qəbula gələn şikayətçini axıra qədər dinləməlidir. Vətəndaş öz problemlərini başqalarının yanında danışmaqdan çəkinərsə, onu təklikdə dinləmək daha münasibdir. Şikayət əsaslı, qanunidirsə və problemin həlli rəhbərin səlahiyyətindədirsə, məsələ müsbət həll olunmalı, yox əgər tələb qeyri-qanunidirsə, bununla bağlı ətraflı izahat verilməlidir ki, vətəndaş öz səhvini anlasın və əsassız şikayətindən əl çəksin. Əks halda, növbəti qəbul günü həmin şikayətçi ilə yenidən qarşılaşacaqsan.

Şikayətlərə operativ reaksiya vermək üçün rayon rəhbərinin qəbul günü tədbirə əhali ilə birbaşa işləyən idarə və müəssisələrin başçıları mütləq dəvət edilməlidir. Rayon icra hakimiyyəti başçısının şikayətlərlə bağlı vətəndaşlara verdiyi cavablar ədalətli və qanunauyğun olamalıdır. Ədalətli qərardan kimsə narazı qalmaz.

Möhtərəm oxucu!

Sadaladığım bu nüanslar rəhbər vəzifələrdə çalışdığım bütün dövrlərdə mənim əsas iş prinsipim olub. Rayonun idarə-müəssisə rəhbərləri, yerli icra nümayəndələri birmənalı şəkildə biliblər ki, vətəndaşların ərizə və şikayətlərinə biganə yanaşan, onları get-gələ salan kimsə məsuliyyətdən kənarda qalmayacaq və heç zaman bağışlanmayacaq. Ona görə də mənim rayona rəhbərlik etdiyim dövrdə vətəndaşların qəbulu, onların şikayətlərinin dinlənilib müvafiq tədbirlər görülməsi məsələsində ciddi nizam-intizam var idi.

***

Ağdam rayonunda yerləşən 190 saylı hərbi hissəyə 2012-ci ildə yeni komandir təyin etmişdilər. İşlərim nə qədər çox olsa da, vaxt tapıb onunla görüşmək üçün hərbi hissəyə getdim. Tanış olduq: polkovnik-leytenant Raquf Orucov! Tanışlıqdan sonra komandir məni çay süfrəsinə dəvət elədi. Söhbətimiz təxminən bir saat çəkdi.

Onu da deyim ki, bir vaxtlar mən özüm də zabit olmuşam. 1971-ci ildə hərbi xidmətdən qayıdanda artıq leytenant rütbəsində idim. Ona görə də hərbi işdən az-çox anlayışım var. Və bilirəm, əgər komandir əsgərini sevirsə, onun qayğısına qalırsa, əsgər də komandirini sevir, ona böyük ehtiram bəsləyir. Raquf Orucovun sevimli komandir olduğunu elə ilk ünsiyyətdən hiss elədim.

Söhbət əsnasında həm hərbi qüvvələrimizin itkilərinin qarşısını almaq, həm də dinc əhalinin təhlükəsizliyini qorumaq məqsədilə komandir məndən düşmənlə təmas xətti boyunca torpaq sədd çəkilməsinə kömək göstərilməsini xahiş etdi. Dedi ki, Bərdə rayonunda bir təşkilatda bu işi görə biləcək texnika var, özü də yalnız gecələr işləmək mümkündür ki, ermənilər texnikanı vura bilməsinlər.

Görüşdən çıxıb rayon icra hakimiyyətinə gəldim. Rayon icra hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Allahverən Əliyevdən komandirin dediyi texnikanın Bərdə rayonunda hansı təşkilatda olduğunu öyrənməsini xahiş etdim. Səhərisi Allahverən müəllim həmin texnikanın sürücüsü ilə birlikdə yanıma gəldi. Qısa söhbətdən sonra sürücü təmas xəttində işləməyə razılıq verdi. Çətinliklə də olsa, 29 günə torpaq bənd çəkilişi başa çatdırıldı.

Raquf Orucovun növbəti xahişi hərbi hissənin həyətindəki meydançaya asfalt döşənməsi ilə bağlı oldu. Qısa müddətdə bu məsələni də həll etdik.

Görüşlərimizdən birində isə Raquf Orucov bir az utana-utana dedi ki, canlı qüvvə sarıdan itki verəndə həlak olan əsgərləri kəfənləyib ailələrinə təhvil vermək üçün hərbi hissədə lazımı şərait yoxdur. “Çox vaxt valideynlər özləri də yuyat yerinə girmək istəyirlər, - dedi – amma şərait olmadığına görə, həm komandir, həm də bir ağdamlı kimi xəcalət çəkirəm. Bizə kömək edin, bu problemi həll edək”. Mütləq kömək edəcəyimi dedim. Bir ay müddətinə hərbi hissənin yaxınlığındakı qədim bir məscidin həyətində bütün şəraiti olan yuyat yeri tikdirdik.

Ümumiyyətlə, Ağdamda işlədiyim müddətdə Raquf Orucov mənə dəfələrlə xahişlə müraciət etdi. Amma bu xahişlərin biri də şəxsi xarakterli deyildi. Onun bütün müraciətləri yalnız hərbçilərin həyat şəraitinin yaxşılaşdırılması və onların təhlükəsizliyi ilə bağlı idi.

Bayaq əsgərlərin Raquf Orucovu komandir kimi çox sevdiklərini hiss etdiyimi dedim. Bax həmin sevgi və ehtiram məhz Raquf Orucovun bir komadir kimi sözübütövlüyündən, ağayanalığından, qayğıkeşliyindən qaynaqlanırdı.

Raquf Orucovla müntəzəm görüşlərimiz olurdu. Onunla birlikdə tez-tez əsgərlərlə nahar edərdik. Bayramlarda onun komandiri olduğu briqadanın bütün heyəti üçün plov hazırladırdım. Əlavə olaraq, şirniyyat, mer-meyvə tədarükü də görüb hərbi hissəyə, hərbçilərlə bayramlaşmağa gedirdik.

Mənim rəhbərliyim dövründə Ağdam rayonunun bütün idarə və müəssisə rəhbərləri ayrı-ayrı hərbi hissələrə təhkim olunmuşdu, bütün hərbi hissələrə, hərbçilərə daima xüsusi diqqət göstərilirdi. Hərbi hissələrdə mütəmadi olaraq Ağdam “Şur” ansabmlının konsertlərini təşkil edir, keçirilən bütün tədbirlərə şəxsən özüm də qatılırdım.

Bir dəfə söhbət zamanı söz necə gətirdisə, Raquf Orucovdan soruşdum:

- Komandir, müharibə başlasa, düşmənə qalib gələ bilərikmi? Yetərincə gücümüz varmı?

Raquf Orucov:

- Əgər Ali Baş Komandan əmr versə, - dedi,- bizim briqada bir günə Ağdam şəhərini işğaldan azad edə bilər.

O zaman komandirin bu sözləri məni xeyli qürurlandırmışdı. Təsadüfi deyil ki, doğma torpağı düşməndən tezliklə azad etmək üçün hər an döyüşə hazır olan bu peşəkar zabit 2016-cı ilin aprel ayında Talış yüksəkliyi istiqamətində ordumuzun uğurla həyata keçirdiyi əks-hücum zamanı öz silahdaşları ilə birlikdə böyük qəhrəmanlıq göstərdi. Hələ gənc zabit kimi Murovdağ istiqamətindəki hərbi hissələrdən birində kəşfiyyat bölüyünün komandiri olarkən Raquf Orucovun düşmən arxasında bir neçə uğurlu əməliyyat keçirdiyi, əfsanəvi igidliyinə görə,  həm dövlət təltifinə layiq görüldüyü, həm də “Murov qartalı” kimi rəmzi bir ad aldığı barədə mən də eşitmişdim. Aprel döyüşlərində isə o, ən öndə gedən komandirlərdən biri kimi düşmənə ağır zərbə vurdu, lakin özü də qəhrəmancasına həlak oldu, şəhidlik zirvəsinə yüksəldi. Bu döyüş, Raqufun vaxtilə mənə dediyi kimi, göstərdi ki, ordumuz torpaqlarımızı düşmən tapdağından azad etməyə tam hazırdır! Mən bu igid eloğlumla fəxr edirəm. Onun şəhid olması məni dərindən kədərləndirdi. Raqufun Sumqayıt şəhərinin Şəhidlər Xiyabanındakı məzarını ziyarət edəndə bir daha şahid oldum ki, xalqımızın belə qəhrəmanlara necə böyük sevgisi, ehtiramı var...

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***

Yəqin razılaşarsınız, Ağdamın idman həyatından danışanda ilk növbədə “Qarabağ” futbol komandasından bəhs etməmək haqsızlıq olar.

Ona görə də işlədiyim müddətdə rayonda idmanın müxtəlif sahələrinin inkişaf etdirilməsi məqsədi ilə həyata keçirdiyimiz tədbirlərə toxunmazdan öncə bu gün bütün Azərbaycanın qürur duyduğu sevimli komandamızla bağlı bəzi mülahizə və fikirlərimi diqqətinizə çatdırmaq istəyirəm.

Məni "Qarabağ"a bağlayan hisslərin tarixi bu komandanın son illər Avropada qazandığı uğurların tarıxindən xeyli qədimdir. Yəni mən "Qarabağ"ı bu uğurlara imza atandan sonra yox, çox-çox əvvəllərdən sevmişəm. Əvvəllər "Şəfəq" adlanan bu komandanın Böyük Ağdamda - İmarət stadionunda keçirdiyi respublika və ümumittifaq səviyyəli oyunların təəssüratları bizim nəslin təmsilçilərinə, tay-tuşlarıma o torpaqlardan miras qalan ən əziz və munis gənclik xatirələrindəndir.

1987-ci ildən "Qarabağ" adlandırılan komanda 1991-ci ilin yayına qədər ev oyunlarını Böyük Ağdamda keçirirdi. Qarabağ savaşı şiddətlənəndən və Ağdam şəhəri işğal ediləndən sonra Ağdam əhalisi kimi "Qarabağ" futbol komandası da köçkün həyatı yaşamağa məhkum olundu. Bu ağır illər ərzində mən həm azarkeş, həm də bir ağdamlı kimi daima sevimli komandamın yanında olmağa çalışmış, əlimdən gələni etməyi özümə mənəvi borc bilmişəm. Hələ müxtəlif rayonlarda polis rəisi işlədiyim dövrlərdə komandaya maddi yardım göstərmiş, klub dağılmaq təhlükəsi ilə üzləşəndə lazımi dəstəyimi əsirgəməmişəm.

Yadımdadır, Masallı rayonunda polis şöbəsinin rəisi işləyirdim, "Qarabağ" komandasının o vaxtkı baş məşqçisi Adil Nadirov mənimlə əlaqə saxlayıb komandanın təlim-məşq toplanışını Masallıda keçirmək istədiklərini bildirdi və köməklik göstərməyimi xahiş etdi. O vaxtlar Masallının "Viləş" adlı güclü futbol komandası var idi. "Qarabağ"ın rəhbərliyi istəyirdi ki, həm "Viləş" komandası ilə birlikdə məşq eləsinlər, həm bu komanda ilə yoldaşlıq görüşü keçirsinlər. Dərhal "Qarabağ" komandasının 40 nəfərlik heyətini Masallıya dəvət elədim, komandanın rayonda yerləşməsi və qalması xərclərini öz boynuma götürdüm.

Bunları xatırlatmaqla demək istəyirəm ki, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı olandan sonra mənim “Qarabağ” komandasına göstərdiyim diqqət və qayğı qətiyyən tutduğum vəzifəyə görə deyildi. Bu duyğu mənim Ağdama, “Qarabağ” komandasına sevgimdən irəli gəlirdi.

“Qarabağ” futbol komandası ev oyunlarını Quzanlı qəsəbəsində keçirirdi. Komandaya lazımı şərait yaratmaq üçün biz əlimizdən gələni etmişdik. Quzanlı Olimpiya İdman Kompleksindəki stadionun yaşıl örtüyünü qoruyub saxlamaq böyük zəhmət və vəsait tələb edirdi. Komandanın rəhbərliyi rayon icra hakimiyyətinin bu işləri öz öhdəsinə götürməsini istəmişdi deyə, nə qədər çətin olsa da, mən razılaşmışdım. Rayon əhalisi komandanın Quzanlıda oynamasına çox sevinirdi, oyun günü stadionda bir dənə də boş yer olmurdu.

Sonradan komandanın rəhbərliyi ev oyunlarının Quzanlı qəsəbəsində keçirilməsini istəmədi. Düzü, bu məsələdə komanda rəhbərliyini yaxşı başa düşürdüm. Hər dəfə ev oyunlarını oynamaq üçün Bakıdan Quzanlıya 400 kilometr məsafəni qət etmək və oyuna çıxmaq çətin idi. Bu rejim oyunçuları yorurdu. Hələ üstəlik, oyundan sonra bir də təzədən o 400 kilometr yolu geri qayıtmaq lazım gəlirdi. Belə çıxırdı ki, komanda ev oyunlarında da səfər oyunlarındakı kimi uzaq yol qət etməlidir. Buna görə də komanda rəhbərliyinin bu qərarını anlayışla qarşıladım...

... Rayonda idmanın müxtəlif sahələrinin dirçəldilməsi, xüsusi ilə də yeniyetmə və gənclərdə idmana marağın oyadılması məqsədilə mövcud şəraitin verdiyi imkanlar daxilində müəyyən addımlar atmağa çalışırdıq. Peşəkar boksçu Fariz Məmmədovun köməyi ilə Ağdamda uşaq boks məktəbinin açılışına nail olmuşduq. Bundan başqa, Ağdamda güclü karate məktəbi də formalaşdıra bilmişdik. Hər il rayonda kəndlər arasında futbol və voleybol üzrə yarışlar təşkil edərdik. Bütün bunlar, əlbəttə, ilk növbədə əhalinin əhval-ruhiyyəsinin yüksəldilməsinə xidmət göstərən amillər idi.

Hər gün işdən sonra rayon icra hakimiyyəti aparatının əməkdaşları stolüstü tennislə məşğul olur, yarışlar təşkil edirdilər. Bu, az qala, ənənə

halını almışdı. Vaxt eləyəndə mən özüm də yarışlara qoşulurdum və özündən demək çıxmasın, o yarışlarda mənə bir dəfə də qalib gələn olmadı.

***

Ağdamda rayon icra hakimiyətinin başçısı kimi faəliyyətə başlayarkən əhali ilə isnişmək çox vaxt aparmadı. Təvazökarlıqdan uzaq çıxamasın, tez bir zamanda hiss elədim ki, insanlar mənə inanır, etimad göstərirlər. Artıq aradan bir neçə il keçib, indi oturub bu inam-etibarın kökünü axtarmağa çalışıram və düşünürəm ki, başlıca səbəb mənim Ağdamı, ağdamlıları böyük məhəbbətlə sevməyimdən irəli gəlirdi.

Elə ilk gündən, dediyim kimi, görəcəyim işlər barədə mütəmadi olaraq əhaliyə məlumat verirdim. Sözlə əməl düz gəlməyəndə, verdiyin vədlə gördüyün iş bir-birini tamamlamayanda, kim olursan-ol, 5-3 günün içərisində gözdən düşürsən. Mənim dediklərim də, elədiklərim də göz önündə idi. Ağdama gəldiyim bir neçə ay idi, qış qapını kəsdirmişdi, qısa müddətdə qəsəbələrin qazlaşdırılması prosesinin başlanmasına nail ola bildim. Hesab edirəm ki, bu addımım camaatın mənə inamını xeyli artırdı. Əhali rayonda apardığım kadr siyasətini də məmnunluqla qarşıladı. Kadrların düzgün seçilməsi, idarə və müəssisə rəhbərlərinə qarşı tələbkar münasibət rəhbər şəxs üçün vacib şərtdir. Kadrların cani-dildən çalışmaları, tutduqları vəzifənin məsuliyyətini dərk eləmələri, əhalinin problemləri ilə ciddi şəkildə məşğul olmaları diqqətdən yayına bilməzdi.

Ağdam rayonunda səriştəsiz, bacarıqsız idarə-müəssisə rəhbəri tapa bilməzdin. Amma tələbkarlıq çox aşağı səviyyədə idi. Bir yandan da vəzifəli adamlar arasında çəkişmələr, dedi-qodu, danosbazlıq yüksək həddə çatmışdı. Mən rayona gələn kimi bu xaotik vəziyyətə son qoyulması üçün əlimdən gələni etdim və qısa zamanda müsbət irəliləyişlərə nail ola bildik.

Rayon icra hakimiyyəti başçısının rəhbər vəzifəyə təyin etdiyi kadrlar, adətən, o rayonun əhalisi arasında çeşidli müzakirələrə yol açır. Filankəsin filan vəzifəyə niyə təyin edildiyi, hansı meyarların əsas

götürüldüyü kimi söz-söhbətlər dolayısı ilə həm də icra hakimiyyəti başçısının fəaliyyətinə əhalinin münasibətini ortaya qoymuş olur. Müzakirələrin yekununda gəlinən nəticə bilavasitə əhalinin rayon rəhbərindən nə dərəcədə razı olub-olmamasını müəyyənləşdirir: məsələn, icra başçısı rayona həqiqətənmi işləmək, iş görmək üçün gəlib, yoxsa öz maraqlarını reallaşdırmaq məqsədilə, icra başçısı vəzifəyə insanları qabiliyyətinə, işgüzarlığına görə təyin edir, yoxsa rüşvətlə, icra başçısı qohumbazlığa yol verir, yoxsa yalnız peşəkarlıq keyfiyyətlərini və haqq-ədaləti əsas götürür? Bu mənada vəzifəyə təyin olunan kadrların kimliyi ictimai fikrin formalaşmasında çox böyük rol oynayır.

İşə başlayandan az sonra uzun illərdən bəri Ağdam rayonunda tələbkar, zəhmətkeş insan kimi tanınan Zülfü Qasımov mənim təqdimatımla rayon icra hakimiyyəti başçısının birinci müavini vəzifəsinə təyin olundu. Bu təyinat əhali arasında böyük razılıqla qarşılandı. Hamı anladı ki, mən rayona əsaslı işlər görmək niyyəti ilə gəlmişəm və insanları vəzifəyə kiminsə, nəyinsə xatirinə yox, xalqa xidmət etmək naminə təyin edirəm.

Əhalinin mənə inanmasının, etibar etməsinin bir səbəbi də respublikanın müxtəlif rayonlarında polis rəisi işlədiyim dövrlərdə həmişə qarabağlıların, ağdamlıların imdadına çatmağım idi. Polis rəisi işlədiyim hər rayonda həmişə deyirdim ki, hər kəs məcburi köçkün düşmüş əhaliyə hörmətlə yanaşmalı, onların problemlərinin həllinə köməklik göstərməlidir. Fəaliyyətim boyu elə bir hal yadıma gəlmir ki, ya bir qarabağlı, ya da ağdamlı kömək üçün mənə müraciət etsin, amma onun xahişi müsbət həll olunmasın. Rəhbəri olduğum kollektivdə elə bir ənənə formalaşmışdı ki, polis əməkdaşları köçkünlərimizin problemlərinin çoxunu mənə məruzə etmədən, özləri yoluna qoyurdular.

1993-cü ilin yayında - Böyük Ağdam erməni işğalına məruz qalan günlərdə İmişli rayonunda polis rəisi vəzifəsində işləyirdim. Ağdamdan insanlar mənə müraciət edərək bildirirdilər ki, evlərini çıxarmaq üçün

nəqliyyat vasitələrinə ehtiyacları var. Qısa vaxtda bütün imkanları səfərbər edib onlara 500-dən çox yük maşınının ayrılmasına nail oldum. O günləri indi də böyük ürək ağrısı ilə xatırlayıram. Öz ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalan insanların çöhrəsindəki iztirabları görmək adama çox ağır gəlirdi.

Yenə həmin vaxtlar idi. Ağdam rayonunun Qiyaslı kəndindən olan Əli adlı bir nəfər taksi sürücüsü İmişliyə, yanıma gələrək məndən kömək istədi, bildirdi ki, Ağdamın çətin günlərində uşaqlarını Bakı şəhərinə apararkən tələsib və yolda sürət həddini aşmağa məcbur olub, magistral yol polisi əməkdaşı onun sürücülük vəsiqəsini alaraq müəyyən şərtlər irəli sürüb.

Mərkəzi yollara nəzarət edən yol polisi əməkdaşları yerli polis rəislərinin tabeliyində xidmət göstərmirdilər. Mən həmin yol polisi əməkdaşını axtaranda məlum oldu ki, xidmət saatını bitirəndən sonra Bakı şəhərinə qayıdıb. Həqiqətən, çox pis olmuşdum. Ağdamın ağır günlərində əhalinin yurdsuz-yuvasız vəziyyətdə olduğunu nəzərə almayan polis əməkdaşının hərəkəti məni bərk sarsıtmışdı. Növbəti gün yol polisi əməkdaşını tapdım. O, çalışırdı günahına bəraət qazandırsın ki, əməlində qanunazidd heç nə yoxdur. Ona izah elədim ki, müharibə gedən bir ölkədə ailə üzvlərini döyüş zonasından çıxaran sürücü sürət həddini aşırsa, dövlət nümayəndəsi onu yalnız alqışlaya bilər.

1994-cü ildə Ağdaş rayonunda polis rəisi vəzifəsində işləyirdim. Soyuq qış günlərindən biri idi. Rayonun “Kəndtikinti” idarəsinin fərdi təsərrüfatında məskunlaşmış 10 ailə ilə bağlı problem yaranmışdı. Məsələ belə idi: “Kəndtikinti” idarəsinin rəisi rayona ilk qar yağan günü köçkünlərdən tələb etmişdi ki, yaşadıqları fermadan çıxsınlar. Bəhanə gətirmişdi ki, guya məcburi köçkünlərin mal-qarasında olan xəstəlik onun mal-qarasına da yoluxa bilər.

Dərhal həmin idarənin rəisi ilə əlaqə saxlayıb onunla polis şöbəsində görüşmək istədiyimi bildirdim. “Kəndtikinti” idarəsinin rəisi rayon icra

hakimiyyəti başçısının birinci müavininin qohumu idi. Görüşəndə idarənin rəisindən xahiş etdim ki, qış mövsümü başa çatana qədər məcburi köçkünlərə möhlət versin. Məsələnin yazda hökmən həll olunacağını bildirdim.

+++++++++

Davranışından hiss olunurdu ki, o mənim dediklərimə biganə yanaşır və xahişimə əməl etmək niyyəti yoxdur. Ona görə də otaqdan çıxarkən dediklərimi bir daha təkrarladım. Sonra problemin müsbət həllinə nail olmaq üçün rayon icra hakimiyyətinin başçısından və onun müavinindən də xahiş etdim. Söhbət əsnasında başa düşdüm ki, köçürmə planı elə rayon rəhbərliyinin işidir. Təxminən bir saatdan sonra xəbər gəldi ki, məcburi köçkünlərin ev əşyalarının bir hissəsini yaşadıqları yerlərdən küçəyə töküblər.

Polis rəisinin müavini başda olmaqla 20 nəfər polis əməkdaşını hadisə yerinə göndərdim, göstəriş verdim ki, “Kəndtikinti” idarəsinin rəisini polis əməkdaşlarının qanuni tələbinə əməl etmədiyi halda müvəqqəti saxlama təcridxanasına salsınlar, məcburi köçkünləri yaşadıqları yerlərə qaytarsınlar.

Göstəriş yerinə yetirildi. Təxminən 10 dəqiqə sonra polis şöbəsinin növbətçisi mənə məruzə elədi ki, rayonun icra başçısı sizin iş otağınıza qalxır. İcra başçısı tikinti idarəsi rəisinin dərhal azad olunmasını tələb etdi, mən qəti şəkildə etirazımı bildirdim. Qəzəblənən icra başçısı daxili işlər nazirinin müavinlərindən biri ilə telefon əlaqəsi saxlayıb məndən şikayət etdi. Amma qərəzli və əsassız olduğundan onun şikayətinə heç kim məhəl qoymadı.

Bu hadisə rayonda böyük əks-səda doğurdu, icra başçısı, onun birinci müavini ilə aramızda münaqişə yarandı. Rayon icra hakimiyyətinin başçısı ilə iki ay küsülü qaldıq. Təsəvvürünüzə gətirin, məni heç rayonda keçirilən tədbirlərə də dəvət etmirdilər. Amma mən bütün bunlardan zərrə qədər də

narahatlıq keçirmirdim. Məni narahat edən bu adamların qışın soyuğunda məcburi köçkünləri məskunlaşdıqları yerdən didərgin salmaq cəhdləri idi. 10 ailənin təkrar köçkün düşməsinə yol verə bilməzdim. O zaman belə qətiyyətli davranmasaydım, yəqin bunu heç vaxt özümə bağışlamazdım.

Qeyd edim ki, həmin 10 ailənin 9-u Ağdərə rayonundan, biri isə Ağdamın Xaçın-Dərbənd kəndindən olan Fərman Abışov adlı şəxsin ailəsi idi.

...Su dirilikdir, su həyatdır, deyirlər. Bulaq çəkdirmək, əhalinin suya olan tələbatını ödəmək mənim hobbim olub. Hansı bölgədə işlədimsə, mütləq orada bir bulaq inşa elətdirib şəhidlərimizin ruhuna bağışladım, abidə ucaltdırdım, lövhələr yazdırdım.

1994-cü ilin əvvəllərində Ağdaş Rayon Polis Şöbəsinə rəis təyin ediləndə hələ atəşkəs elan olunmamışdı. Əhalinin döyüş gedən ərazilərdən köçü davam edirdi. Respublikanın başqa rayonları kimi Ağdaş rayonuna da köç edənlər var idi. Tələm-tələsik, təlaş içərisində ev-eşiyini tərk etməyə məcbur olan insanlar daha çox yol kənarlarında məskunlaşırdılar. Növbəti gecə reydlərindən birində Türyançaydan Bakı istiqamətinə gedərkən şosse yolunun kənarında bir köç maşınının saxladığını gördüm, sürücüyə göstəriş verdim ki, geriyə qayıtsın, bəlkə köçkünlərə köməklik göstərmək lazımdır. Maşını saxladıq, öyrəndim ki, köç edən bir ağdamlı ailədir. Maşını niyə yol kənarında saxladıqlarını soruşdum. Ailənin başçısı dedi ki, burda bir bulaq var, su içmək üçün dayanmışıq, həm də, düzü, getməyə yerimiz də yoxdur, bilmirik hara gedək.

Dərhal ratsiya ilə ətraf kəndlərin sahə müvəkkillərini çağırdım, göstəriş verdim ki, bu ailəni kəndlərindən birində yerləşdirmək lazımdır. Sahə müvəkkilləri o saat göstərişimi yerinə yetirdilər.

O gün oradakı bulaqdan mən də su içdim, əl-üzümü yudum. Həmin o ağdamlı ailə başçısı dedi ki, bu bulağın suyu insan orqanizmi üçün çox xeyirlidir, ona görə də bu suya “festal su” deyirlər. Həmin dəqiqə qərara

gəldim ki, burada gözəl bir bulaq kompleksi inşa etdirim. Çox qısa müddətdə həmin yerdə istirahət zonasına bənzər bir bulaq kompleksi inşa olundu. Mən bu ənənəni işlədiyim o biri rayonlarda -  Masallıda, Qubada da davam etdirdim. Sonralar isə Ağdam rayonunda üç yerdə bulaq komleksinin tikintisinə nail oldum. Bulaqların hər birinin üzərində bu sözlər yazılırdı: "Qarabağ uğrunda şəhid olanların əziz xatirəsinə".

Onu da deyim ki, Ağdaş Rayon İcra Hakimiyyəti başçısının birinci müavini olan, yaxın qohumunu məcburi köçkünlərə sayğısız münasibətinə görə həbs etdirdiyim o şəxs 1996-cı ildə rayon icra hakimiyyətinin başçısı vəzifəsinə təyin edildi. Mən isə az sonra Masallı Rayon Polis Şöbəsinin rəisi vəzifəsinə göndərildim. Sonralar eşitdim ki, əslən Ağdam rayonundan olan, hazırda Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi vəzifəsində çalışan Nazim Əliyev 1998-ci ildə Ağdaş rayonuna polis rəisi təyin edilərkən həmin icra başçısı Daxili İşlər Nazirliyinə etirazını bildirərək deyib ki, Ağdaşa kimi istəyirsinizsə, təyin edin, amma ağdamlı olmasın.

1993-1994-cü illərdə Azərbaycan çətin günlər yaşayırdı. Bölgələrdə icra hakimiyyəti başçıları ilə münaqişədə olan vəzifəli şəxslər barədə dərhal ölçü götürülür, tutduqları vəzifədən uzaqlaşdırılırdılar. Mən belə bir şəraitdə vəzifəmi itirməkdən çəkinməyərək insanlıq naminə haqq bildiyim heç bir məsələdə geri addım atmamış, axıra qədər mübarizə aparmışam, vicdanımı, ləyaqətimi həmişə qorumuşam və bu gün elə mövqe tutduğuma görə özümü xoşbəxt sayıram.

Ataların müdrik bir kəlamı var, deyir, ot kökü üstə bitər. Həyatın burulğanlarından keçib gəlmiş, insanların ən müxtəlif situasiyalardakı fərqli davranışlarının şahidi olmuş bir adam kimi illərin təcrübəsinə güvənərək deyə bilərəm ki, hər bir fərdin xarakterinin formalaşmasında onun yaşadığı mühitin, böyüyüb boya-başa çatdığı yurdun spesifik xüsusiyyətləri ilə yanaşı, genetik amillərin də məxsusi rolu var. Mənim atam, tanıyanlar indi də danışırlar, mübariz, qətiyyətli, haqqı nahaqqa

verməyən bir kişi olub. Mən gözümü açandan, ağlım kəsəndən onu belə görmüşəm və həmişə ondan öyrənməyə, əxz etməyə çalışmışam. İndi fikirləşirəm və bu qənatə gəlirəm ki, bütün fəaliyyətim dövründə istənilən situasiyalarda ortaya qoyduğum qəti mövqe, mübarizlik, yorulmazlıq kimi xüsusiyyətlərə görə mən, ilk növbədə, genetik yaddaşıma borcluyam.

Bir halda ki, söhbətimizin axarı atama gəlib çatdı, onunla bağlı indiyə qədər unutmadığım və bundan sonra da unutmayacağım bir hadisədən sizin də hali olmağınızı istəyirəm.

1972-ci il idi, Ağdam Kənd Təsərrüfatı Texnikumunda hərbi rəhbər işləyirdim. Bakıdan, Kənd Təsərrüfatı Nazirliyindən Dəmir müəllim adlı (soyadını unutmuşam) bir nəfər texnikuma ezamiyyətə gəlmişdi. Nazirlikdə şöbə müdiri vəzifəsində işləyirdi. Bir gün nahar fasiləsində söhbət edərkən mənə dedi ki, Böyük Vətən müharibəsi illərində Ağdam rayonunun hərbi komissarı olub. Şoruşdum ki:

- Atam Yəhya Sadıqov müharibə illərində bir neçə kənddə sovet sədri işləyib, bəlkə tanıyırsınız? - O vaxtlar sovet sədrlərinin hərbi komissarlarla sıx əlaqədə işlədiklərini bilirdim.

- Atanız sağdır? - deyə soruşdu.

- Bəli - dedim.

- O vaxtlar Sadıqov soyadlı bir nəfər sovet sədri tanıyırdım, ancaq adını unutmuşam. Onun yadımda qalmağına bir hadisə səbəb olub. – dedi. Bir qədər fikirləşəndən sonra atamla görüşmək istədiyini bildirdi. – Xahiş edirəm, mümkünsə, məni onunla görüşdürün. Əgər atanız mənim yadımda qalan adam olsa, onda sizə çox maraqlı bir hadisə danışacağam.

Elə həmin gün Dəmir müəllimi atamla görüşdürdüm. Görən kimi hər ikisi bir-birini tanıdı.

Süfrə arxasında xeyli söhbət elədik. Dəmir müəllim birdən üzünü atama tutub soruşdu:

- Sadıqov, müharibə illərində sizinlə işləyən zaman mənimlə bağlı hansısa qeyri-adi bir hadisə yadında qalıb, ya yox?

Atam:

- Dəmir müəllim, o vaxt bir məsələ ilə bağlı sizdən bir xahiş eləmişdim, siz də xahişimi yerinə yetirdiniz. İstəyirsinizsə danışım? – deyə soruşdu.

Dəmir müəllim:

- Buyurun, - dedi – danışın.

Atam belə bir hadisə danışdı:

- 1942-ci ildə mənim sədri olduğum sovetlikdə katib vəzifəsində işləyən bir nəfər xahiş elədi ki, bəs filan kənddə bir fağır kişi var, onu müharibəyə göndərin. Halbuki həmin kişi xəstə idi, hərbiyə tam yararlı deyildi. Səbəbini soruşdum, katib qayıtdı ki, hələlik mən bunun səbəbini sənə deməyəcəyəm. Amma bir qədər təkid eləyən kimi kişi niyyətini açıqladı.  Qayıtdı ki, Sadıqov, müharibəyə göndərmək istədiyim kişinin arvadını almaq istəyirəm. Soruşdum ki, bəs onda öz arvadın necə olacaq? Dedi, heç nə, onu boşayacağam. Elə bil məni ildırım vurdu. Amma bir qədər fikirləşib ona dedim ki, yaxşı, sənəköməklik edərəm. Elə ordanca gəldim hərbi komissarlığa, bax, mənim qarşımda oturan bu kişinin - Dəmir müəllimin yanına, əhvalatı olduğu kimi danışandan sonra xahiş etdim ki, bu şərəfsiz katibi müharibəyə göndərsin. Müharibə dövründə sovet sədrinin və onun katibinin bronu olurdu ki, müharibəyə getməsinlər.  Dəmir müəllim, yadınıza gəlirmi, dedim ki, o bu iş üçün bizə hörmət də etmək istəyir? Siz də dediniz ki, onun hörməti onun başına dəysin.

1941-1945-ci illərdə müharibəyə gedən çağırışçıların Yevlax rayonundan, dəmiryol stansiyasından yolasalma mərasimləri təşkil olunurdu. Bütün çağırışçılar qatara minənə qədər sovet sədrləri onlar üçün məsuliyyət daşıyırdı. Biz o fağır kişini qatara mindirmişdik.  Dəmir

müəllim, siz son anda göstəriş verdiniz ki, o yazıq, məzlum kişini səhvən gətirmisiniz, onu qatardan düşürün. Kişini vaqondan endirdilər. Dalınca da əmr verdiniz ki, həmin o katib işləyən kişini mindirin qatara, onun bronu ləğv olunub. Sonra da o şərəfsizə dediniz ki, səndə pul olmalıdır, onu çıxar ver bu fağır kişiyə, onsuz da müharibədə sənə pul lazım olmayacaq, orada bazar yoxdur. - Atam sözünü bitirib bir qədər fikrə getdi, sonra nəyisə xatırlayıb dedi. - Dəmir müəllim, yadınızdadırmı, qatar yola düşməzdən qabaq o şərəfsizə bərk bir şallaq vurdum. Həmin vaxt rayon partiya komitəsinin birinci katibi sizdən nəsə soruşdu.

Dəmir müəllim:

- Hə, - dedi - sənin çağırışçını niyə vurduğunun səbəbini soruşurdu, mən də məsələni ona izah elədim.

...Atam o ağır, qanlı-qadalı illərlə bağlı xatirələrini hərdən mənimlə bölüşərdi. Amma bu hadisəni birinci dəfə idi eşidirdim. İndi bu hadisəni sizlərin diqqətinə catdıranda atamın bir vaxtlar mənə danışdığı başqa bir hadisəni də xatırladım.

Atam danışırdı ki, 1941-ci ilin qışında Ağdam Rayon Partiya Komitəsinin birinci katibi və İcraiyyə Komitəsinin sədri onu qəbul edib Qaradağlı Sovetliyinə sədr vəzifəsinə təyin olunduğunu bildiriblər. Birinci katib deyib ki, bu kənddə hər gecə bir neçə adam acından ölür. Səni bu vəzifəyə təyin edirik ki, başqa işlərlə bərabər, əhalinin aclıqdan çıxmasına da xüsusi diqqət göstərəsən.

Kənddə vəziyyət, həqiqətən də, acınacaqlı imiş. Atam deyirdi ki, bir nəfərdən evimizə - Sarıhacılıya məktub göndərdim, ağır gün üçün ehtiyatda saxladığım 30 kiloqram unu Qaradağlıya gətizdirdim. Sovetliyin həyətində ocaq qaladım, böyük bir qazan asdım, aclıq çəkən insanları bir neçə gün horra ilə doyurdum.

O zamanlar Ağdamın, səhv eləmirəmsə, Üçoğlan kədində bir nəfər qadın kolxoz sədri olub. Atam deyirdi, yazda qaytarmaq şərti ilə ondan borc taxıl alaraq kəndə gətirib.

Zaman elə zaman idi, hər tərəfdə aclıq, səfalət hökm sürürdü. Bunları da atam danışardı. Camaatın, illah da, qadınların əyin-başı nimdaş idi, pal-paltarları süzülmüş vəziyyətdə idi. Hətta cırıq, yamaqlı paltarlardan bəzilərinin bədəni də görünürdü. O vaxtlar rayonun kolxozlarının anbarlarında ehtiyat parça saxlanılırdı, ölənləri kəfənləmək üçün.

Atam Yəhya Sadıqovun təkidi ilə kolxoz sədri kolxozçuların ümumi yığıncağını çağırır, qərar qəbul olunur ki, ölənləri kəfənsiz dəfn etsinlər. Anbardakı ehtiyat parçanı isə daha çox ehtiyacı olan qadınların arasında bölüşdürüb paylayırlar ki, özlərinə paltar tikdirsinlər.

Bir gün birinci katib atamı yanına çağıtdırıb deyir, bəs səndən anonim şikayət məktubu yazıblar ki, ölənləri kəfənsiz basdırmağa göstəriş vermisən. Vəziyyəti izah edəndən sonra birinci katib atama deyir ki, Sadıqov, halal olsun, sən əsil azərbaycanlısan.

Mənə elə gəlir ki, Ağdam rayonunda əhalinin mənə tez bir zamanda inanıb etimad göstərməsinin başlıca səbəblərindən biri də elə atamın adı ilə bağlı idi. Yaxşılıq itmir, deyirlər. O ağır illərdə atamın çox adama yaxşılığı dəymişdi və Ağdamın qədirbilən camaatı bunlardan xəbərdar idi. Yəqin elə buna görə də Yəhya kişinin oğlunu qəbul eləmək, ona inanmaq elə də çətin olmadı.

Tək bircə məqamı deyim, Ağdamda işə başlayandan az sonra Qaradağlı kənd əhalisi ilə görüşə getmişdim. Təxminən 75-80 yaşlı ağsaqqal bir kişi mənə yaxınlaşdı: “Nizami müəllim, - dedi - sizin atanız müharibə illərində bizim kəndin sovet sədri olub. İki kiloqram başaqdan ötrü kəndliyə 3 il cəza verilən zamanlarda sənin atan imkan vermədi ki, bizim kənddə bir adamın burnu qanasın. Çox ciddi, təmiz adam idi. O vaxtlar atanız necə işləyibsə, siz də elə onun kimi işləyin”.

Sözün açığı, kişinin dediklərini eşidəndə atama görə xeyli qürurlandım. Amma onu da bilirdim ki, bu sözlər bir tərəfdən mənim üçün avans, etimad olsa da, o biri tərəfdən üzərimə böyük məsuliyyət qoyurdu.

Ağdam əhalisi gözəl bilirdi ki, mənim valideynlərim Ağdamı, ağdamlıları canı kimi, ürəyi kimi sevən Azərbaycan övladları idi. Amma təəssüf ki, bu gün bəzi məmurların dünyaya baxışı, ideologiyası bazar meyarları ilə formalaşıb, təfəkkürü bazar təfəkkürüdür.

İnsanların görülən işi qiymətləndirmələrini, yaxşını-pisdən ayıra bilmələri, bu hisslərini açıq etiraf etmələri, inam və etimadı mənə güc verir, daha da ürəkdən işləməyə həvəsləndirirdi. İnsanın zəhməti qiymətləndirilməyəndə, ətrafdakıların laqeydliyi ilə üzləşəndə kim olursan-ol, istər-istəməz həvəsdən düşürsən, əlin işdən soyuyur. Bu mənada, hər kəs işinə, zəhmətinə, əməyinə dəyər verilməsini, ona qədir-qiymət qoyulmasını istəyir. Mən heç vaxt bir iş görəndə qarşıma məqsəd qoymamışam ki, bu işi kiminsə xoşuna gəlmək üçün görürəm, amma gördüyüm işin qiymətləndirilməsini də xoş qarşılamışam. Yəni bu, mənim üçün məqsəd yox, vasitə olub – insanlardan dəstək görəndə doğru yolda olduğuma inamım daxilən daha da artıb. Bu gün əlimi ürəyimin üstünə qoyub çox rahat şəkildə, əminliklə deyə bilərəm ki, Ağdamda işlədiyim dövrdə həmişə insanlardan xoş rəftar, sayğı və ehtiram görmüşəm. İnsanlar öz hisslərini, öz düşüncələrini ən müxtəlif yollarla büruzə veriblər. Yolda, tədbirdə, kəndlərdə yaxınlaşıb öz minnətdarlıqlarını bildirənlər də olub, təşəkkür və inam dolu məktublar yazanlar da. Xatirələrimi qələmə almağa qərar verərkən şəxsi arxivimə baxanda təsadüfən həmin məktubların bir neçəsi əlimə keçdi. O məktubları bir də oxudum, təsirləndiyim, duyğulandığım anlar da oldu, qürur keçirdiyim məqamlar da. Sevindim ki, bu müddət ərzində el-obam üçün, el-obamın insanları üçün - illah da o insanlar üçün ki, öz doğma yurd-yuvalarını itiriblər - nəsə eləmişəm və elədiklərim öz qiymətini alıb, camaatımın diqqətindən kənarda qalmayıb.

Bu məktubu alanda Ağdamda işlədiyim təxminən iki il olardı. Məktub imzasızdır. Müəllif adını qəsdən, bilərəkdən gizlədib və özünün də qeyd elədiyi kimi, bunu heç bir təmənna ummadığı üçün edib. Əslində, belə məktublar daha səmimi, onun müəllifləri öz fikirlərində daha dürüst olurlar.

O məktubu mən neçə ildən sonra bir də oxudum. Buyurun Siz də oxuyun:

"Hörmətli Nizami müəllim!

Həyatımda ilk dəfə imzasız məktub yazıram. Adətən, imzasız məktublarda iftira, qarayaxma, şikayət və bütün bunların cavabında ola biləcək təpkilərdən doğan qorxu hissi əsas yer tutur. Amma bu, səmimi və xoş bir niyyətlə yazılan məktubdur.

Məktubun imzasız olmağının səbəbi mənim Sizin rəhbərliyiniz altında işləməyim, bu səbəbdən də fikir və münasibətlərimin umacaqlı, təmənnalı olması fikri yaradacağından çəkinməyimdir. Bütün hallarda yazdıqlarım səmimiyyətdən və həqiqətdən yaranan hisslərin ifadəsidir.

Təyinatınızdan sonra ilk ümumrayon müşavirəsində Siz bir qrup insanın yox, hamının - bütün ağdamlıların başçısı olacağınızı söyləmişdiniz... Siz sözünüzü tutdunuz, bunu bacardınız. Bu gün tutduğu vəzifə və mövqedən asılı olmayaraq, heç kim, istər insanlar arasında, istərsə də tək-tək söhbətlərdə, deyə bilməzlər ki, başçı mənim dostumdur, yaxud onunla çox yaxınam. Amma bütövlükdə hamı, əksəriyyət deyə bilər və hesab edir ki, Siz onun dostusunuz. Çünki Sizin xarakterinizdə ayrıseçkilik yoxdur, fərqləndirmə yoxdur. Siz hamı ilə eyni, həm də yaxşı münasibətdəsiniz.

Kimsə yalanla, xəbərçiliklə, qarayaxmalarla, guya canıyanan, daha yaxın olduğunu sübut etmək imkanında deyil. Yüksək intellekt, çox böyük mütaliə, dinləmək və müşahidə bacarığı, nüfuz etmək qabiliyyəti, uzun illərin fərqli iş təcrübəsi və bu təcrübənin yaratdığı idarəçilik məharəti,

insanlarla davranış mədəniyyəti, bir dəfə də olsa nöqsanı və səhvi olan kiməsə səs tonunu qaldırmamaq - bütün bunlar Sizi xarakterizə etməyə, qiymətləndirməyə bəs edər.

Sual yarana bilər: bütün bunları yazmaqda məqsədim nədir?

Yazdıqlarımı Sizin keçirdiyiniz yığıncaqların birində də deyə bilərdim. Çünki gəldiyiniz gündən gördüyünüz işlərdən danışmaq, şişirtmədən danışmaq utanc gətirəcək bir hal deyil, tərif də deyil, olanı deməkdir. Amma heç vaxt kimisə üzünə tərifləmək adətim olmadığından, həm də hamının arşınının bir olmamasından yana Sizə yazmağı lazım bildim.

Bir şeyə inanın. Buradakı fikirlər böyük əksəriyyətin fikirləridir. Normal düşünə bilən, görə və seçə bilən, dəyərləndirməyi bacaran çox böyük əksəriyyətin fikirləridir.

Siz rayonda çox işgüzar ab-hava yaratmısınız. Artıq rayon icra hakimiyyəti aparatından gələn zənglərdən diksinmirik, "xeyir olsun" demirik, şura iclaslarına qorxu və xofla getmirik. Təyinatlarınıza məəttəl qalırıq. Sanki çox uzun illərdir, bu adamların içində olub onları dərindən öyrənmisiniz. İstər çox uğurlu təyinatlarınızla, istərsə də vəzifədən uzaqlaşdırma hallarına görə təəccüb yaranmır, dodaq büzülmür.

Hörmətli Nizami müəllim!

Cılız, yazıq adamların dəyərsiz boşboğazlıqları sabun köpüyünün ömründən və gücündən artıq olmayacaq.

Çox xahiş edirəm, imzasız yazdığma görə günah saymayın. Heç kimliyimlə də maraqlanmayın. Hesab edin ki, çox böyük bir çoxluğun kollektiv düşüncələridir.

Sizə olduğundan daha çox xoş günlər, daha çox sağlamlıq, daha çox ailəvi sevinc arzulayıram".

... Diqqətinizə çatdıracağım növbəti məktubu 2012-ci ilin yayında əslən Ağdam rayonunun Əlimədədli kəndindən olan, AMEA Fizika İnstitutunun böyük elmi işçisi vəzifəsində çalışan fizika üzrə fəlsəfə doktoru Afaq Mədədzadədən almışdım. Afaqı buna qədər tanıyırdım. Daha doğrusu bu qız, demək olar, hər bayram ərəfəsində rayon icra hakimiyyətinə təbrik məktubu yazır, öz arzularını bildirirdi. Afaqın məktublarından hiss edirdim ki, çox vətənpərvər, el-obasını, Ağdamı ürəkdən sevən bir qızdır. Məktubundan bilirdim ki, fizikdir, elmi fəaliyyətlə məşğul olur. Bir dəfə onun məktublarından birinə cavab yazdım, arzularımı çatdırdım, elmi fəaliyyətində uğurlar dilədim və Ağdam Rayon İcra Hakimiyyəti olaraq daima ona lazımi köməklik göstərməyə hazır olduğumuzu bildirdim. Aradan bir müddət keçdi. Bir gün ondan indi Sizin diqqətinizə çatdıracağım bu məktubu aldım. Məktubu təqdim etməzdən əvvəl bildirim ki, bu məktubu alandan dərhal sonra Afaqla əlaqə saxlayıb onun xahişini yerinə yetirdim, Rusiya Elmlər Akademiyasının tabeliyində olan elmi-tədqiqat mərkəzlərində təcrübə keçməsi üçün lazım olan vəsaiti ödədim və elmi fəaliyyətində uğurlar arzuladım.

İndi isə məktubu təqdim edirəm:

“Çox hörmətli Nizami müəllim!

Fəaliyyətinizin, Vətənə ləyaqətlə, yorulmadan, şərəfli xidmətinizin səngimək bilmədiyi, hətta daha da intensivləşdiyi (isti avqust günlərində Qəbələdə və Şəkidə məskunlaşan həmyerlilərimizlə görüşünüzü yüksək dəyərləndirirəm), Sizdən fərqli olaraq, bir çoxlarının istirahət etdiyi bu qızmar yay günlərində vaxt və imkan tapıb Sizə ünvanladığım məktubumu oxusanız çox minnətdar olaram.

Mən həmişə oxumaq, öyrənmək, inkişaf etmək, ixtisasım üzrə yüksəksəviyyəli kadr kimi yetişərək, gələcək nəslin yüksəksəviyyəli vətəndaş kimi yetişməsinə istiqamət vermək həvəsində olmuşam. İstəmişəm ki, mən Vətənimlə, doğma yurdumla necə qürur duyuramsa, Vətənim Azərbaycan və onun qeyrət qalası olan, dağ vüqarlı Ağdamım da

mənimlə həmişə qürur duysun. Bu məqsədimə çatmaq üçün artıq 4 ilə yaxındır ki, dünyanın müxtəlif ölkələrində keçirilən gənclərlə bağlı tədbirlərdə imkanım daxilində iştirak edərək, çalışmışam ki, Vətənimi layiqincə təmsil etməklə yanaşı, inkişaf etmiş ölkələrdən gələn gənclərin də praktikasından yararlanım və hesab edirəm ki, müəyyən dərəcədə məqsədimə nail olmuşam. Lakin kifayətlənməyib yeni fürsətlər axtarışındayam.

Hörmətli Nizami müəllim!

Bu ilin (2012-ci il) may ayında yenə də bir fürsətdən yararlanım dedim və Rusiya Elmlər Akademiyası, Kurçatov adına Elmi Araşdırmalar Mərkəzi və Rusiya Təhsil Nazirliyi tərəfindən elan edilmiş bir müsabiqəyə sənəd verdim. Müsabiqə hər 3 ildən bir keçirilir və son nəticədə MDB dövlətlərinin hər birindən iki nəfər Rusiya Elmlər Akademiyasının tabeliyində olan elmi-tədqiqat mərkəzlərində bir illik təcrübə keçmə şansı əldə edir. Bu müsabiqədə qalib olub, bir il sözügedən mərkəzlərdə təcrübə keçmək doğrudan da böyük şans hesab oluna bilər, çünki texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə, yeni cihaz və avadanlıqlardan istifadə və müasir elmi laboratoriyaların qurulmasında və iş təcrübəsində Rusiya Azərbaycandan iki-üç il irəlidədir. Gələcəkdə Vətənimə gərəkli və təcrübəli kadr olmaq arzusu ilə mən bu müsabiqədə qalib olmaq iddiasıyla iştirak etdim və qalib gəldim. Azərbaycandan seçilən yeganə gənc mən oldum və 2012-ci ilin sentyabr ayının 15-dən Rusiya Federasiyasının üç nəhəng Elmi-Tədqiqat və Araşdırmalar Mərkəzində (Dubna şəhəri BNTİ, Moskva şəhəri Kurçatov adına MET mərkəzi və Şubnikov adına Kristalloqrafiya İnstitutu) təcrübə keçmək və 7-yə yaxın universitetdə müasir metodlara yiyələnmək şansı qazanmışam. Lakin qarşımı kiçik bir problem kəsir, belə ki, builki proqram təhsil xarakterli olduğundan ödənişli həyata keçiriləcək, inanın ki, bunu müsabiqənin əvvəlindən bilmirdim. Ödəniş 10 000 Avro tərtibindədir. Xoşbəxtlikdən məbləğin tam yarısını (5000 Avro) əməkdaşı olduğum AMEA ödəməyi boynuna götürdü. Qalan məbləğdən valideynlərimlə birgə kiçik ailə büdcəmiz hesabına yalnız 2000

Avro ödəməyə gücümüz çatdı. Qalan 3000 Avro məbləğ üçün aciz qaldığımdan mən qazandığım bu şansdan imtina etmək məcburiyyətindəyəm.

Hörmətli Nizami müəllim!

İnanın ki, bu çətinliklə üzləşəndə ilk ağlıma gələn yenə də doğma Ağdam və Siz oldunuz. İnanın ki, qürurum yol vermədi ki, mən başqa ünvana ağız açım. Amma Sizə müraciət etməyə də çətinlik çəkirəm, səbəbi və qarşımı kəsən məqam, bir neçə müddət əvvəl Sizin mənə ünvanladığınız hörmət, etibar və güvən dolu imzalı məktubunuzda olan son cümlə oldu. Siz o məktubda yazırdınız: "Afaq qızım, Ağdam Rayon İcra Hakimiyyəti olaraq, elmi fəaliyyətinizdə, eləcə də şəxsi həyatınızla bağlı mövcud olan problemlərinizin həllində sizə maddi və mənəvi dəstək göstərməyə hazırıq". Bu cümlə bir atanın doğma qızına dediyi ən səmimi sözlər kimi səslənir, mən bu cür inamın, etibarın qarşısında aciz qaldığımdan, səmimiyyətinizdən "istifadə edirəm" kimi başa düşülməkdən çəkindiyim üçün Sizə müraciət etməyə sözün əsil mənasında utanırdım. İndi məcburiyyət qarşısında Sizə müraciət edirəm və çox xahiş edirəm, bunu Sizin səmimiliyinizdən "istifadə" kimi dəyərləndirməyəsiniz. Həqiqətən mən bu 1 illik təcrübəkeçmə kursunun arzusundayam, həm də 2 il öncədən. İndi məcburən Ağdamdan kömək istəyirəm, əgər mümkünsə, təhsil üçün ödənişin çatışmayan hissəsini (3000 Avro) 3300 AZN-ni ödəməyimə imkanınız daxilində köməklik göstərəsiniz.

Çox hörmətli Nizami müəllim!

Onu da başa düşürəm ki, bu gün düşmənlə həmsərhəd, döyüş bölgəsi və əhalisinin yarısı məcburi köçkünlük həyatı keçirən doğma Ağdama bizim köməyimiz vacibdir, çox gözəl anlayıram ki, belə çətin şəraitdə Ağdamdan kömək istəməyə haqqımız çatmır. Buna görə də mənə köməklik göstərilməsinin mümkün olmamasını tam səmimi qəbul edərəm.

Öncədən hər şey üçün, vaxt ayırıb məktubumu oxuduğunuz üçün təşəkkür edirəm!

Dərin hörmət və ehtiramla,

Afaq İsa qızı Mədədzadə,

Ağdam rayonu Əlimədədli kənd sakini, AMEA Fizika İnstitutunun böyük elmi işçisi, fizika üzrə fəlsəfə doktoru".

Bu məktubu da 2012-ci il aprel ayının 12-də almışam, həm də ad günümdə. Düzünü deyim ki, ad günümdə rayon sakinindən belə bir təbrik məktubu almaq məni çox məmnun etmişdi.

Bu da həmin məktub:

"Hörmətli Nizami müəllim!

Bir yaz səhərində eşitdim ki, Sizin ad gününüzdür. Sizi təbrik etməyi, həyatda ən şirin nə varsa, Sizə arzulamağı özümə borc bildim.

Sizin ruhunuz Qarabağın torpağından, suyundan, havasından yoğrulub. Siz Vətənini sevən, yurd həsrəti ilə yanan, bacardığı və gücü yetənə qədər elinə-obasına dayaq duran, bütün varlığı ilə qurub-yaratmaq üçün çırpınan, Böyük Ağdam üçün canından da keçməyə hazır olan böyük insansınız.

Sizi uzaqdan da olsa, tanıyan bir insan kimi hiss edirəm ki, daima Böyük Ağdama qayıtmaq, qurub-yaratmaq həvəsi ilə yaşayır və darıxırsınız. Böyük Allah sizin Ağdama qayıtmağınıza, xəyallarınızın gerçəkləşməsinə, düşüncələrinizin pöhrələnməsinə yardımçı olsun.

Siz yaratdığınız və dinlədiyiniz mahnıların qanadında səmalara yayılırsınız, ənginliklərdən Ağdamın təbiətinə, hər bir daşına, qayasına, ağacına, yarpaqlarına hopursunuz, onların yaddaşına həkk olursunuz. İnanıram, əminəm ki, siz xeyirxah əməllərinizlə insanların qəlbində həmişə

yaşayacaqsınız. Bizlərə isə Sizinlə fəxr etmək düşər. Daima sağlam və xoşbəxt yaşayın ki, bizim də sevinc payımız çox olsun.

Hörmətlə,

A.Əliyev,

Ağdam rayon sakini”.

***

Ağdam rayonu işğal edilən gün - 1993-cü ilin iyul ayının 23-də mən İmişli Rayon Polis Şöbəsinin rəisi vəzifəsində işləyirdim. Doğma yurdumun - Ağdamın ərazilərinin təxminən 70 faizinin erməni qəsbkarları tərəfindən işğal edilməsi hamı kimi məni də bərk sarsıtmışdı. Elə vəziyyətdə idim, həmin ərəfələrdə toy mərasimlərinin çal-çağırla keçirilməsini qəbul edə bilmirdim. Düzdür, illər keçdikcə yavaş-yavaş toy mərasimlərinin keçirilməsinə təbii yanaşmağa başlasam da, toylarda qol götürüb oynamağı özümə biryolluq qadağan etdim. Bu mənim torpaqlarımızın işğalına qarşı özüməməxsus etirazımdır. Fikrimi izah etməyə çalışım. Deyək ki, mən Masallıda rayon polis şöbəsinin rəisi vəzifəsində işlədiyim vaxtlardır və orada dəvət olunduğum bir toyda qol götürüb süzürəm. Kənardan baxan adamlar üzümə olmasa da, arxamca deməzdilərmi ki, rəisə bax, torpağı, yurd yeri işğal altındadır, amma gör utanmaz-utanmaz necə oynayır? Deyə bilərdilər və doğru da deyərdilər. Mənim üçün Vətən doğulduğum torpaqdan başlayır. Nə qədər ki, o torpaqlar düşmən tapdağı altında inləyir, nə illah eləsəm də, ürəkdən sevinə, deyib-gülə bilmərəm.

Yadıma toyda oynamaqla bağlı bir hadisə düşdü. Səhv eləmirəmsə, 2011-ci il idi, Ağdamın kəndlərdən birində iki nəfər vəzifəli şəxsin toyda oynamaq üstündə savaşmaq istədiyini, amma camaatın buna imkan vermədiyini eşitdim. Bu hadisədən bir müddət sonra icra hakimiyyətində

keçirilən növbəti müşavirədə üzümü iştirakçılara tutub dedim, nə qədər ki, Böyük Ağdam erməni işğalındadır, toylarda oynamaq bizlərə yaraşmaz, şəxsən mən işğaldan sonra indiyədək heç bir toyda qol qaldırıb oynamamışam. Fikirləşirdim ki, toyda savaşan o rəhbər şəxsləri səhnəyə çağırıb kollektiv qarşısında danlamaq yerinə düşməz. Ona görə də həmin şəxslərə iradımı bu qaydada, üstüörtülü şəkildə deməyə üstünlük verdim, düşündüm ki, bu, onların öz əməllərindən xəcalət çəkmələri, utanmaları üçün kifayət edər. Müşavirənin gedişi boyu toyda savaşan o rəhbərlərə göz qoyurdum: sanki tikan üstə oturmuşdular, bəlkə də, ürəklərində dua edirdilər ki, kaş icra başçısı bizi ayağa qaldırmasın.

Təxminən üç il sonra - 2014-cü ildə, artıq mən təqaüddə olanda həmin bu toy məsələsi Ağdamda yenidən müzakirə mövzusuna çevrilir. Məndən sonra Ağdam rayonuna təyin olunan icra hakimiyyəti başçısına yarınmaq istəyən Əhmədağalı kənd bələdiyyəsinin sədri çıxışında deyir ki: “Cənab başçı, sizi Ağdam rayonuna Allah yetirib. Keçmiş başçı bizə toyda oynamağı da qadağan etmişdi. Bir az da gec gəlsəydiniz, əldən getmişdik”.

Bələdiyyə sədrinin çıxışından sonra müşavirə iştirakçıları onun dediklərinə ayaqlarını döşəməyə döyməklə etirazlarını bildiriblər...

Möhtərəm oxucu!

Sizi inandırıram, əgər o icra başçısının yerində mən olsaydım, vəzifə vermək əvəzinə, həmin adamı dərhal zaldan qovardım, deyərdim ki, get nə qədər istəyirsən oyna.

Yeni təyin edilmiş icra başçısına yarınmaq istəyən o əbləhin zərrə qədər vicdanı olsaydı, əslində, icra başçısına bunları deməliydi: sabiq icra başçısı Nizami Sadıqov bir dəfə təsadüfən bizim kəndin mərkəzindəki mağazaya girəndə bir mənzərənin şahidi olur. Bir qadın mağazada işləyən oğlana deyirmiş ki, oğlum, pulum yoxdur, mənə şəkər ver, adımı yaz borc dəftərinə. Bunu görən icra başçısı mağazada əhalinin adı yazılmış borc dəftərini dükançıdan alıb yandırır və bütün borcları özü ödəyir.

Rəhmətlik atam Ağdamda kiminsə pis əməlini eşidib-biləndə həmişə deyərdi, o kimdirsə, Ağdama gəlmədir. Atam hesab eləyərdi ki, ağdamlı heç vaxt pis əməl sahibi ola bilməz.

***

Möhtərəm oxucu!

Bütün həyatım və fəaliyyətim boyunca məndən ötrü həmişə böyük önəm daşımış və indi toxunacağım bir incə, həssas nüans barədə fikirlərimi bilərəkdən axıra saxlamışdım. Əslində, bu xatirə-kitabda söhbət açdığım məsələlərin ayrı-ayrılıqda hər birinin hansısa şəkildə həmin nüansla bağlılığı var.

Mənim üçün Vətən təkcə yaşadığım coğrafi ərazi, əcdadlarımızın mədfəni, babalarımızın, özümüzün doğulub boya-başa çatdığı məkan kimi əziz deyil. Vətən mənim üçün həm də o torpaqlarda doğulmuş, böyüyüb boya-başa çatmış insanları ilə əzizdir, doğmadır. Vətən mənim üçün əcdadlarımızdan bizə miras qalmış o torpaqlarla həmin torpaqlarda böyüyüb boya-başa çatmış insanların cəmidir, bütöv halıdır. Ağdam - bizim hiss və duyğularımızın, ən mübhəm arzularımızın mahiyyətidir, özüdür. Ağdam – damarlarımızda qaynayan qanımızın ritmi, ruhumuzun rahatlıq tapa biləcəyi yeganə məkandır. Ağdam - bizim arxamız, dayağımız, ümid qapımız, isti ocağımız, gəncliyimizin, atalı-analı günlərimizin beşiyidir. Bu torpağın hər qarışında, hər qayasında, hər daşında əcdadlarımızın, nənə-babalarımızın isti nəfəsi, ayaq izləri yaşayır. Bu yurdun hər məhəlləsinin, hər döngəsinin, hər evinin, hər ağacının yaddaşımızda bir nişanəsi mütləq var.

Mən həmişə, xüsusi ilə də Böyük Ağdamın işğalından sonra, harada işləməyimdən asılı olmayaraq, daima çalışmışam ki, o torpaqlar üçün, o torpağın insanları üçün nəsə gərəkli bir iş görüm, əlimdən gələni edim. Amma Ağdamı, onun insanlarını nə qədər böyük məhəbbətlə sevsəm də, həmişə yerlibazlıqdan uzaq olmağa çalışmışam, yaxşıya yaxşı, pisə pis

demək həyat prinsipim olub. Hətta bilə-bilə ki, pisə pis dediyimə görə başım ağrıyacaq, yenə də doğru bildiyimi demişəm.

İndi də sizlərlə bölüşəcəyim bu məsələyə görə, ola bilsin, kimlərsə məndən narazı qalsınlar, amma nə olur-olsun, həqiqəti deyəcəyəm.

Ağdam rayonuna təyinat aldığım 3-4 ay olardı, bu müddət ərzindəki müşahidələrimdən belə qənaətə gəldim ki, Quzanlı qəsəbəsində tamam başqa ab-hava hökm sürür, Böyük Ağdamın bizə əmanəti olan ağdamlılıqdan çox az nəsə qalıb.

Uzun illərin ağır həyat şəraiti, mərhumiyyət və çətinliklər, bir yandan da yerli rəhbərliyin yarıtmaz idarəçiliyi əhalini çıxılmaz vəziyyətə saldığından milli-mənəvi dəyərlər unudulmuş, insanlar yalnız sağ qalmaq uğrunda mübarizə aparmaq həddinə çatdırılmışdı. Burada firavan yaşamaq istəyən insan mütləq ya kiməsə böhtan atmalı, ya anonim yazmalı, ya da şantajla məşğul olmalı idi. Ən faciəli cəhət o idi ki, bütün bu neqativ hallar Quzanlı qəsəbəsində həyat tərzinə çevrilmişdi. Bu acınacaqlı duruma yalnız və yalnız sərt, qətiyyətli addımlar atmaqla, ciddi tədbirlər həyata keçirməklə son qoymaq mümkün idi.

Məmurla vətəndaş arasındakı baryeri götürmək, əhalinin istənilən problemlə bağlı idarə və müəssisə rəhbərinə müraciət etməsi prosedurunu asanlaşdırmaq istiqamətində atılan addımlar barədə, məqamı gəldikcə, məlumat verdiyimdən bu məsələlər üzərində dayanmağa lüzum görmürəm. Həm də, düşünürəm, əgər məmur-vətəndaş münasibətlərindəki problemləri qısa müddətdə həll etmək mümkün idisə, deməli, çirkin metodlarla insanların psixologiyasının alt-üst edilməsi, mənəviyyatın yaşamaq uğrunda mübarizə alətinə çevrilməsi kimi ətürpədən bir mühitin yaradılması problem yox, faciə idi.

Çox düşünüb-daşınandan sonra qərara gəldim ki, əvvəlcə təbliğatdan başlayım. Bu məqsədlə  rayon icra hakimiyyəti adından “Böyük Ağdamın bizə əmanəti olan ağdamlılıq haqqında məlumat kitabçası” hazırlayaraq

rayonun bütün orta məktəb şagirdlərinə paylanmasını təmin etdik. Kitabça bu mətnlə tərtib edilmişdi:

"BÖYÜK AĞDAMIN BİZLƏRƏ ƏMANƏTİ OLAN AĞDAMLILIQ:

Azərbaycanı və Ağdamı sonsuz məhəbbətlə sevməkdir;

Dövlətçiliyə sadiqlikdir;

Nəfsinə, əxlaqına və vicdanına hakim olmaqdır;

Həmyerlilərinə, böyük-kiçiyə hörmət, ehtiram və mərhəmət göstərməkdir;

Dostluğa və əqidəyə sadiq qalmaqdır;

Cəsarətli olmaq, ölümdən qorxmamaqdır;

Fədakar olmaq, başqalarına nümunə göstərməyi bacarmaqdır;

Qonşuna, ətrafındakı insanlara öz doğman kimi münasibət bəsləməkdir;

Səxavətli olmaq, kasıblara əl tutmaqdır;

Qeybətdən, şərdən, böhtandan və xəyanətdən uzaq durmaqdır;

Kimsənin haqqına göz dikməməkdir".

Bu fikirlər mənim xəyallarımın məhsulu yox, Böyük Ağdamda yaşayan həmvətənlərimizin həyat tərzi, uzun illərdən bəri formalaşmış insani keyfiyyətlərin ortaya çıxardığı spesifik yaşam modeli, əxlaq kodeksi idi.

Hələ XVIII əsrin birinci yarısında Qarabağ xanlığının əsası qoyularkən Pənahəli xanın iradəsi ilə Ağdamdan, onun kəndlərindən Şuşa qalasına xeyli insan köçürülmüşdü (Təsadüfi deyildi ki, Şuşa şəhərindəki bir çox məhəllələrin adları Ağdam kəndlərinin adı ilə üst-üstə düşürdü:

Çuxurməhəllə, Seyidli və s.). Köçürülənlər əsasən bəy nəslinə mənsub insanlar və sənətkarlar idi. Ağdam rayonunun indiki ərazilərində yaşayan əhali isə, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olmuş, oturaq həyat tərzi keçirmişdi. Tarixən bu insanlar öz problemlərini sivil yolla, münaqişəsiz həll etməyə üstünlük verərmişlər. Buna görə də Ağdamda başqasının haqqına göz dikmək, birmənalı olaraq, qəbahət sayılardı.

Böyük Ağdamdan bizə miras qalan ağdamlılıq, ilk növbədə, çalışdığın sahədə Vətənə vicdanla xidmət etmək, Vətəni, onun bir parçası olan Ağdamı sonsuz məhəbbətlə sevmək, dövlətə, dövlətçiliyə sədaqətdir. Sən öz nəfsinə, əxlaqına və vicdanına hakim olmağı bacarmalısan, böyük-kiçik yeri bilməli, insanlara hörmət, ehtiram və mərhəmət göstərməlisən, səxavətli olub kasıblara əl tutmalısan, kimsənin haqqına göz dikməməli, qeybətdən, şərdən, böhtandan və xəyanətdən uzaq durmalı, dostluğa, əqidənə sadiq qalmalısan, cəsarətli olmalı, ölümdən qoxmamalısan, öz davranışınla başqalarına nümunə göstərməlisən. Biz bu sözləri öz ata-babalarımızdan nəsihət kimi eşitməmişik, biz bu keyfiyyətləri onların işində, əməlində, davranışında görmüşük və mənimsəmişik. Mən həmişə düşünmüşəm ki, hər birimiz bu əmanəti başımız üzərində saxlamalı, harda oluruqsa-olaq, hansı vəzifədə çalışırıqsa-çalışaq, nə qədər çıxılmaz vəziyyətə düşürüksə-düşək, bu həyat prinsipinə əməl etməliyik. Mən öz fəaliyyətimdə daima belə olmuşam və hər bir həmyerlimi də belə görmək istəmişəm, ona görə də Ağdamda çalışdığım müddətdə insanlarda bu hisslərin ölməməsi üçün əlimdən gələni etmişəm. Biz bu əmanətə sahib çıxmalıyıq ki, sabah Böyük Ağdama dönəndə onun üzünə baxmağa, torpağına ayaq basmağa haqqımız çatsın!

Ulu Tanrı hər birimizə bu əmanəti daşımağa güc, təpər versin!